# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

# ВЕСТНИК БАКИНСКОГО УНИВЕРСИТЕТА

# NEWS OF BAKU UNIVERSITY

ISSN 1609-0586

**SOSİAL-SİYASİ**
***elmlər seriyası***

***серия***
**СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК**

***series of***
**SOCIAL-POLITICAL SCIENCES**

***№1.2016***

***Baş redaksiya heyəti:***
**Məhərrəmov A.M.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Əfəndiyev V.Ə., Xələfov A.A., Məmmədəliyev V.M., Paşayeva N.A., Quliyeva Ş.T.** (məsul katib).

***Seriyanın redaksiya heyəti:***
**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N., Əhmədov Ə.C., Əliyev B.H., Əlizadə H.Ə., İsmayılov R.R., Məhərrəmov A.M., Qasımov A.M., Məmmədov R.F., Rüstəmov İ.Ə., Səməndərov F.Y., Əliyev Ə.İ., Həsənalıyev Z.M., Əliyeva K.R.**

B.310.30.IV.1999

*© «Bakı Universiteti» nəşriyyatı, 2016*

Redaktorları: *Məryəm Qədimova*
*Yafəs Quliyev*
*Nərgiz Əliyeva*
Kompüter tərtibçisi: *Azadə İmanova*

*Yığılmağa verilmişdir: 07.06.2016 Çapa imzalanmışdır: 25.11.2016*
*Formatı: 70x100 1/16. Həcmi 8,25 ç.v. Sifariş 79. Sayı 120. Qiyməti 2.00 man.*

*«Bakı Universiteti» nəşriyyatı, Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi, 23.*
*Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.*
*Şəhadətnamə B310.30.04.1999.*
*bun@box.az*

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 4 sm, aşağıdan – 4,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə disketlə (disklə) birlikdə təqdim olunur, disketlər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. Bakı: Hüquq ədəbiyyatı, 1999, 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: 7 cilddə, IV c., Bakı: Elm, 2000, 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 2001, № 3, s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. Bakı: Nurlan, 2003, s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. … dis. Bakı, 2003, 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siy.2, iş 26, vv.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

***PS: Rəhbərliyin bizə verdiyi göstərişə əsasən növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcək.***

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2016*

## HÜQUQ

**UOT 321(091); 34(091)**

# SİYASİ-HÜQUQİ SİSTEMİN FORMALAŞMASININ BƏZİ NƏZƏRİ ASPEKTLƏRİ HAQQINDA

**X.C.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***xayyam-ismail@mail.ru***

*Siyasi və hüquqi sistemlərin daimi dəyişkənliyi toplumun inkişafının obyektiv qanunauyğunluqlarını şərtləndirən müxtəlif elementlərinin uzlaşmasına gətirib çıxarır. Bu baxımdan hüquq və siyasətin sistemli xarakterinin nəzəri aspektlərinin elmi təhlili, müasir dünyada Azərbaycanın siyasi və hüquqi həyatında inteqrasiya proseslərinin öyrənilməsi, cəmiyyətin inkişafının mühüm siyasi-hüquqi prinsipi kimi ədalətin təhlili, siyasi-hüquqi sistemin effektiv və səmərəli şəkildə formaşlaşdırılmasının metod və qaydaları sistemi kimi texnoloji yanaşmanın mahiyyətinin açılıb göstərilməsi birinci dərəcəli əhəmiyyət kəsb edir. Məqalədə siyasi-hüquqi sistemin xüsusiyyətləri, onun formalaşmasının nəzəri aspektləri təhlilə məruz qalır, siyasət və hüququn inteqrasiyasının müasir vəziyyəti, siyasi-hüquqi prosesdə ədalət prinsipinin yeri, habelə effektiv siyasi-hüquqi fəaliyyətin formalaşmasının mühüm qaydalarından biri kimi hüquqi texnologiyanın mahiyyəti araşdırılmaqla müəyyən nəticələrə gəlinir.*

**Açar sözlər:** siyasi-hüquqi sistem, normativ hüquqi baza, hüquq və siyasətin inteqrasiyası, sistemli dəyişkənlik, ədalət prinsipi, milli hüquq mənbələri, mənəvi dəyərlər, metodlar sistemi, hüquqi texnologiya, qanunvericilik texnikası

Siyasi-hüquqi sistemin quruluşunu, strukturunu izah etməyə, ən əvvəl isə konkret tarixi şəraitlərdə onun təşkil edilmə mexanizminin dərkinə və istifadəsinə imkan verən sistemli-genetik yanaşmanın metodoloji əsaslandırılması müasir dövrümüzdə xüsusi aktuallığa malikdir. Cəmiyyətin siyasi-hüquqi sisteminin formalaşmasını şərtləndirən amillərin, eləcə də bu sistemin ayrı-ayrı elementlərinin təhlilinə həsr olunmuş bir sıra tədqiqatlarda (8, 1-400; 7, 152; 15, 94; 6, 47-56; 4, 1-521) siyasətin və hüququn təhlilinə sistemli yanaşmanın nəzəri-metodoloji və praktiki əhəmiyyəti, eləcə də cəmiyyətin siyasi-hüquqi sisteminin əsasını təşkil edən müxtəlif elementlərin məzmun və mahiyyətinin bir vəhdət halında baxılmasının vacibliyi vurğulanır.

Müstəqilliyini yeni qazanmış ölkələrin, o cümlədən Azərbaycanın inkişafının keçid dövrü adlandırılan ilk çağlarında onların siyasi-hüquqi sistemi bir sıra səciyyəvi cəhətləri ilə diqqəti cəlb edir, yəni müasir keçid prosesləri bəşəriyyət tarixinin ötən əsrlərində mövcud olan analoji vəziyyətlərdən mühüm dərəcədə fərqlənən bir sıra xarakteristikalara malikdir. Bu xüsusiyyətlər sosial-

hüquqi hadisə və proseslərin xarakteristikası və əsas təmayüllərini başa düşməyə, cəmiyyətin hüquqi sisteminin qurulması və onun dərk edilməsi üçün həlli vacib olan müasir metodoloji problemlərin səbəblərini üzə çıxarmağa imkan verəcəkdir.

Qeyd etmək lazımdır ki, bir formasiyadan digər formasiyaya keçid əksər hallarda hesab olunduğu kimi, ictimai struktur və münasibətlərin – iqtisadi, siyasi, sosial, hüquqi, psixoloji, mənəvi və s. münasibətlərin lokal səciyyəli deyil, sistemli dəyişməsi ilə müşayiət olunur. Bu məqamın dərk edilməsi keçid dövründə dəyişikliklərin sistemli xarakterini anlamağa imkan verir. Onu da demək lazımdır ki, sistemli dəyişkənlik keçid vəziyyətini yaşayan bütün ölkələr üçün tipik bir qanunauyğunluqdur. Ona görə də, əgər belə bir sual ortaya çıxsa ki, keçid dövründə hüquq, hüquq sistemi və onun institutları necə dəyişir, o zaman bu suala yalnız hüquq elminə istinadən cavab vermək o qədər də asan olmayacaq, çünki keçid dövrü mərhələsində yalnız hüquqda deyil, cəmiyyətin digər sferalarında da köklü dəyişikliklər baş verir. Buradan da aydın olur ki, normativ hüquqi bazanın dəyişməsinin səbəblərinin kökü yalnız cəmiyyətin hüquqi sistemində deyildir, daha çox bu təbəddülatlar digər ictimai münasibətlər və institutlarla bağlıdır. Belə ki, bir çox problemlər vardır ki, ilk baxışda onlar qanunyaratma və ya hüquq tətbiqetmə sferarasında yaranırlar, əslində isə onların yaranmasının həqiqi mənbələri iqtisadi böhran, siyasi mübarizə, ekoloji fəlakətdir. Bu səbəblərin əsl mahiyyətinin üzə çıxarılması üçün sistemli yanaşmanın metodologiyasının aydınlaşdırılması tələb olunur.

Keçid dövrünün zaman sərhədlərinin qeyri-müəyyənliyi qanunvericilik fəaliyyətini mühüm dərəcədə çətinləşdirir və bu da əksər hallarda obyektiv gerçəkçiliyin qanunlarının qeyri-adekvatlığına aparıb çıxarır. Öz növbəsində, bu hal hüquq sisteminin və onun əsas sferaları olan qanunyaradıcılığı, hüquq tətbiqetmə və hüquq düşüncəsinin təşəkkülünə təsir göstərməyə bilmir. Hazırda Azərbaycanın da yaşadığı keçid dövrünün cəmiyyətləri üçün sosial-siyasi və hüquqi orientirlərin təkamüli, tədrici deyil, radikal, qəti vasitə və tədbirlər, əvvəl mövcud olan ideoloji sistemin dağıdılması və yenisinin doğuluşu, cəmiyyətin, siyasətin və hüququn inkişaf idealları və məqsədlərinin qlobal transformasiyası, əvvəlki dünyagörüşünün iflasa uğraması və yenisinin formalaşdırılması səciyyəvidir. Dəyişikliklər mərhələlərində (müasir keçid dövrü də istisna deyildir) cəmiyyətdə əvvəlki tarixi təcrübənin, ənənələrin və idealların inkar edilməsi kimi qanunauyğunluq qabarıq şəkildə üzə çıxır. Belə bir fikirlə razılaşmaq olar ki, «sovet hakimiyyətinin apologetikası (mədh edilməsi) öz yerini köhnə rejimin (yəni sovet hakimiyyətinə qədərki rejimin – X.İ.) ideolojiləşdirilməsinə vermiş oldu» (11, 79). Başqa sözlə ifadə etsək, məsələn, Rusiyada monarxiya quruluşunun, Azərbaycanda Xalq Cümhuriyyəti dövrünün apologetikası formalaşdırılır. Belə yanaşma əvvəlki dəyərlərin daha məzmunlu və zəngin dəyərlərə çevrildiyi zaman dialektik inkar formasını tamamilə istisna edir. Əksinə, biz burada «lüzumsuz» inkar etmə ilə qarşılaşırıq. İqtisadi, maarifləndirici, mədəni məsələlərin həllində insanların bütöv bir nəslinin şücaəti və s.

kimi hamıya məlum olan tarixi həqiqətlər «tarixin zibilliyi»nə göndərilir. Son nəticədə sosial-tarixi əlaqələr üzülür, nəsillər, onların dünyagörüşü və mənəvi dəyərləri toqquşdurulur.

Dövlətlərin tarixi təkamülündəki keçid mərhələsi üçün xarakterik olan amillərin içərisində sosial prosesin modelləşdirilməsi və cəmiyyətin, dövlətin, hüququn qurulmasının real alternativ variantların formalaşdırılmasını; subyektiv faktorun, siyasi liderlərin fərdi və insani keyfiyyətlərinin mühüm əhəmiyyət kəsb etməsini; əhalinin həyat səviyyəsinin dəyişməsi (yəni, əhalinin əksər hissəsinin həyat səviyyəsinin kəskin surətdə aşağı düşməsi, sosial və iqtisadi tənzimləmə kimi dövlətin həyati vacib funksiyalarının zəifləməsi) və mövcud sosial müdafiə sisteminin dağılmasını; neqativ halların kəskin şəkildə artmasını; bu dövrə adekvat olan hüquq sisteminin formalaşdırılmasını qeyd etmək olar.

Göstərilən xüsusiyyətlərlə yanaşı, hazırki dövrdə özünü biruzə verən daha bir cəhətin üzərində dayanmaq da yerinə düşərdi. Məsələ bundadır ki, postsosialist dövlətləri eyni tipli hüquq sisteminin yaradılması vəzifəsini həll edirlər, özü də bu zaman keçid dövrünün konstitusiya qanunvericiliyinə mühüm əhəmiyyət verilir (9, 266-268). Həmin qanunvericiliyin əsasında eyni tipli hüquq sisteminin yaradılması cəhdi sosial, iqtisadi və psixoloji köklərə malikdir. Yəni vaxtilə vahid bir ərazidə yaşayan insanların düşüncələrində hələ də əvvəlki dövrün hüquqi məkanına aid bilgilər üsütünlük təşkil etdiyindən hazırki dövrdə də qanunvericiliyin «ümumi köklər»dən qaynaqlanaraq inkişaf etməsi, qəbul edilən hüquqi aktların bir-birilə uzlaşması prosesi müşahidə edilməkdədir. Nəticə etibarilə postsosialist hüquq sisteminin real təşəkkülü həm ümumi cəhətləri, həm də fərqləri üzə çıxarır.

Yuxarıda qeyd olunanlar, əlbəttə ki, nəhəngmiqyaslı dəyişikliklərin bütün çoxcəhətliliyini əks etdirə bilməz. Bununla belə, aparılmış təhlil hüququn ontoloji aspektlərini, hüquq sisteminə keçid proseslərinin deterministik faktorlarının təsirini müəyyən etməyə imkan verir. Artıq ilk təxminlərdən aydın olur ki, keçid vəziyyətinin bir sıra xüsusiyyətləri hüquq sisteminin qurulması zamanı dəyərlərin formalaşmasına bilavasitə və ya dolayı şəkildə təsir göstərir. Deyək ki, ölkə əhalisinin böyük hissəsinin həyat şəraitinin aşağı düşməsi, cinayətkarlığın, məmurların korrupsiyaya qurşanmasının artması hüquq sisteminin aksioloji tərəflərini, o xüsusda da bu sistemin qurulmasının metodlarını aktuallaşdırır. Cəmiyyətin tarixi inkişafının ayrı-ayrı dövrləri arasındakı əlaqələrin unudulması, yəni hüquqi varislik və tarixilik prinsiplərinə etinasızlıq kimi xüsusiyyətlər estatizmə, yəni mövcud sosial quruluşu və ona müvafiq olan hüquq düşüncəsini və qanunvericiliyi radikal şəkildə dəyişdirmək və əvvəlkindən heç də yaxşı olmayan, yəni əvvəl mövcud olan dəyərləri saxlayan, eyni zamanda keçmişin bütün təzahürlərindən xali olan yeni quruluşun yaradılması istəyinə gətirib çıxarır. Bu isə, öz növbəsində, nəsillərin toqquşdurulmasını labüdləşdirir, nəticə etibarilə əhalinin bütöv təbəqələrinin fəal yaradıcı və mülki-hüquqi həyatın axarından sıxışdırılıb çıxardılmasına səbəb olur. Göründüyü kimi, estatizm və onunla daxilən bağlı olan sosial-siyasi və hüquqi radikalizm ədalətlilik

və bərabərliyin müəyyən edilməsi məqsədilə hüququn obyektivliyi prinsipinə, hüququn yardımına ehtiyacı olan hər kəsə kömək etmək üçün hüqüq sistemindən səmərəli istifadə səylərinə cavab verən qanunvericilik bazasının yaradılmasına gətirib çıxara bilən metodologiyalara və dəyərlərə əsaslandığı zaman hüquqi dəyərə malik olurlar. Siyasi-hüquqi sistemin formalaşdırılmasının belə meyarları şok terapiyası metodlarını deyil, hüquq sistemin elementlərinin səmərəli şəkildə və mərhələli olaraq qurulmasının metodlarını nəzərdə tutur.

Müasir vəziyyət Azərbaycan dövlətinin siyasi və hüquqi həyatında və onun müasir dünyadakı dövlətlərarası münasibətlərində inteqrasiya proseslərinin xüsusi əhəmiyyət kəsb etməsi ilə xarakterizə olunur. Bu problemlərin xüsusi aktuallığı Azərbaycan siyasətində və hüquq sistemində baş verən ciddi dəyişikliklərlə bağlıdır. Dövlət və hüququn son dövrlərdə baş verən forma dəyişikliyi o qədər əhəmiyyətli, ziddiyyətli və bəzən təxmin edilə bilməyəndir ki, bir çox hallarda siyasi və hüquqi elmlər bu prosesləri operativ şəkildə və nəzəri cəhətdən dərindən tədqiq etmək iqtidarında deyildirlər. Belə anlarda siyasi və hüquqi həyatın inteqrativ əsasında hansı daxili əlaqələrin durması barədə biliklərə tələbat daha kəskin hiss olunmaqdadır. Bu tələbat yeni qlobal proseslərin üzə çıxması, Azərbaycanın siyasi-hüquqi maraqlarının müasir dövlətdaxili və dövlətlərarası sistemini müəyyən edən obyektiv və subyektiv faktorların dərk edilməsinin zəruriliyi nəticəsində daha da güclənir.

Bu problemlərin həllini tapmaq üçün, ilk növbədə, müasir siyasi və hüquqi sistemlərin xüsusiyyətlərini aydınlaşdırmaq lazımdır. Həmin xüsusiyyətlər əsasən insanın ali sosial dəyər kimi tanınmasından ibarətdir ki, bu da prinsip etibarilə bütün siyasi-hüquqi sistemi dəyişir, ona yeni xassə və cizgilər daxil edir. Bu yeni cizgilərin sırasında A.Çernenko aşağıdakıların qeyd edilməsini xüsusilə vacib hesab edir: 1) hüququn mahiyyətinin və onun anlamına nəzəri yanaşmaların dəyişməsi; 2) hüququn aparıcı əlaməti kimi ədalətlilik prinsipinin rolunun artırılması; 3) beynəlxalq hüquq normalarının milli hüququn mənbələri qismində tanınması; 4) qanunların və digər hüquqi aktların Konstitusiyaya uyğunluğu üzərində konstitusion nəzarət; 5) insan hüquq və azadlıqlarının siyasi-hüquqi sistemin dayanıqlı inkişafının əsasları kimi tanınması; 6) hüquqi dövlətin formalaşmasının mühüm şərti kimi güclü dövlətin, onun sosial və iqtisadi funksiyalarının təşəkkülü; 7) qloballaşma şəraitində dövlətin siyasi-hüquqi sisteminin dəyişməsi (14, 11).

Hüquq və siyasətin inteqrasiyası problemi hüquqi dövlətin qurulmasına əngəl olan neqativ faktorların aradan qaldırılması problemi ilə birbaşa asılılıqdadır. Belə faktorlara qeyri-dövlətləşmənin radikal metodlarının özünü doğrultmayan nəzəriyyəsi və təcrübəsini, cəmiyyətin həyati əhəmiyyətli əsas sferalarından, xüsusilə də sosial-iqtisadi sferadan dövlətin maksimum dərəcədə kənarlaşdırılmasına nail olunması məqsədi ilə onun rolunun minimallaşdırılmasını aid etmək olar. Hüquqi dövlətin formalaşmasına mane olan səbəblərin aradan qaldırılması dövlətçiliyin «natamamlıq kompleksi»nin aradan qaldırılmasını tələb edir.

Bu məqsədlərə nail olunması baxımından aşağıdakı əsas şərtləri ehtiva

edən güclü hüquqi dövlət konsepsiyasının bərqərar olması daha əlverişlidir. Birinci şərt, sosial və iqtisadi funksiyaların ikinci dərəcəlilikdən hüquqi dövlətin hakim funksiyalarına çevrilməsidir. Belə halda hüquq iqtisadiyyatın effektiv inkişafı amili kimi istifadə olunur. Sosial funksiyanın realizəsi insan hüquq və azadlıqlarının sıxışdırılması, sosial bərabərsizlik ilə şərtlənən kəskin problemlərin həllinə imkan yaradır. Bu zaman qanunvericiliyin özü inkişaf stimulu alır, o, ümumdövlət maraqlarının reallaşdırılmasının güclü bir üsuluna çevrilir. İkinci şərt, zəif, «minimallaşdırılmış» dövlətin hüquqi qanuna, ədalət prinsipinə əsaslanan dövlətə çevrilməsidir. Hüquqi qanuna, hüququn sistemli-məzmuni anlamına əsaslanaraq bu dövlət özünü avtoritar və totalitar idarəetmə metodlarından müdafiə etməyə yönəlik immunitet yaradır. Üçüncü şərt, dövlət əvvəlki tarixi təcrübəni, ənənələri, mənəvi-mədəni dəyərləri kənara atmamalı, bununla da bir nəslin digərinə, bir sıra müəyyən mənəvi və hüquqi dəyərlərin digərlərinə qarşı qoyulmasından yan keçilməsi naminə tarixi-səbəbiyyət əlaqəsini qırmamalıdır. Dövlət yeni sosial-hüquqi gerçəkliyə əvvəlki dövrdə toplanmış bütün müsbət cəhətləri daxil edir, yəni həmin dövrləri güclü, sabit dövlətin formalaşmasının zəmini kimi istifadə edir. Dördüncü şərt, hüquqi dövlətin formalaşması onun qlobalizasiya şəraitində fəal iştirakını tələb edir, bu zaman o, özündə elə qüvvə və vasitələr tapır ki, onların köməyilə bu proseslər milli maraqların təsdiqi və inkişafı məqsədilə dəyişkənliyə məruz qalır. Hüquqi dövlətin formalaşdırılmasının əsasında insan, şəxsiyyət, onun maraqları durduğundan sonuncunun inkişaf səviyyəsi hüquqi dövlətin inkişaf dərəcəsini əks etdirir.

Siyasi-hüquqi institutların formalaşdırılmasının mühüm prinsiplərindən biri ədalət prinsipidir. Sosial və dövləti-hüquqi münasibətlər sistemində ədalət prinsipinin yerinə diqqət yetirməklə görmək olar ki, ədalət ideyası, onun mənəvi və hüquqi perspektivləri ayrı-ayrı ölkələr və regionlar, ümumilikdə bütün dünya üçün prinsipial əhəmiyyətə malikdir. Otfrid Höffenin belə bir fikri ilə razılışmamaq mümkün deyildir ki, «ədalətin hökmran olduğu aləm dünən olduğu kimi, bugünkü mərhələnin də düşüncə bələdçisidir» (13, 7). Bəşəriyyətin bütün müsbət səyləri – insan hüquq və azadlıqları uğrunda, millətlər və xalqların hüquq bərabərliyi uğrunda mübarizə, əhalinin cəmiyyətin idarəetməsində iştirakı tələbi, gələcək nəsillərin kifayət qədər layiqli yaşaması ilə bağlı fikirlər və s. birbaşa və ya vasitəli olaraq ədalət ideyası ilə müəyyənləşdirilir. Ədalət prinsipi həmişə cəmiyyətin bütün tələblərinə və maraqlarına nüfuz edir, ona qlobal, ümumbəşəri mənəvi və hüquqi rakurs verir. Digər tərəfdən, bir qədər paradoksal görünsə də, bilavasitə ədalət ideyası indiki dövrdə maksimum dərəcədə şübhə doğurur və kəskin tənqidə məruz qalır.

Bu tənqiddə *iki əsas istiqaməti* fərqləndirmək olar. *Birinci halda* ədalət ideyasının özü və onun dövlətin, onun institutlarının siyası-hüquqi fəaliyyətində rolunun əhəmiyyətliliyi şübhə altına götürülür. Bu baxışın tərəfdarlarının arqumentləri ona söykənir ki, hakimiyyətin siyasi və hüquqi fəaliyyəti pozitiv qanunlarla tənzimlənir. Həmin qanunların əsas mənbəyi isə ölkənin əhalisi tərəfindən seçilən qanunvericilik hakimiyyəti orqanının qərarları sayılır. Qa-

nunlar isə dövlət məcburetməsi yolu ilə realizə edilir. Bir sözlə, «hüquq hakimiyyətlə vals oynayır, ədaləti isə rəqsə dəvət etməmişlər». Faktiki olaraq bu qapalı dairədə ədalət ideyasının dəyəri və təbii-hüquqi mahiyyəti itirilir. Həmin yanaşma hakimiyyətin mənşəyi, qanunların yaranmasının konkret mexanizmi, onların fəaliyyətinin xüsusiyyətləri, qanunlardan faydalanan şəxslərin dairəsi və s. ilə bağlı olan bütün təfərrüatları mötərizə arxasında saxlayan klassik hüquqi pozitivizmi ehtiva edir.

Tənqidin *ikinci istiqaməti* tamamilə əks yanaşmanı ehtiva edir: ədalət ideyası anarxizm mövqelərindən tənqid edilir. Bu istiqamətin müdafiəçilərinin fikrincə, azadlıq prinsiplərinin müdafiəsi hətta ədalətli olsa belə hər hansı qadağa və göstərişlərdən prinsipial imtinanı tələb edir. Onlar belə hesab edirlər ki, azadlıq prinsipi naminə hər hansı məcburetməni, hər hansı tənzimləməni və deməli, dövlət-hüquqi birliyin (cəmiyyətin) hər hansı formasını inkar etmək lazımdır. Yəni dövlət heç kəsi heç bir şeyə məcbur etmədən və «gözə görsənməyərək» mövcud ola bilər. Ədalətlilik də hamının azad olmasından ibarətdir.

Ədalət ideyasına münasibətlərin vəziyyətinin xarakterizə edilməsi iki əsas səbəbdən zəruridir. Birincisi, müasir dövrdə bu ideyanın xüsusi əhəmiyyəti daha nəzərə çarpandır. İkincisi, hüquq və ədalətin bağlılığı probleminin dərk edilməsində əsas agrılı, yəni problemli nöqtələr dəqiq ifadə olunur. Qeyd edək ki, problemin təhlili hüquqi pozitivizmin nümayəndələrindən, elecə də anarxizm mövqelərində dayananlardan gələn birtərəfli, yəni məhdud tənqidin ədalət, hüquq və mənəviyyat anlayışlarının dialektik təbiətlərinin açılıb göstərilməsi yolu ilə aradan qaldırılmasını nəzərdə tutur. Əsas vəzifə hüququn mənəvi başlanğıclarının əsaslandırılmasından və bu mövqelərdən çıxış edərək – pozitivizmə zidd olaraq dövlət-hüquqi münasibətlərin limitlənmiş hüdudlarının üzə çıxarılmasından, - anarxizmə əks olaraq isə həmin münasibətlərin legitimliyinin müəyyənləşdirilməsindən ibarətdir. Qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın hüquqi ədəbiyyatında da hüquq və əxlaqın uyuşmazlığı haqda müəyyən məlumatlar sezilir, çünki qanunverici əxlaq normalarını hüquqa çevirmək iqtidarında deyildir.

Hüquq, ədalət və mənəviyyat bir-birindən ayrı deyil, dövlət-hüquqi münasibətlərdə birlikdə mövcuddurlar və onların inkişaf dərəcəsindən asılı olaraq bu və ya digər formada təzahür edirlər, özü də ədalət hüquq və mənəviyyatın vəhdətinin yüksək təzahür formasıdır. Ədalət yalnız fəlsəfi, etik kateqoriya deyil, həm də müəyyən ictimai münasibətləri, bu münasibətlərə uyğun olan davranış qaydalarını, insanların hərəkət və əməllərini təsdiqləyən hüquqi anlayışdır. Özünün konkret ifadəsini hüquq normalarında tapan ədalət həm də bu normaları tətbiq edən insanların əməllərində də təcəssüm edir (10, 5-12).

Ədalətin tərkib hissələri olan hüquq və mənəviyyat ilk baxışda bir-birinə münasibətdə etinasız olan və müstəqil tərəflər kimi çıxış edən kateqoriyalar kimi göz önündə canlanır. Hüquq və mənəviyyatın fərqləndirilməsinin ontoloji əsası bu başlanğıclardan birinin hipertrafiyası təhlükəsini özündə gizlədir. Bu təsdiqin xeyrinə olaraq ən aydın arqument belə bir formada özünü ifadə edir ki,

«qanunla qadağan edilməyən hər şey icazə veriləndir». Geniş yayılmış, hamıya bəlli olan və bu gün də fəaliyyətini itirməyən bu formula son məqamda demokratik həqiqət olmağa iddialıdər. Həqiqətən də, ilk baxışda o, hüquqi dövlətin tələbləri ilə uzlaşır, qanunun aliliyini nəzərə çarpdırır, lakin eyni zamanda nəzəriyyədə bu cür təsəvvür yanılmalara, təcrübədə isə volyuntarizmə və sui-istifadələrə yol açır. Belə ki, həmin formulaya uyğun olaraq, yeganə və real qadağa qanun sayılır, insan əməllərinin tənzimləyicisi kimi adətlər, ənənələr, mənəviyyat sferası bütünlüklə xəyali bir şeyə çevrilir və adətlərə, ənənələrə əsaslanan mənəvi davranış meyarları öz mənasını itirir. Deməli, mənəviyyatsızlıq həm əlahiddə götürülmüş şəxsiyyətin, həm də dövlət və ictimai struktur və institutlarının aşkar fəaliyyət formasına çevrilir.

Hüquq və mənəviyyatı münasibətlərin və dəyərlərin inteqral sisteminin ünsürü kimi nəzərdən keçirsək görərik ki, hər iki təzahürün norma tipləri ümumi anlayış definisiyası əsasına malikdirlər. Onların anlayışı üçün vahid olan həqiqət anlamıdır. Hüququn özünün əsasında elə həqiqətin ifadəsi durur. Mənəviyyat qanunları ədalətliyə əsaslanır, yəni, həqiqətə, etik düzgünlüyə söykənirlər. Bununla da hüququn və mənəviyyatın anlamlarında humanislik aşkar olunur. Bu zaman qeyd etmək lazımdır ki, onların arasındakı fərq kənara atılmır, sadəcə olaraq onların ümumi əsasına, həqiqət anlayışına istinadən ortadan götürülür. Hüquq və mənəviyyat insan davranışının nizamlayıcılarıdırlar və öz mahiyyəti etibarilə bir hadisənin-azadlığın iki tərəfidirlər. Onların vahidliyi elə azadlığın həyata keçirilməsi formasıdır.

Hüquq və ədalətin nisbətinin məzmuni səviyyədə tədqiqi, onların arasındakı immanent, daxili əlaqələrin açılmasını nəzərdə tutur. Hüquq və əxlaq ədalətin tərkib hissələri kimi, yalnız ayrı-ayrı münasibətlərdə müxtəlif olan tərəflərin vahidliyi kimi deyil, həm də vahid mahiyyətə münasibətdə digər münasibət çərçivəsində birlik, eynilik kimi baxılır. Vahid mahiyyət qismində isə burada ədalət çıxış edir. Bu səviyyədə ədalət hüquq və əxlaqın, hüquq və mənəviyyat haqqında ictimai baxışlara çevrilməsində ifadə olunan vahid mahiyyəti özündə ehtiva edir. Nəticədə, yeni xassə və keyfiyyətlərlə bir bütövlük yaranır. Burada biz bütöv və onun hissələrinin ümumi qanunauyğunluğu ilə qarşılaşırıq ki, hələ bunu öz zamanında Aristotel aşkar etmişdir (1, 1-280).

Azərbaycanın yeni reallıqlara keçidi şəraitində yaradıcı və hüquqtətbiqi fəaliyyətin müvəffəqiyyətli alınması üçün effektiv idrak instrumentariləri və hüquq sisteminin yenilənməsinə kəskin ehtiyac hiss olunur. Hüquq sisteminin öyrənilməsinin və formalaşdırılmasının belə vasitələrindən biri hüquqi texnologiya ola bilər.

Müasir dövrdə hüquq metodologiyasının təhlilinə həsr olunan işlərdə əsas diqqət hüququn dərk olunmasının metodoloji problemlərinə yönəlir, hüquqi texnologiya və hüquq sisteminin formalaşması metodları ilə bağlı məsələlər isə diqqətdən yayınır. Bununla yanaşı, haqlı olaraq qeyd olunur ki, hüquq sistemi üçün hüquqi texnologiyaya riayət olunması, müvafiq prosedur və hüquqi standartların yerinə yetirilməsi, hüquqi hadisələrin dinamikliyi və sta-

billiyinin ahəngliyi, həmçinin hüquqda ləngimə və stimullaşdırma tələbatı mühüm əhəmiyyət kəsb edir (12, 301).

Hüquqi texnologiyanın predmeti mürəkkəb struktura malikdir. Birincisi, o, konkret hüquqi reallığın, mikrososial hüquqi məkanın dərk edilməsi metodlarını, bu məkan üçün spesifik olan qanuna uyğunluqları və sosial hüquqi qarşılıqlı əlaqələrin qavrama metodlarını özündə ehtiva edir. Bu metodlar hüquqi texnologiyanın obyektinin mahiyyətinə, onun mikroquruluşuna adekvat olmalıdır. Bu metodlardan istifadə edərək biz hüquqi texnologiyanın elmi əsaslarının, eləcə də onun spesifik təbiətinin nədən ibarət olması sualına cavab verə bilərik. İkincisi, hüquqi texnologiyanın predmetinə qurulma prosedurları və qaydaları, həm də metodlar sistemi daxildir. Hüququn metodologiyasının vəzifəsi bütövlükdə (o cümlədən hüquqi texnologiyanın) bu metodları üzə çıxarmaq, onların təhlilini aparmaq və onların necə tətbiq olunmasını və nəticədə nələrin alınmasını, cəmiyyətin hüquqi sisteminin formalaşdırılması üçün onların tətbiqinin nə dərəcədə effektiv olmasını izah etməkdən ibarətdir. Üçüncüsü, hüquqi texnologiyanın predmeti konkret vəzifələrin həlli üzrə vasitələr qismində çıxış edən ictimai və hüquqi institutların istifadəsinə yönəlik tədbirlər sistemini əhatə edir. Burada konkret vəzifələr dedikdə, hüquqi gerçəkliyin formalaşması və fəaliyyətinin müxtəlif sferalarında effektiv və səmərəli hüquqi strukturların yaradılması başa düşülür. Hüquqi texnoloq üçün hüquqi institut normativ elementdən başqa hüquq siyasəti, hüquq normalarının realizə mexanizmi kimi digər reallıqları əhatə edir. Bu mənada hüquqi texnologiyanın predmetinə hüquqi əhəmiyyət kəsb edən bütün ictimai institutlar, o cümlədən qanunyaratma və hüquq tətbiqetmə funksiyasına malik institutlar daxildir.

Hüquqi texnologiyanın əsasını sosial inkişafın qanunauyğunluqları, konkret tarixi tələbatları və maraqları ilə müəyyənləşdirilən məqsədə uyğun surətdə hüquq institutlarının və hüquq sistemlərinin effektiv və səmərəli şəkildə qurulmasının metodları, qayda və vasitələri təşkil edir. Bu halda hüquq ictimai münasibətlərin dəyişməsi və inkişafı faktorları sistemində fəal əməli başlağıc kimi çıxış edir. «Hüquqi texnologiya» anlayışını «yuridik (hüquqi) texnika» anlayaışı ilə qarışdırmaq olmaz. Hüquq nəzəriyyəsində istifadə edilən sonuncu termin normativ aktların aydınlığını və ziddiyətsizliyini təmin etmək üçün onların işlənib hazırlanması, formaya salınması və sistemləşdirilməsinin qaydaları, vasitələri və üsullarının cəmini ehtiva edir. Yuridik texnikanın obyekti normativ sənədin mətnidir. Son dövrlərdə də hüquq ədəbiyyatında «yuridik texnika» anlayışı digər interpretasiyada, yəni qanunvericilik texnikası kimi ifadə olunur. Belə ki, qanunvericilik texnikası qanunların və qanun qüvvəli aktların mahiyyəti və məzmununa uyğun olaraq daha səmərəli təşkili və məntiqi ardıcıllıqla formalaşdırılmasının üsul və qaydalar sistemi kimi baxılır (5, 25). Bununla yanaşı hüquqi texnika və qanunvericilik texnikasının hüquqi texnologiya ilə keyfiyyət fərqlərinə baxmayaraq onunla ümumi cəhətlərə də malikdir, yəni hüquqi texnologiya kimi onlar da metodların üsul və qaydaların praktiki istifadəsinə istiqamətlənmişdir. Hüquqi texnologiyanın konseptual əsaslarını açmaq

imkanı verən ikinci problem, onun, yəni hüquqi texnologiyanın əsas fəaliyyət istiqamətləri – funksiyaları problemidir.

Hüquqi texnologiyanın yerinə yetirdiyi funksiyalar içərisində texnoloq kimi şəxsiyyətin formalaşdırılmasını, hər bir fərddə sosial hüquqi aktivliyi, cəmiyyət qarşısında, eləcə də öz qarşısında vətəndaşlıq məsuliyyətinin formalaşdırılmasının şərti kimi dünyagörüşü funksiyasını, analitik, konstruktiv-proqmativ istiqamətləri ehtiva edən metodoloji funksiyanı, qnoseoloji və aksioloji funksiyaları göstərmək olar.

Metodoloji funksiya bir tərəfdən konkret təhlil, yəni kokret vəziyyətlərin dərk edilməsi metodunun köməyi ilə bilgi alınmasını təmin edir, digər tərəfdən cəmiyyətin hüquqi sistemi və onun elementlərinin formalaşması və dəyişməsinin metod və qaydalarını tətbiq və tədqiq etməyə imkan verir. Özünün ikili mahiyyəti baxımından metodoloji funksiya analitik və konstruktiv-praqmatik istiqamətlərdə realizə edilir. Analitik istiqamət və ona uyğun olan analitik metod vahid, empirik hüquqi hadisədən fikrin inkişafı hərəkətində ümumiyə və ya xüsusiyə, hadisədən hüquqi reallığın mahiyyətinə doğru hərəkəti nəzərdə tutur. Bunun sayəsində konkret nəzəri təzahür və proseslər bir-birindən asılı olmayan əlahiddə empirik hüquqi fenomenlər kimi deyil, konkret bütöv sistem kimi çıxış edirlər. Metodoloji funksiyanın konstruktiv-praqmatik istiqaməti hüquqi texnologiyada dayaq rolunu oynayır. Burada bilavasitə hüquqi texnologiyanın spesifik təbiəti əks etdirilir. O, yalnız hüquqi gerçəkliyin dərk edilməsi müstəvisində metodların, qaydaların tətbiqini deyil, həm də ilk növbədə, bütövlükdə cəmiyyətin hüquqi sistemini və daha mükəmməl, sosial cəhətdən əhəmiyyətli və effektiv hüquqi institutların formalaşdırılması üçün mövcud hüquqi gerçəkliyin dəyişdirilməsinin metodları, qayda və üsullarının öyrənilməsi və istifadəsi üçün sonuncuların tətbiqini nəzərdə tutur.

Qnesoloji funksiyanın məzmunu hüquqi sferaya və onun komponentlərinə hüquqi texnologiyaların təsiri imkanları və hüdudlarını müəyyən edir, hüquqi texnologiya tərəfindən istifadə edilən bilgilərin həqiqiliyi meyarına xidmət edir. Nəhayət, aksioloji funksiya hüquqi texnoloqlar tərəfindən istifadə edilən tədbirlərin humanist və mənəvi meyarlarını irəli sürür.

Hüquqi texnologiyanın konseptual əsasının təhlilində həll olunan vacib məsələlərdən biri də hüquqi texnologiyanın əsas xüsusiyyətləri və xarakteristikası ilə bağlıdır. Bu xüsusiyyətlər aşağıdakılardır:

- Hüquqi texnologiyanın mahiyyəti onun konstruktiv-praqmatik funksiyasında, hüququn və hüquq sisteminin formalaşdırlması və dəyişdirilməsi, bu sistemə effektivlik və rasionallıq verilməsi metodlarında ifadə olunur.

- Hüquqi texnologiya sosial-iqtisadi faktorların dərk edilməsi ilə məhdudlaşmır. Əsas diqqəti o, hüquq subyektinin özünün, hüquqi texnoloqun aktivliyinə, hüquqi texnoloqun real hüquqi məkana təsirinə, onun dəyişdirilməsinə yönəldir.

- Hüquqi texnologiyanın təsbitlərinə uyğun olaraq hüquqi determinasiya səlahiyyətli orqanlarının sadəcə məhsulu deyil, bu elə bir məhsuldur ki, sabit

cəmiyyətin formalaşdırılması və hüquq qaydasının müəyyən edilməsində, demokratik cəmiyyətin və vətəndaşlıq institutlarının yaradılmasında spesifik məzmuna və sosial əhəmiyyətə malikdir.

- Hüquqi texnologiya hüququn təkcə təsviri tərifinə deyil, onun sistemli məzmun tərifinə əsaslanır. Hüququn sistemli məzmun mahiyyəti hüquqi texnologiya subyektinin məqsədlərinin, mövcud hüquqi məkanın dəyişdirilməsinə və yenisinin qurulmasına yönələn tədbirlərin effektivliyinin qiymətləndirilməsində meyar hesab olunur və o, hüquqi təşkil etmə prosesinə rasional yanaşmanı təmin edir.

Hüquqi texnologiyanın tədqiqi vəzifələrindən birincisi onun prinsiplərinin dərk edilməsi və hüquq sisteminin konstruksiya edilməsində onların yerinin müəyəynləşdirilməsidir. Belə yanaşma effektivlik və səmərəlilik nöqteyi-nəzərindən hüquq sistemin formalaşdırılmasının təməl məqamlarını və şərtlərini anlamağa yardım edir.

Hüquqi texnologiyanın mahiyyəti onun prinsip və metodlarında öz inkişafını tapır. Bu prinsiplərin içərisində obyektivlik, genetiklik, hüququn aktivliyi və hüquq institutlarının, bütövlükdə hüquq sisteminin təkamülü, təndiqi rasionalizm və s. göstərmək olar ki, onların da dərk edilməsi və istifadəsi hüquqi institutların təşkilində müstəsna rol oynayır.

Hüquqi texnologiyanın elmi cəhətdən səmərəlilik dərəcəsi dərk edən subyektin şüurunda real sosial-hüquqi situasiyanın, bu və ya digər hüquqi proses və institutların əks olunmasının adekvatlıq dərəcəsindən asılıdır. Hüquqi texnologiyanın istifadəsi hüququn spesifik təbiəti, onun konkret tarixi şəraitə, mövcud sosial və hüquqi situasiyaya uyğun olaraq qanunvericilik mühiti haqqında biliklə şərtlənirsə, onda o elmi metod statusuna malik olur.

Bununla yanaşı, hüquqi texnologiyanın və onun analitik metodunun elmi əsaslarının müəyyənləşdirilməsinə dialektik yanaşma sosial determinizmin və ümumsosial qanunların inkarında deyil, onların, habelə tarixi zərurət kimi digər kateqoriyaların dərindən dərk edilməsində təzahür edir. Bu cür anlayışın yeniliyi ondan ibarətdir ki, qeyd olunan qanunların sosial və hüquq institutlarının təhlili və təşkilində fəaliyyət sferası əhəmiyyətli dərəcədə məhdudlaşır. Onlar yalnız tənzimləyici rol oynayır.

Hüququn və ya siyasətin elmi əsasının formalaşdırılmasının vacib şərti, mövcud reallığın yaxud situasiyanın spesifik qanunuyğunluqları, əlaqə və xarakteristikasının açılması, daha sonra hüquq və ya siyasi institutların yeni modellərinin təhlili və qurulması, yaxud mövcud olanların korreksiyası üçün zəruri olan informasiyanın toplanmasıdır. Hüquq terxnoloqu dəqiq bilməlidir ki, hansı konkret tədqiqatların əsasında o, faktiki dəyişikliklərin məqsədəuyğunluğu barədə nəticəyə gəlib. Yalnız bundan sonra o, sosial və ya hüquq institutunun, hüquq sisteminin, onun elementlərinin dəyişilməsinin yaxud rekonstruksiyasının elmi konsepsiyasının hazırlanmasına başlaya bilər.

Hüquq sisteminin formalaşdırlması qanunauyğunluqlarından biri hüququn, normativ hüquqi aktların real həyata, faktiki ictimai münasibətlərə adekvatlığında ifadə olunur. Bu qanunauyğunluğun realizəsi üçün təşkilati-hüquqi

mexanizm zəruridir. Bu cür mexanizm qismində hüquqi texnologiya mexanizmi çıxış edir. Hüquqi texologiya mexanizminin əsas fəaliyyət sferaları hüquqyaratma və hüquq tətbiqetmədir. Hüquq nəzəriyyəsində hüquqyaratma hüquq normalarının yaradılması və dəyişdirilməsinə yönələn dövlət fəaliyyəti kimi müəyyən olunur. Bu anlayışda hüquqyaratma hüquqi texnologiyanın konstruktiv praqmatik funksiyası – mövcud hüquq normaları və institutlarının dəyişdirilməsi və yeni norma və institutların yaradılması ilə daxili əlaqəsi görünür. Doğrudur, hüquqi texnologiya və onun fəaliyyət mexanizmi sadə dəyişikliyi deyil, təkamül, səmərəlilik və rasionallıq prinsipləri əsasında dəyişikliyi nəzərdə tutur.

Hüquqi texnologiya mexanizminin spesifik rolu ondan ibarətdir ki, təkamül prinsipinə riayət olunması və mərhələlik metodunun realizəsi hüquqda olan boşluqlardan qaçmağa imkan verir. Bu, xüsusilə sosial iqtisadi quruluşun dəyişdiyi dövrdə əhəmiyyətlidir. Təkamül prinsipinə riayət olunması hüquq sistemini cəmiyyətin əvvəlki inkişaf mərhələsindəki müsbət sosial və hüquqi təcrübəni nəzərə almaqla formalaşdırmağa imkan verir. Hüquq sisteminin dəyişdirilməsinin sabit demokratik əsasını hüquq texnoloqu olmadan təmin etmək mümkün deyil.

### ƏDƏBİYYAT


1. Aristotel. Rolitika. Bakı: Bakı Universiteti nəşriyyatı, 1997, 280 s.
2. İsmayılov X.C. Azərbaycanın hüquq tarixi: Dərslik. Bakı: Elm və Təhsil, 2015, 572 s.
3. Məlikova M.F. Hüququn sistemi və sistemliliyi / Qloballaşan cəmiyyətdə hüquq elminin aktual problemləri» mövzusunda respublika elmi konfransının materialları. 09.04.2008, Bakı, 2008, s.3-5.
4. Керимов Д.А. Методология права: Предмет, функции, проблемы философии права. М.: СГУ, 2011, 521 с.
5. Керимов Д.А. Общая теория государства и права. Академический курс. М.: Зерцало, 1998, 416 с.
6. Кудрявцев В.Н., Керимов Д.А. Право и государство (опыт философско-правового анализа). М.: Манускрипт, 1993, 91 с.
7. Лекторский В.А., Швырев В.С. Актуальные философско-методологические проблемы системного похода//Вопросы философии, 1971, №1, с.26-157.
8. Марченко М.Н. Государство и право в условиях глобализации. М.: Проспект, 2011, 400 с.
9. Марченко М.Н. Правовые системы современного мира. М.: ИКД «Зерцало-М», 2001, 400 с.
10. Мартышин О.В. Нравственные основы теории государства и права // Государство и право. 2005, №7, с.5-12.
11. Мартышин О.В. Революция и развитие российской государственности //Государство и право. 2007, №11, с.79-88.
12. Теория государства и права. Учеб.для вузов / Под ред. В.Д.Перевалова. 3-е изд. М.: Норма, 2004, 496 с.
13. Хёффе О. Политика. Право. Справедливость. Основоположения критической философии права и государства. Перевод с немецкого В.С.Малахова. М.: Гнозис, 1994. 319с.
14. Черненко А.К. Теоретико-методолигческие аспекты формирования правовой системы общества: Автореф. дис. … д-ра юрид. наук. Новосибирск, 2006, 47 с.
15. Черненко А.К. Теоретико-методолигические проблемы формирования правовой системы общества. Новосибирск: Наука, 2004, 289 с.

## О НЕКОТОРЫХ ТЕОРЕТИЧЕСКИХ АСПЕКТАХ ФОРМИРОВАНИЯ ПОЛИТИКО-ПРАВОВОЙ СИСТЕМЫ

**Х.Дж.ИСМАИЛОВ**

**РЕЗЮМЕ**

Постоянная изменчивость политической и правовой системы приводит к сложным сочетаниям различных их элементов, обусловленным объективными закономерностями развития социума. С этой точки зрения научный анализ теоретических аспектов системного характера права и политики, изучения интеграционных процессов в сфере политической и правовой жизни Азербайджана в современном мире, анализ справедливости как важнейшего политико-правового принципа развития общества, выяснения сущности технологического подхода как системы методов и способов эффективного и рационального формирования политико-правовой системы имеют первостепенное значение. В статье подвергаются обстоятельному анализу особенности политико-правовой системы, теоретические аспекты ее формирования, исследуются вопросы интеграции политики и права на современном этапе, роль и место принципа справедливости в политико-правовом процессе, сущность правовой технологии как способ формировании политико-правовой деятельности.

**Ключевые слова:** политико-правовая система, нормативно-правовая база, интеграция политики и права, системные изменения, принцип справедливости, источники национального права, нравственные ценности, система методов, правовая технология, законодательная техника.

## SOME THEORETICAL ASPECTS OF THE FORMATION OF POLITICAL-LEGAL SYSTEM

**Kh.J.ISMAYILOV**

**SUMMARY**

Constant variability of political and legal system leads to the complex combination of their various elements, caused by objective laws governing the development of the society. From this point of view, the scientific analysis of theoretical aspects of the system character of the law and politics, studying of integration processes in the sphere of political and legal life of Azerbaijan in the modern world, analysis of justice as a major political-legal principle of the development of the society, finding-out the essence of the technological approach as systems of methods and modes of effective and rational formation of political-legal system have paramount value. The article analyzes the feature of the political-legal system, theoretical aspects of its formation, researches questions of integration of politics and law at the present stage, the role and the place of the concept of justice in political-legal processes, the essence of legal technology as a mode formation of political-legal activity.

**Key words:** political-legal system, normative-legal base, integration of policy and law, system changes, concept of justice, sources of national law, moral values, system of methods, legal technology, legislative techniques.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1* *Sosial-siyasi elmlər seriyası* *2016*

**UOT 340.1; 321.01**

# MÜASİR DÖVRDƏ SOSİAL XİDMƏTİN HÜQUQİ TƏNZİMETMƏ PRİNSİPLƏRİ

**M.N.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***aliyev.mayis@mail.ru***

*Bu məqalə müasir dövrdə sosial xidmətin hüquqi tənzimetmə prinsiplərinin məzmununun araşdırılmasına həsr edilmişdir. Məqalədə sosial xidmətlə bağlı normalarının düzgün dərk edilməsi və tətbiq olunmasının yalnız onun ümumi prinsiplərinin nəzərə alınmaqla mümkünlüyü əsaslandırılır. Müəllif sosial xidmətin insanın layiqli həyat şəraitinə təminat verəcək səviyyədə təqdim edilməsi, bu sahədə profilaktik tədbirlərin həyata keçirilməsi və ömürlük kimi prinsiplərin qanunvericilikdə təsbit edilməsini təklif edir.*

**Açar sözlər:** prinsip, hüquq, sosial xidmət, norma, təminat, çətin həyat şəraiti

Hər bir hüquq institutu kimi sosial xidmət institutu da müəyyən hüquqi prinsiplərə əsaslanır. Məlumdur ki, "prinsip" (prinsipim) latın sözü olub əsas ideyalar, rəhbər başlanğıclar mənasında işlədilir.

Azərbaycan dilinin izahlı lüğətində prinsipə müəyyən nəzəriyyənin, təlimin, əqidənin, dünyagörüşünün, elmin və s.-nin əsas müddəası, çıxış nöqtəsi, müəyyən işdə rəhbər ideya, əsas istiqamət, gözlənilməli şərt kimi anlayış verilir (1, 382).

Fəlsəfədə prinsipləri ilkin, rəhbər ideyalar, davranışın əsas qaydaları adlandırırlar (7, 477; 9, 329).

Hüquqi prinsiplər və hüququn prinsipləri anlayışlarını fərqləndirmək lazımdır. Hüquqi prinsiplər hüquq düşüncəsi kateqoriyasını, daha doğrusu hüquqi dərketmənin, o cümlədən hüququn prinsiplərini dərketmənin müəyyən səviyyəsini formalaşdıran kateqoriyanı özündə əks etdirir. Hüququn prinsipləri isə, öz növbəsində, yalnız qanunvericilikdə təsbit olunan əsas ideyalardır.

Hüquqi prinsiplər hüquqdan kənarda mövcüd ola bilməzlər. Prinsiplərin elm tərəfindən öyrənilməsinə baxmayaraq, prinsiplər yalnız qanunvericilikdə təsbit edildikdən sonra və hüquqtətbiqedici praktika nəticəsində məcburedici qüvvəyə malik olurlar (5, 33).

Hüquq nəzəriyyəsində hüququn prinsiplərinin olduqca çoxsaylı anlayışları mövcuddur. Prof. Z.A.Əsgərovun fikrincə, prinsiplər hüquqda dünyagörüşünün əsaslarını təşkil edən hər bir şeyin əvvəlinin və sonunun gedib çıxdığı

dəyərləri özündə ifadə edir. İstənilən hüquqi müddəa prinsiplər vasitəsilə əsaslandırılır, hər bir hüquq norması prinsiplər nəzərə alınmaqla təfsir edilir. Hüquqi prinsiplər hüququn mahiyyətini, onun təbiətini yığcam formada ifadə edən əsas, başlanğıc müddəalardır. Prinsiplər bir növ istənilən hüquq institutunun bazasını təşkil edir və sahədaxili bütün normalar bu prinsiplərə uyğun gəlməlidir. Prinsiplər hüququn əsaslandığı nəzəriyyələrin pozitiv ifadə formasıdır. Hər müddəa və fikir hüquqi prinsip ola bilməz. Bunun üçün o, dəqiq və yığcam formula edilməli və hüquq norması şəkilində pozitiv hüquqda əks olunmalıdır. Yalnız obyektiv hüquqa çevrilən, hüquq mənbələrində əks olunan müddəalar prinsip adlana bilər. Hüququn prinsipləri müvafiq elmi nəzəriyyə və fikirlərin hüquqda realizə edilməsinin təzahürüdür (2, 121). M.N.Marçenkoya görə hüququn prinsipləri dedikdə bir qayda olaraq hüququn formalaşması, inkişafı və fəaliyyəti prosesinin əsas ideyaları, ilkin müddəaları və ya rəhbər başlanğıcları başa düşülür (6, 295). S.S.Alekseyev göstərir ki, hüquq normalarında hələ öz əksini tapmamış başlanğıclar hüquqi prinsiplərə aid edilə bilməz və yalnız hüquq düşüncəsinin ideyaları, elmi nəticələrdir (4, 103).

Prpinsiplər hüququn obyektiv xassəsi olmaqla onun məzmunu ilə sıx surətdə bağlıdırlar. Hüququn prinsipləri tənzimlənməli olan ictimai münasibətlərə həm birbaşa, həm də konkret normaların tətbiqini müəyyən edərkən (onların hipotezasının məzmununu tamamlamaqla) dolayı şəkildə təsir göstərir. Hüququn prinsipləri cəmiyyətdə baş verən proseslərlə şərtləndiyindən obyektiv xarakter daşıyır. Sahəvi elmlərin vəzifəsi isə yeni prinsipləri aşkar etməkdən, onları öyrənməkdən və sistemləşdirməkdən ibarətdir.

Hüququn prinsipləri çox vaxt hüquq normalarında birbaşa təsbit edilir və bundan sonra norma-prinsiplərə çevrilirlər.

Sosial xidmət institutunun hüquqi prinsipləri hüququn prinsipləri kimi obyektiv surətdə mövcud olan və elmi cəhətdən əsaslandırılmış kateqoriyalar kimi nəzərdən keçirilməlidir. Onlar institutlar üzrə hüquq sahəsi normalarının daxili vahidliyini ifadə etsələr də, bu sahənin xüsusi xarici struktur həlqəsi kimi çıxış etmir. Sosial təminat hüququ sahəsinin sistemində olduğu kimi, sosial xidmət institutu sistemində hüquqi prinsiplər və konkret normalar qırılmaz surətdə əlaqəli olub vəhdət təşkil edir. Hüquq normları olmadan hüquq prinsipləri mövcud ola bilməz. Hüquqi prinsiplərdən hüquq normalarını fərqləndirən prof. A.M.Qasımov göstərir ki, bu iki anlayış arasında sıx əlaqənin olmasını görməmək mümkün deyildir. Prinsiplər özlərini mütləq hüquq normalarında biruzə verirlər, hüquq normaları isə hüquqi prinsiplərə uyğun gəlməyə bilməz (3, 65-66).

Hüquq ədəbiyyatında belə bir fikir geniş yayılmışdır ki, hüququn prinsipləri normativ aktlarda, hüquq normalarında öz ifadəsini tapır və bu vaxt onlar ya birbaşa olaraq hüquq normasında təsbit olunur, ya da prinsip çoxlu sayda normaların məzmunundan, yəni hüquq normasının məzmunundan irəli gəlir. R.Z.Livşisin fikrincə, prinsip-normalar və normaların məzmunundan irəli gələn prinsiplər hüququn prinsiplərinin iki növünü təşkil edir (8, 196).

Xarici ölkələrin (məsələn, Almaniyanın, İngiltərənin və s.) qanunvericiliyində sosial xidmətin bir sıra maraqlı prinsipləri təsbit edilmişdir: sığorta prinsipi (sosial xidmətin sosial sığorta ödəmələri hesabına sosial xidmətin maliyyələşdirilməsi, sosial sığorta ödəmələri ilə sosial xidmət növlərinin həcmi arasında qarşılıqlı əlaqə), təminat prinsipi (vergilər hesabına maliyyələşdirilmə), himayəçilik prinsipi (büdcə hesabına maliyyələşdirilmə və fərdi ehtiyaclara yönəltmə), universallıq (sosial xidmətin ölkənin bütün əhalisinə şamil olunması), ümumilik (bütün sosial risk hallarını əhatə etməsi), idarəetmənin vahidliyi (sosial xidmətin idarə edilməsi İctimai dövlət xidməti tərəfindən həyata keçirilir), göstərilən xidmətlərin eyniliyi (onlar əlavələrə və vəziyyətə görə eyni olmalıdırlar və gəlirlərin məbləğindən asılı olmamalıdırlar). Bütövlükdə isə, əksər ölkələrdə sosial xidmət sistemi üçün dövlətin yalnız ictimai birliklərin müəyyən fəaliyyət göstərməsindən sonra sosial xidmət göstərilməsinə dəstək prinsipi, yəni bazar münasibətləri şəraitində funksional mərkəzsizləşmə haqqında danışmağa imkan verən dövlətin səlahiyyətlərinin bir hissəsinin könüllü fəaliyyət göstərən təşkilatlara, yerli hakimiyyətlərə verilməsi və bunun təckə insan hüquqlarının təmin olunmasına deyil, həm də insanlara normal həyat şəraitinin təmin olunmasına aid olduğu halda əsas rolun və məsuliyyətin dövlətə keçməsi prinsipi xarakterikdir.

Sosial xidmət institutunun prinsipləri dedikdə bu sahədə ictimai münasibətlərin hüquqi tənziminin əsas başlanğıcları başa düşülür. Sosial xidmət institutunun prinsipləri bütün sosial xidmət qanunvericiliyinə nüfuz edir, onun daha mühüm xüsusiyyətlərini özündə əks etdirir. Ona görə də, sosial xidmət qanunvericiliyinin normalarının düzgün dərk edilməsi və tətbiq olunması yalnız onun ümumi və ya konstitusion prinsipləri nəzərə alınmaqla mümkündür.

Hazırda Azərbaycan Respublikası Konstitusiyasında təsbitini tapmış və eyni dərəcədə sosial təminat hüququna və sosial xidmətə aid olan ümumhüquqi prinsiplər kimi aşağıdakıları göstərmək olar:

- əsas insan hüquq və azadlıqlarının ayrılmazlığı və toxunulmazlığı;
- insan və vətəndaş hüquq və azadlıqlarının bilavasitə qüvvəyə malik olması;
- hamının məhkəmə və qanun qarşısında bərabərliyi;
- kişilərin və qadınların hüquq bərabərliyi;
- hər kəsin hüquq və azadlıqlarının məhkəmə tərəfindən müdafiəsinin təminatlılığı.

Sosial xidmət sahəsində dövlət siyasətinin prinsipləri "Sosial xidmət haqqında" qanunun 5-ci maddəsində aşağıdakı kimi təsbit edilmişdir:

- insan hüquq və azadlıqlarına riayət olunması;
- humanizm, könüllülük, məxfilik, tolerantlıq, ünvanlılıq, ədalətlilik və əlçatanlıq;
*Məqalədə geosiyasi dəyişmələr və hərəkət modellərinin hazırlanması ilə bağlı müvafiq araşdırmaların nəticələri ortaya qoyulmuşdur. Burada diqqət, əsasən iki ölkəyə - İran və Rusiyaya yönəldilmişdir. Qeyd edilən ölkələrin tarixlərinə ekskurs edilmiş və regional iddiaları təhlil edilmişdir.*

**Açar sözlər:** geosiyasi dəyişmə, hərəkət modelləri, İran, Rusiya

İstənilən bir dövlət milli maraqlarının təmin edilməsi üçün geosiyasi proseslərin sistemli öyrənilməsini təmin etməlidir. Bu müvafiq akademik qurumlar, təhsil müəssisələri və dövlət orqanları tərəfindən həyata keçirilir. Geosiyasi məsələləri öyrənərkən mücərrəd akademik tədqiqatlardan söhbət gedə bilməz. İstənilən araşdırmanın sonu mütləq bir şəkildə müvafiq modelləşdirilmə ilə nəticələnməlidir.

Azərbaycan Respublikası da onu əhatə edən dövlətlərin gələcək addımlarını proqnozlaşdırmalı və geosiyasi fəaliyyət məkanında onlarla bağlı olaraq müəyyən konkret hərəkət modellərinə malik olmalıdır. Burada biz bu modelləşdirmə ilə bağlı olaraq ilkin fikirlərimizi elmi müstəvidə təqdim etməyi qarşıya məqsəd qoymuşuq.

## ***Azərbaycan Respublikası üçün "Rusiya davranış modelləşdirilməsi"***

Azərbaycan Respublikasının şimalında dünyanın böyük siyasi, hərbi və iqtisadi güclərindən biri olan Rusiya Federasiyası yerləşir. Rusiya qədim tarixə malik olan bir dövlətdir və onun istər regional, istərsə də dünya miqyaslı iddiaları tarixi və bazislidir. Bu məsələni bir qədər də açmağa çalışaq. Rusiya tarix boyu dünyada nüfuz və söz sahibi olmağa can atmış və ölkəni idarə edənlərin siyasi idarəçilik formasının dəyişilməsinə baxmayaraq onun bu iddiaları dəyişilməmişdir. Hər bir yeni hakimiyyət forması və eləcə də ictimai quruluş, sadəcə olaraq Rusiyaya qeyd edilən istiqamətdə fəaliyyət göstərmək üçün yeni

imkanlar və mexanizmlər vermişdir. Əgər Çar Rusiyası dövründə qılınc və qanla iddiaların təmin edilməsi həyata keçirilirdisə, Sovet Rusiyasında güc tətbiqi ideoloji məzmun almağa başladı. Sovet Rusiyası dünya zəhmətkeşlərinə bərabərlik, ədalət və sosializm qurmaq pərdəsi altında yeni-yeni ərazilərə sahib oldu. Həmçinin özünün beynəlxalq proseslərə təsir imkanlarını differensasiya edə bildi. Çar Rusiyası Azərbaycana silahlı müdaxilə ilə daxil oldu, amma onun xələfi Sovet Rusiyası Azərbaycana ideoloji motivlərlə girdi. Məhz bu səbəbdən ikincinin ictimai təbəqələrə təsiri daha güclü idi. O, təhsil, mədəniyyət və siyasət vasitəsi ilə Azərbaycan xalqının tarixi kökləri ilə əlaqələrinin zəiflədilməsi istiqamətində güclü təsir göstərə bildi.

Ümummilli Lider Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə mərkəzi hakimiyyətin həyata keçirdiyi siyasət onun birbaşa müdaxiləsi nəticəsində Azərbaycan xalqının maraqları istiqamətində zərərsizləşdirildi. Milli bir düşüncəyə malik olan Heydər Əliyev Azərbaycan dilinin dövlət dili olaraq elan edilməsi və istifadəsi, milli ənənələrin qorunması, erməni separatizminin qarşısının alınması istiqamətində xüsusi ilə tarixi işlər gördü. Azərbaycanlı tələbələrin Rusiya ali məktəblərində təhsil almasına şərait yaratmaqla milli ziyalı təbəqəsini gücləndirdi. Təbii ki, bu da, öz növbəsində, Azərbaycan xalqının milli və siyasi şüurunun qorunmasına zəmin oldu.

1991-ci ildə Sovet İttifaqı dağıldı. Rusiya bu dövrdə iqtisadi və siyasi böhran içərisində idi. Buna baxmayaraq, xarici siyasətində təsir vasitələrini itirmək istəmirdi. Bunun üçün xarici siyasətinə "yaxın xaric" anlayışını daxil etdi [5]. SSRİ-nin dağılmasından sonra Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlər 4 aprel 1992-ci il tarixində Bakıda imzalanmış müvafiq protokol əsasında qurulmuşdur.1992-ci ildə Azərbaycanın Rusiyada, Rusiyanın isə Azərbaycanda səfirlikləri öz fəaliyyətinə başlamışdır. İki ölkə arasında mövcud olan və daima inkişaf edən müqavilə-hüquq bazasının başlıca strateji xarakterli sənədi "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" 1997-ci il 3 iyun tarixli müqaviləsidir Həmin müqavilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Moskvaya etdiyi rəsmi səfər çərçivəsində imzalanmışdır.

Rusiyanın xarici siyasətində önəmli məqamlardan biri də postsovet məkanını nəzarət altında saxlamaq üçün inteqrativ qurumun yaradılması idi. Rusiya keçmiş Sovet Respublikalarının MDB çərçivəsində birləşməsini təmin edərək maraqlarını reallaşdırmaq istəyirdi. Bir sıra Rusiyalı müəlliflər qeyd edirlər ki, Rusiya üçün MDB-nin bir alternativi yoxdur [7]. MDB-nin yaranması Rusiyaya bu məkanda yenidən öz maraqlarını reallaşdırmaq üçün imkanlar verirdi. Rusiya MDB ölkələrini müxtəlif inteqrasiya qurumlarında bir qədər də sıx birləşdirməyə çalışırdı. MDB-nin bir təsir vasitəsi kimi gücünün zəiflədilməsi üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev əkstəsir diplomatiyası metodundan məharətlə istifadə edə bildi. Müstəqil dövlət quruculuğu prosesində Rusiya ilə əlaqələrdən bəhrələnmək, bəzi imperiyapərəst qu-

rumları bitərəfləşdirmək taktikası Azərbaycanın xarici siyasət kursunda müstəqil bir istiqamət kimi həyata keçirilməyə başlandı. 1993-cü il sentyabrın 6-da Heydər Əliyev Moskvada Rusiya Prezidenti Boris Yeltsin və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması məsələlərini müzakirə etdi, sentyabrın 24-də isə Azərbaycan MDB-yə daxil oldu. Eyni zamanda, müstəqil dövlətçilik problemlərini həll etmək, bu yolda qarşıya çıxan təzyiqlərə birgə sipər çəkmək, yeni iqtisadi və dövlətlərarası münasibətlərə uyğun ikitərəfli və çoxtərəfli əlaqələr yaratmaq məqsədilə digər MDB dövlətləri, Ukrayna, Belorusiya, Gürcüstan, Moldova və xüsusən 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Orta Asiya respublikaları ilə münasibətlərin köklü şəkildə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi [5, 186].

Burada xüsusi ilə vurğulamaq lazımdır ki, Rusiyanın hakimiyyət strukturlarına özünə yer etmiş müəyyən dairələr MDB iştirakçısı olan dövlətlərə, o cümlədən, Azərbaycana siyasi, təhlükəsizlik və milli təhlükəsizlik baxımından başlıca həyatı mənafe zonası kimi baxırlar. Onlar belə hesab edirlər ki, burada xüsusi səlahiyyətlərə malik olmalıdırlar. 1991-1994-cü illərdə Azərbaycan ərazilərinin işğalı zamanı Ermənistana hərbi və siyasi dəstək verən Rusiya bir daha iddialarını nümayiş etdirdi. Rusiyanın Dağlıq Qarabağda erməni separatçılarına hərtərəfli dəstək verməsi, təbii olaraq, Azərbaycan tərəfini qane edə bilməzdi, hətta müstəqilliyin ilk illərində Rusiyanın erməni separatçılarına yardımı iki ölkə arasında münasibətlərin soyuqlaşmasına gətirib çıxarmışdı. Azərbaycanın qərbmeylli siyasəti, Rusiyanın enerji siyasətinə qarşı yönəlmiş regional layihələrdə iştirak etməsi, mütəxəssislərin MDB-yə alternativ olaraq qiymətləndirdikləri GUAM təşkilatını təsis edən dövlətlərdən biri olması Rusiyanın Dağlıq Qarabağ münaqişəsində tutduğu mövqeyi ilə bilavasitə bağlıdır. Rusiya Azərbaycana qarşı əsasən Qarabağ kartından təzyiq vasitəsi kimi istifadə etmişdir. Unutmaq lazım deyil ki, Rusiyanın Cənubi Qafqazda ən yaxın müttəfiqi Ermənistandır. Rus-erməni əməkdaşlığı dərin tarixi köklərə əsaslanır. Rusiya ermənilərə Cənubi Qafqazda dövlət qurmalarına zəmin yaratmış, nəticədə də bu dövlətin qurulmasına nail olmuşdur. Bəzi rus rəsmilərinin də bildirdiyi kimi, Ermənistan Rusiyanın Cənubi Qafqazda forpostudur. Rusiya erməni kartından istər Dağlıq Qarabağ məsələsində, istərsə də Gürcüstanda ermənilərin çoxluq təşkil etdiyi Cavaxetiya bölgəsindəki məsələdə də istifadə etməkdədir. Rusiya Ermənistanı 1993-1995-ci illərdə dəyəri bir milyard dollardan çox olan silahla təchiz etmiş, yanacağa olan ehtiyacını böyük ölçüdə qarşılamışdı [9].

1990-cı illərdə keçmiş Sovet İttifaqı ölkələrini öz ətrafında toplamağa cəhd edən Rusiya **Kollektiv Təhlükəsizlik Müqaviləsi adlanan** (KTM) hərbi blok yaratmışdır. Azərbaycanı da bu qurumda görmək istəyən Rusiya bu istiqamətdə müəyyən işlər görməyə çalışmışdır. Lakin Azərbaycan Rusiyanın təqdimatında bu təhlükəsizlik sistemini özünün maraqlarına uyğun hesab etməmişdir. Cənubi Qafqazın Rusiya modeli ilə planlaşdırılan təhlükəsizlik siste-

mində Azərbaycanı qane etməyən əsas cəhət məhz Rusiyanın bölgədə hamını qane edəcək səmərəli kollektiv təhlükəsizlik mexanizmlərinin yaradılması əvəzinə, Ermənistanla kollektiv təhlükəsizlik və hərbi-strateji müttəfiqlik çərçivəsində Azərbaycanın suveren dövlət hüquqlarına, milli təhlükəsizlik maraqlarına və Cənubi Qafqazın regional güc tarazlığına mənfi təsir göstərən bəzi addımları hesab oluna bilər. Azərbaycanın, əsasında Rusiya və onun yaratdığı Kollektiv Təhlükəsizlik Təşkilatı dayanan MDB təhlükəsizlik sisteminə qoşulmaqdan imtina etməsinin səbəbi də, məhz bu məsələ ilə bağlıdır. Rusiya ilə Ermənistan arasında 1995-ci ildə imzalanmış "hərbi-strateji tərəfdaşlıq haqqında" müqaviləyə uyğun olaraq, Rusiya Ermənistanda öz hərbi-geostrateji maraqlarını və təhlükəsizliyini təmin etmək məqsədilə "25 il müddətinə 102-ci hərbi bazasını saxlamaq və onunla razılaşdırılmış, əlaqələndirilmiş birgə regional təhlükəsizlik, xarici siyasət fəaliyyəti yürütmək" haqqında "dövlətlərarası razılığa gəlmişdir". Mütəxəssislər bu sazişi əslində siyasi, iqtisadi, hərbi gücü və vəziyyəti heç də "bərabərhüquqlu və qarşılıqlı təhlükəsizlik" müqaviləsi imzalamağa imkan verməyən, qeyri-bərabər statuslu iki ölkənin "təhlükəsizlik imitasiyası", Qərbin Cənubi Qafqazda hərbi-geostrateji maraqlarının artması və bölgə ölkələrinin NATO-ya həvəs göstərməsi fonunda Rusiyanın "forpostu" olmaqdan başqa heç bir ciddi potensial nümayiş etdirmək qabiliyyəti olmayan Ermənistanın "xarici və təhlükəsizlik maraqlarını müdafiə etmək" adı altında öz suveren dövlət hüquqlarını birtərəfli qaydada güzəştə getməsi kimi qiymətləndirirlər. Onların fikrinə görə, Cənubi Qafqazda Rusiyanın Ermənistana güclü iqtisadi və hərbi yardım göstərməsi, onun işğalçı ordusunu təmənnasız silahlandırması, bir tərəfdən işğalçı ölkənin siyasi rəhbərliyini Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllindən yayındırır, danışıqlarda qeyri-konstruktivliyə təşviq edir, digər tərəfdənsə Azərbaycanın beynəlxalq təhlükəsizlik siyasətinə, regional hərbi-geostrateji seçiminə fərqli təsir göstərir. Odur ki, Dağlıq Qarabağ münaqişəsi hazırda həm Ermənistana, həm də Azərbaycana təsir göstərmək üçün Rusiyanın əlində ciddi bir mexanizmdir [6].

Rusiya amilinin təhlükəli tərəfləri Ümummilli Lider Heydər Əliyevin balanslaşdırma siyasəti nəticəsində zərərsizləşdirilə bildi. Bundan sonra Azərbaycanın iqtisadi və siyasi güclənməsi, inteqrasiya proseslərində fəal iştirakı Rusiyanın ritorikasını dəyişməsinə gətirib çıxardı. Azərbaycan Respublikası prezidenti İlham Əliyevin xarici siyasi kursunda da Rusiya amilinə önəm verildi. Əsas prinsip, faktiki olaraq bu oldu . "Rusiya biz sənin düşmənin deyilik". Bu, həm də Rusiya üçün də bir mesaj anlamına gəlməkdədir ki, "sən də bizi düşmənləşdirmə". Hazırda Rusiya ilə Azərbaycan arasında normal münasibətlər mövcuddur. Qarşılıqlı əməkdaşlıq getdikcə inkişaf edir. Azərbaycan bu baxımından normal qonşuluq nümunəsi göstərir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfərləri zamanı hər iki tərəfin maraqlarina cavab verən çoxsaylı sənədlər imzalanmışdır [1, 323].

Rusiyanın regional narahatlıqlarının səbəblərindən biri də Türkiyənin Cənubi Qafqazda fəallaşması, Azərbaycan ilə münasibətlərinin daha da möh-

kəmləndirilməsidir. Soyuq müharibə dövründə Türkiyənin xarici siyasətində, demək olar ki, heç bir yeri olmayan Qafqaz Sovet İttifaqının dağılmasından sonra həm enerji siyasəti, həm də təhlükəsizlik mənasında əhəmiyyətli bölgələrdən biri olmuş və Türkiyədə maraq doğurmuşdur. Rusiya Federasiyası sərhədləri içində qalan Şimali Qafqaza baxış Türkiyə - Rusiya əlaqələri çərçivəsində qiymətləndirilərkən Cənubi Qafqazda üç yeni dövlətin ortaya çıxmasıyla bu ölkələrlə əlaqələr Qafqaz siyasətinin ana oxunu yaratmışdır [10]. Türkiyə baxımından Sovet İttifaqının dağılması Qafqazda yeni imkanlara səbəb olarkən, regional qarşıdurma və böhranların varlığı da eyni zamanda, çətinliklər yaratmışdır. Rusiyanın bölgədəki təcrübəsi və Sovet İttifaqı dövründən qalan əlaqələriylə üstünlük təmin edərkən, yeni müstəqilliyini qazanan ölkələrdə meydana çıxan milliyyətçilik və artıq bütövlükdə Qafqazda görülən müstəqillik axınları Rusiyanın Qafqazdakı varlığını təhdid etmişdir.

Türkiyənin Qafqaz siyasəti baxımından ən əhəmiyyətli ölkə Azərbaycandır. Türkiyə ilə olan tarixi əlaqələri və zəngin enerji resurslarına malik Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq sistemə inteqrasiyası Türkiyə üçün də əhəmiyyət kəsb edir. Türkiyə Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü şərti ilə həll edilməsini müdafiə etmiş və erməni işğalına qarşı beynəlxalq təşkilatlar çərçivəsində əhəmiyyətli səylər göstərmişdir. Son dövrlər Yaxın Şərqdə baş verən hadisələrdə Türkiyənin fəallaşması Rusiya ilə onun arasında gərginliyin artmasına səbəb olmuşdur. Türkiyə hava məkanını pozaraq ərazi bütövlüyünə təhlükə törədən rus təyyarəsinin vurulması ilə iki ölkə arasında münasibətlər bir qədər də pisləşmişdir [10]. Təbii ki, Rusiya-Türkiyə münasibətlərində yaranmış bu gərginlik özünü Azərbaycan üzərində də göstərmişdir. Azərbaycan isə öz tərəfindən hər iki tərəf arasında vasitəçilik rolunu oynamağa hazır olduğunu nümayiş etdirmişdir [11].

Bütün bunlarla yanaşı, Rusiya ilə davranış modelləşdirilməsində aşağıdakılar daim diqqət mərkəzində qalmalıdır:

1. Rusiya öz hərbi bazalarını Azərbaycan torpaqlarını işğal etmiş olan Ermənistanda saxlamaqdadır;
2. Rusiya Cənubi Qafqazı təsir dairəsi hesab edir və Azərbaycanın bunu reallıq olaraq qəbul etməsini istəyir;
3. Rusiya daxilində velikorus düşüncəsini yaşadan qüvvələr hərbi sənaye kompleksində, siyasi çevrələrdə güclüdür və real imkanlara malikdirlər;
4. Rusiya bölgədə Azərbaycanın dostu və müttəfiqi Türkiyənin fəallaşmasından ehtiyat etməkdədir.

Bunların sadalanması ilə, təbii ki, iş bitmir. Hər biri üçün əks təkliflərin hazırlanması yuxarıda qeyd etdiyimiz geosiyasi modelləşdirmənin tərkib hissələri olmalıdır. İlkin halda Azərbaycan üçün aşağıdakılar vacibdir:

1. Rusiya hərbi mövcudluğunun təhlükə elementlərinin azaldılması üçün beynəlxalq hərbi əməkdaşlığı şaxələndirmək, xüsusilə Türkiyə ilə hərbi və siyasi əlaqələri gücləndirmək. Həmçinin Cənubi Qafqazın iki ölkəsinin qlobal iqtisadi layihələr şəbəkəsində iştirakını gücləndirmək üçün Gürcüstan ilə

birgə fəaliyyət planları ətrafında işləri sürətləndirmək;

2. Rusiyanın xüsusilə onun müxtəlif siyasi, iqtisadi və mədəni çevrələri ilə əlaqələri gücləndirmək, İmkan olduqca Rusiya iqtisadiyyatına rəsmi investisiya qoyuluşları etmək və velikorus düşüncəsini daxildən zərərsizləşdirmək üçün onunla konstruktiv ünsiyyətə üstünlük vermək;
3. Türkiyə ilə əməkdaşlığı gücləndirməyin militarist mahiyyət daşımadığını Rusiya ictimaiyyətinə kütləvi informasiya vasitələri ilə daim təbliğ etmək.

***Azərbaycan Respublikası üçün "İran davranış modelləşdirilməsi"***

İran Azərbaycanın cənubunda yerləşən və ölkəmizlə sıx tarixi bağları olan bir dövlətdir. İran da beynəlxalq fəaliyyət məkanında iddialı çıxışları ilə gündəmə gəlir. Rusiya qədər imkanları olmasa da, son dövrlər Suriya və İraq ətrafında gedən proseslərdə hərbi və siyasi iştirakı ilə İran özünün mərhələli olaraq dünya dövləti olmaq istəklərini ortaya qoymuşdur. Bunun üçün keçiləcək ilk mərhələ regional güc olmaqdır. İranda azərbaycanlıların yaşaması və onların siyasi fəaliyyətlərinin zaman-zaman gündəmə gəlməsi əslində bizim üçün olduqca önəmli bir vasitədir. Doğrudur, tarixi keçmişimizdə bəzi insanların emosional və dərin olmayan çıxışları səbəbi ilə İran ilə əlaqələrimizə bu amil mənfi təsir etmişdi. Ancaq burada da Ümummilli lider Heydər Əliyevin apardığı siyasət hissiyyat üzərində qurulmuş düşüncəni məntiqi və konseptual siyasətlə əvəz etdi [2, 139]. Azərbaycan İranı qıcıqlandıracaq hissi davranışlardan deyil, İran dövlətinin Cənubi Qafqazda Azərbaycana olan ehtiyacından istifadə etməyə başladı. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev İran ilə konstruktiv əməkdaşlığa müsbət baxdığını öz addımları ilə ortaya qoydu. Çıxışlarının birində dövlət başçısı Azərbaycanın xoş niyyətini aşağıdakı sözlərlə ifadə etdi və qeyd etdi ki: *"İran-Azərbaycan dostluğu sarsılmazdır, heç bir kənar qüvvə bizim aramıza girə bilməz. Bizim birliyimiz ölkələrimizin və bölgənin gələcəyi üçün lazımdır."*

Azərbaycan Respublikasının xarici siyasətində Cənubi Azərbaycan amili unudulmadı. Elmi, siyasi, mədəni və milli şüur müstəvisində Arazdan cənubda bir Azərbaycanın olması daim diqqət mərkəzindədir. Burada bir məqamı da qeyd etməyimiz lazımdır. İranda siyasi çevrələr arasında etnik millətçilik və fars üstünlüyü düşüncəsini yaşadan qüvvələr vardır. Bu qüvvələr zaman-zaman İran daxilində bir sıra problemlərə səbəb olurlar. Karikatura olaylarını yada salmaq kifayət edər. Eyni zamanda, İran Qarabağ müharibəsi dövründə Ermənistanla siyasi və iqtisadi əlaqələrinə qəti bir şəkildə məhdudiyyət qoymayan bir ölkədir. İranın elmi dairələrində bu günün özündə belə Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları səsləndirilməkdədir.

Bütün problemli məsələlərə baxmayaraq, Azərbaycan İranla münasibətləri mehriban qonşuluq və qarşılıqlı hörmət əsasında qurmağa çalışmaqdadır. İran Azərbaycanın ən böyük iqtisadi tərəfdaşlarından biridir. Azərbaycan-İran ikitərəfli münasibətlərində iqtisadi əlaqələrin xüsusi çəkisi var. 1992-ci ildən indiyədək iki ölkə arasında imzalanan yüzə yaxın sənədin əksəriyyəti

iqtisadi münasibətləri əhatə edir. İran Azərbaycanın neft-qaz və neft-kimya sənayesində, bu məhsulların ixracında, sərmayə qoyuluşunda maraqlıdır. "Şahdəniz" üzrə hasilatın pay bölgüsü sazişində İranın NICO şirkəti 10 faiz paya malikdir. Ticarət, energetika, sənaye, tranzit və digər sahələrdə iki ölkə arasında mövcud iqtisadi münasibətlər bir-birini tamamlayır. 1993-cü ildən Bank Melli İranın Bakı filialı fəaliyyət göstərir. Azərbaycanda tikinti, ticarət, kənd təsərrüfatı, bank sektorları üzrə İran investisiyalı 441 şirkət fəaliyyət göstərir və xarici ölkələr arasında şirkətlərin sayına görə İran 4-cü yeri tutur. İran tərəfindən Azərbaycanda əsas kapitala 382 milyon ABŞ dolları məbləğində, qeyri-neft sektoruna isə 105 milyon dollar həcmində birbaşa investisiya yatırılıb. Təkcə 2013-cü il ərzində İranın Azərbaycanda əsas kapitala sərmayəsinin həcmi 158 milyon dollar təşkil edib. Energetika sahəsində də uğurlu əməkdaşlıq həyata keçirilir. 330 kV-luq "Ərdəbil-İmişli" və "İmişli-Cənub" istilik elektrik stansiyaları (İES), 220 kV-luq "Cənub İES-Salyan-Masallı-Astara (İran)" elektrik verilişi xətlərinin tikintisi tam başa çatdırılıb. Prezident İlham Əliyevin İran İslam Respublikasına 23 fevral 2016-cı il tarixli rəsmi səfəri zamanı imzalanmış "Ordubad" və "Marazad" su elektrik stansiyalarının tikintisi və istismarı haqqında saziş bu sahədə əlaqələrimizi daha da artırmaq məqsədi daşıyır. Nəqliyyat sahəsində həyata keçirilən layihələr də Azərbaycan-İran əlaqələrində mühüm yer tutur. Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi Azərbaycan vilayəti arasında Culfa-Culfa (İran) yeni avtomobil yolu körpüsünün istifadəyə verilməsi nəqliyyat əlaqələrinin genişlənməsi, beynəlxalq tranzit yüklərin daşınması, vətəndaşların rahatlığının təmin olunması baxımından müstəsna əhəmiyyətə malikdir. Azərbaycan və İran arasında müqavilə-hüquqi bazanın genişləndirilməsi, rabitə və yüksək texnologiyalar, kənd təsərrüfatı, turizm, təhsil, səhiyyə, meliorasiya və mədəniyyət sahələrində də əlaqələr uğurla davam etdirilir. Bununla belə, iki dövlət arasında iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən, neft-qaz, yüksək texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları, ticarət, investisiya və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar var. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev Tehrana son səfəri zamanı İranla əməkdaşlığın inkişafına böyük önəm verdiyini vurğulayaraq deyib: "Biz istəyirik ki, əlaqələrimiz bütün sahələrdə uğurla inkişaf etsin və buna nail olmaq üçün indi çox gözəl imkanlar vardır" [13].

Bölgədə gedən proseslər, eləcə də Azərbaycanın fəallaşması İranla olan münasibtələrin diplomatik müstəvisində də özünü göstərmişdir. 2016-cı il aprelin 5-də İranın Ramsar şəhərində Azərbaycan, İran və Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirilib. Görüşdə üç ölkənin xalqları arasında mövcud olan dərin köklərə malik tarixi, dini, mədəni oxşarlıqlar və ümumi dəyərlərin daha güclü həmrəylik üçün xüsusi imkanlar yaratdığına inam ifadə edilib. Tərəflər bütün sahələrdə əlaqələrin daha da genişləndirilməsi vasitəsilə regionda sülh, sabitlik, təhlükəsizlik, firavanlıq və əməkdaşlıq sisteminin yaradılmasına dair öhdəliklərini təsdiq edib və bu səylərin həmrəylik yolu ilə

regional sahiblik hissini gücləndirəcəyini vurğulayıblar. Regionda sülh və sabitliyin möhkəmləndirilməsində birgə maraqlar, bu xüsusda suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət və bütün mübahisələrin dinc yolla nizamlanması da daxil olmaqla, beynəlxalq hüququn prinsiplərinə əməl edilməsi qeyd edilib. Həmin prinsiplər əsasında Dağlıq Qarabağ münaqişəsinin ən qısa müddətdə həll edilməsinin vacibliyi vurğulanıb. Nazirlər iqtisadi-ticari əməkdaşlığı gücləndirmək, sərmayə və ticarətin təşviq edilməsi üçün mövcud potensialdan istifadə etmək, həmçinin enerji, nəqliyyat, telekommunikasiya, sənaye, təhsil, elm, mədəniyyət, turizm və idman sahələrində birgə layihə və proqramların həyata keçirilməsi yolu ilə əməkdaşlığı daha da inkişaf etdirmək üçün bütün səyləri səfərbər etməyi qərara alıblar. Bundan başqa, regional və qlobal məsələlər üzrə siyasi dialoq, koordinasiya və əməkdaşlığı daha da təkmilləşdirmək məqsədilə üçtərəfli formatda müntəzəm görüşlər keçirilməsinin vacibliyi qeyd edilib. Görüşün yekunu olaraq Ramsar Bəyannaməsi qəbul edilib [14].

Lakin bu pozitiv işlərlə birlikdə İran Azərbaycana təsir vasitələrinin sayını artırmağa cəhd göstərməkdədir. İranın istifadə etdiyi amillərdən biri də dindir. İran müsəlman şərqində dinin özünəməxsus siyasi və düşüncəvi interpretasiyası ilə seçilir. Diqqətə alınacaq amillərdən biri də odur ki, İran inqilabının ixracı müasir İranın siyasi ideyalogiyasının tərkib hissəsidir. Azərbaycanın təhlükəsizlik xidmət orqanları dəfələrlə İran ilə bu sahədə əməkdaşlıq etmiş şəxsləri zərərsizləşdiriblər. Belə bir şəraitdə İranın Azərbaycana təsir vasitəsi kimi istifadə edə biləcəyi hansı imkanları vardır və buna qarşı nə kimi önləyici tədbirlər nəzərdə tutula bilər.

İran din amilindən siyasi məqsədlər üçün istifadə təcrübəsinə müvafiq kadr aparatına malikdir;

1. İran Azərbaycanın çoxtərəfli beynəlxalq inteqrasiyasında ehtiyat etməkdədir;
2. İran Rusiya ilə bölgədə müəyyən əməkdaşlıq fəaliyyətlərini qurmaqla təsirini artırmaq niyyətindədir;
3. İran öz daxilində olan azərbaycanlılara Azərbaycanın təsirindən narahatdır. Cənubi Azərbaycanda və İranın başqa bölgələrində yaşayan azərbaycanlılar indinin özündə də özlərini türk adlandırırlar [4, 5].

Bu məsələdə irəli sürülə bilən təkliflər nədən ibarət ola bilər?:

1. İranın din amilindən istifadəsinin qarşısını almaq üçün ilk öncə onun təqdimatında din məfhumunun kütlələrə təsirini azaltmaq lazımdır. Bunun üçün fərqli dini anlama metodlarının inkişafını təmin edərək İran siyasi amilini zəiflətmək vacibdir;
2. Beynəlxalq inteqrasiyanı gücləndirmək və şaxələndirmək lazımdır. Belə ki, beynəlxalq inteqrasiyanın pozitiv bir formatda reallaşdırılması Azərbaycanın dövlət müstəqilliyinin qorunması istiqamətində əldə edilmiş təminatlardan biridir;
3. Rusiya və İran arasında regional əməkdaşlığın təsirlərini azaltmaq məqsədi

ilə Qərb dövlətləri ilə iqtisadi əməkdaşlığı artırmaq və regional layihələri gücləndirmək lazımdır. Türkiyə ilə əməkdaşlıq məsələlərini çoxukladlı formata keçirtmək məqsədəuyğundur;

4. İran azərbaycanlıları ilə mədəni və düşüncə vəhdətini gücləndirmək istiqamətində fəaliyyət planları hazırlamaq vacibdir.

***Nəticə***

Azərbaycan istər Rusiya və istərsə də İran ilə qarşılıqlı hörmət və əməkdaşlıq zəminində münasibətlərin olmasında maraqlıdır. Bunun üçün ən ali siyasi iradə səviyyəsində dəfələrlə mövqe ortaya qoyulmuşdur. Çünki Azərbaycan dövlətinin beynəlxalq fəaliyyətində əsaslandığı prinsiplər demək olar ki, Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə müşavirənin Yekun aktına daxil olan vəzifələrlə eynidir: dövlətlərin suveren bərabərliyi; zor işlətmək və ya zorla hədələməmək; dövlət sərhədlərinin pozulmazlığı; dövlətlərin ərazi bütövlüyü; beynəlxalq mübahisələrin dinc yollarla həlli; daxili işlərə qarışmamaq; insan haqlarına hörmət; xalqların və millətlərin öz müqəddəratını təyin etmə; əməkdaşlıq; beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək [2, 18].

Bununla belə, Azərbaycan respublikası həm uzaq, həm də yaxın tarixini daim diqqət mərkəzində saxlamalı, qeyd edilən ölkələrin daxilində siyasi prosesləri izləməlidir. Hətta təklif edərdik ki, müvafiq elmi qurumlar daxilində Rusiya və İran araşdırmaları İnstitutları yaradılsın. Burada həmin ölkələrin gələcək davranış ehtimalları modelləşdirilsin və buna qarşı da milli fəaliyyət modelləri formalaşdırılsın.

**ƏDƏBİYYAT**


1. Abbasbəyli A. Dünya siyasəti. Bakı: 2011
2. Heydər Əliyev və Şərq. Bakı: Ozan, 2002
3. Bədəlov Ə. Azərbaycan-İran dostluq və əməkdaşlıq münasibətləri inkişafın yeni mərhələsindədir. http://xalqqazeti.com/az/news/politics/50628
4. Mahmudov Y. Azərbaycanhlar (etnik-siyasi tarixə ümumi baxış). Bakı: Aspoliqraf, 2008.
5. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan, 2005.
6. Həsənov Ə.M. Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatı və Azərbaycanın hərbi-geostrateji maraqları http://az.strategiya.az/old/?m=xeber&id=15859
7. Никитина Ю. От интеграции к регионализму: эволюция теорий регионального межгосударственного сотрудничества // Вестник МГИМО — Университет. 2010. № 6 (15). М. С. 134–139;
8. Кулик С.А. Спартак А.Н., Юргенс И.Ю. Экономические интересы и задачи России в СНГ. М., 2010, s.5
9. Silah qalmaqalını araşdıracaq komissiya yaradılır, http://www.hafta-ichi.com/v4/pre.php?id= 31917 , 25/10/2010
10. Foucault`s Pendulum: Turkey in Central Asia and the Caucasus", 5-ci cild, N2, s. 1-22
11. https://tr.wikipedia.org/wiki/2015_Rus_Su-24_u%C3%A7a%C4%9F%C4%B1n%C4%B1n_d%C3%BC%C5%9F%C3%BCr%C3%BClmesi
12. http://www.cbc.az/az/news/all-news/aydn-mirzzad-azrbaycan-vasiti-olmaa-hazrdr.page
13. http://www.xalqqazeti.com/az/news/analytics/47144
14. http://www.mfa.gov.az/news/909/3992

## КРАТКИЙ ОБЗОР НА ГЕОПОЛИТИЧЕСКИЕ ВОПРОСЫ МОДЕЛИРОВАНИЯ ИЗМЕНЕНИЙ
**(первая часть: Россия и Иран)**

**Б.Э.НАБИЕВ**

### РЕЗЮМЕ

Статья связанна с кратким обзором на геополитические вопросы моделирования изменений. Внимание здесь, в основном, сосредоточено на двух странах, Иран и Россия. Были проанализированы региональные требования указанных стран.

**Ключевые слова:** политические изменения, движущиеся модели, Иран, Россия

## A SHORT REVIEW OF GEOPOLITICAL ISSUES OF MODELING CHANGES AND MOVEMENT (Part I: Russia and Iran)

**B.E.NABIYEV**

### SUMMARY

The paper presents a review of the geopolitical questions of modeling changes. The author focuses on two countries: Iran and Russia. The regional demands of the aforementioned countries are analyzed.

**Key words:** political change, moving models, Iran, Russia

# SOSIAL HÜQUQLARIN TƏMINATI SAHƏSINDƏ BEYNƏLXALQ VƏ DÖVLƏTDAXILI HÜQUQUN QARŞILIQLI NISBƏT MƏSƏLƏLƏRI

**Ş. İ..ƏLİYEV**
***Bakı Dövlət Universitetinin "Beynəlxalq Ümumi Hüquq" Kafedrasının dosenti, h.ü.f.d.***
*al.shahriyar@mail.ru*

*Məqalədə beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələlərin bir sıra aspektləri nəzərdən keçirilmiş, sosial hüquqların realizəsi nöqteyi nəzərindən mühüm əhəmiyyəti qeyd edilmişdir. Bu sahədə mövcud konsepsiyalar və beynəlxalq hüquq normaları əsasında sosial hüquqların etibarlı təminatının mümkünlüyünə diqqət yetirilmişdir. Həmçinin qarşılıqlı nisbət məsələlərinin öyrənilməsi Azərbaycan Respublikası qanunvericiliyi və mühüm beynəlxalq sənədlərin təhlili əsasında yerinə yetirilmişdir.*

*Məqalədə beynəlxalq normaların yaradılmasının əsası kimi milli hüququn çıxış etməsi barədə dəlillər əks olunmaqla yanaşı, beynəlxalq sənədlərdə təsbit olunmuş sosial hüquqların realizəsinin ən səmərəli vasitəsi kimi dövlətlərin iradəsi qeyd edilmişdir. Sonda müəllif nisbət məsələlərinin təhlili əsasında bir sıra mühüm nəticələrlə çıxış edir.*

**Açar sözlər:** sosial hüquqlar, beynəlxalq hüquq, milli qanunvericilik, qarşılıqlı nisbət məsələləri, qloballaşma, inteqrasiya prosesləri.

Beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi problemi müasir dövr üçün həm nəzəri, həm də praktiki cəhətdən aktualdır. Beynəlxalq və milli hüququn əlaqəli şəkildə inkişafı, qloballaşma, inteqrasiya prosesləri bu aktuallığı şərtləndirən amillərdəndir (2, 39). Beynəlxalq və milli hüquq normalarının qarşılıqlı nisbət məsələlərinin təhlili bir sıra aspektlərdən əhəmiyyətlidir. Ilk növbədə, nəzəri cəhətdən bu normaların qarşılıqlı şəkildə öyrənilməsi və müqayisə edilməsi həyata keçirilir. İkincisi, bu sahədə beynəlxalq standartların dövlətdaxili qanunvericilikdə rolu müəyyən edilir. Üçüncüsü, milli qanunvericilik, bir tərəfdən, beynəlxalq standartlara uyğunlaşdırılırsa, digər tərəfdən başqa dövlətlərin daxili qanunvericiliyi ilə müqayisə edilir, bu isə dövlətlərin milli qanunvericiliklərinin kifayət qədər yaxınlaşmasına səbəb olur, qanunvericiliklər arasında kolliziyalar aradan qalxır (1, 77). Sosial hüquqlar sahəsində isə beynəlxalq və dövlətdaxili hüquq sistemində müqayisəsi həm də ona görə əhəmiyyətlidir ki, dövlətlərin sosial siyasətinin məzmun və tərkibinin eyni cür başa düşülməsinə imkan verən və buna müvafiq olaraq hər bir dövlətdə sosial tələbata ehtiyacı olan bütün şəxslərin müdafiəsini

səmərəli təmin etməyə yönəlmiş bu vaxta qədər vahid bir təcrübə formalaşmamışdır.

Beynəlxalq hüquq və dövlətdaxili hüquq müstəqil fəaliyyət göstərən, lakin bir-biri ilə əlaqədə olan və bir-birinə qarşılıqlı təsir göstərən hüquq sistemləridir. Başqa sözlə desək, bu iki müstəqil hüquq sistemi bir-birindən təcrid olunmuş şəkildə mövcud deyillər. Lakin bu fikir beynəlxalq hüquq elmində və praktikasında heç də birmənalı qəbul olunmur.

Beynəlxalq hüquq elmi beynəlxalq və milli hüququn qarşılıqlı nisbət məsələsində iki əsas istiqamət: monist və dualist istiqamət işləyib hazırlamışdır. Monizm nəzəriyyəsi də hüquqşünaslar tərəfindən iki istiqamətdə fərqləndirilir: birinci istiqamətin tərəfdarları beynəlxalq hüququn, ikinci istiqamətin tərəfdarları isə dövlətdaxili hüququn üstünlüyünü qəbul edirlər. Dualizm nəzəriyyəsinə əsasən beynəlxalq və dövlətdaxili hüquq fərqli hüquq sistemləridir, onlar ayrılıqda müstəqil hüquqi sistemlər olmaqla, müxtəlif sferalarda fəaliyyət göstərir və heç biri biri-birinə tabe olmur. Bu nəzəriyyəyə görə beynəlxalq hüquq dövlətlərarası münasibətləri tənzim edir, dövlətdaxili hüquq isə dövlətin ərazisində fərdlərin hüquq və vəzifələrini müəyyən edir.

Beynəlxalq-hüquqi doktrinada qeyd edilir ki, beynəlxalq hüquq normaları dövlətdaxili hüquq sistemlərinin iştirakı ilə realizə olunur. Bu mənada, beynəlxalq hüquq normalarının implementasiyasının mühüm vasitəsi kimi dövlətdaxili tədbirlər qismində müəyyən qanunvericilik və digər normativ aktların qəbul edilməsi, həmçinin təşkilati xarakterli tədbirlərin görülməsi çıxış edir. Beləliklə, insan hüquq və azadlıqları sahəsində, beynəlxalq hüquq normalarının tanınması və konstitusion təsbiti ilə yanaşı, onların faktiki tətbiqi də çox zəruridir. Hüquq normalarının səmərəliliyi məhz onların realizəsində təzahür olunur (1, 79).

Beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi özünü onların bir-birinə təsir formasında göstərir.Beynəlxalq hüququn anlayışına əsasən (3, 63), beynəlxalq hüquq dövlətlərin qarşılıqlı razılığı əsasında yaradıldığından (dövlətlər beynəlxalq hüququ yaradır) burada ilk növbədə dövlətdaxili hüququn beynəlxalq hüquqa təsiri çıxış edir ki, buna da əsasən dövlətlərin beynəlxalq hüquq normalarının yaradılması prosesində özlərinin milli hüququnun prinsip və normalarından çıxış etmələridir. Bu dövlətlərin konstitusiya müddəalarından irəli gəlir. Hətta beynəlxalq hüququn primatlığını qəbul etməsinə baxmayaraq H.Kelzen yazırdı ki, beynəlxalq hüququn bir çox normaları bütöv (və ya tamamlanmamış) deyil və milli hüquq normalarının köməyi ilə implementasiya prosesinə ehtiyac duyur (6, 553).

AR Konstitusiyasına əsasən, insan hüquq və əsas azadlıqları ilə bağlı normalar o vaxt beynəlxalq müqavilələrə uyğun tətbiq ediləcəkdir ki, bu hüquqlar konstitusiyada təsbit edilmiş olsun. Məsələn, AR Konstitusiyasının 12-ci maddəsinin 1-ci hissəsində dövlətin ali məqsədi kimi, insan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi göstərilirsə, Konstitusiyanın həmin maddəsinin II hissəsinə əsasən, bu Konstitusiyada sadalanan insan və vətəndaş

hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq olunur.

Dövlətdaxili hüququn beynəlxalq hüququn yaranmasında, o cümlədən insan hüquqları sistemində sosial hüquqlarla bağlı məsələlərin həllində rolu, ilk öncə, müxtəlif ictimai sistemlərə məxsus olan dövlətlərin ideoloji düşüncələri, müzakirə olunan problemlərin həllinə sinfi yanaşmadan da asılıdır. Bu, insan hüquq və əsas azadlıqların təsbit olunduğu beynəlxalq sənədlər qəbul edilərkən özünü göstərmişdir. Belə ki, insan hüquqları haqqında ən mühüm universal beynəlxalq sənədlər hazılanarkən və qəbul edilərkən qərb ölkələrinin mövqeyi insan və vətəndaş hüquqlarının 1789-cu il Fransız Bəyənnaməsinə, 1787-ci il ABŞ Konstitusiyasına və hər kəsə doğulduğu andan məxsus olan insanın əsas hüquq və azadlıqlarının təbii xarakterini elan edən digər qanunvericilik aktlarına istinad edirdi. Bu sənədlərdə, əsasən mülki və siyasi hüquqların siyahısı verilirdi. Buna görə də, ilk əvvəl qərb ölkələri tərtib olunan layihəyə sosial-iqtisadi hüquqların daxil edilməsini etirazla qarşılayırdılar. Məşhur amerika dövlət xadimi Ceyms Qrin qeyd edirdi ki, ABŞ tərkibində iqtisadi, sosial və mədəni hüquqlar olan müqaviləni çətin qəbul edəcək, çünki bu hüquqlar ABŞ Konstitusiyasında göstərilən hüquqların çərçivəsindən kənara çıxır. Sovet İttifaqı insan hüquqlarının anadangəlmə və təbii xarakterinin tanınmasına qarşı çıxırdı, bu təbii hüquqların dövlət tərəfindən müdafiə edilməsi vəzifəsini inkar edirdi (4, 480). Buna görə də təklif olunmuş hüquqların heç də hamısı Paktlarda təsbit olunmadı. Belə ki, Sovet İttifaqı və digər sosialist ölkələrinin kəskin müqaviməti nəticəsində hər kəsin mülkiyyətə sahib olmaq hüququ və bu hüquqdan məcburi və özbaşına məhrum etməni qadağan edən hər hansı bir işarə Paktlardan götürüldü (7, 195-212).

Bundan başqa, təcrübə göstərir ki, dövlət nə qədər mütərəqqi ictimai-iqtisadi quruluşa malik olarsa, onun daxili hüquq normaları beynəlxalq hüquqa daha çox təsir göstərir. Məsələn, Amerikanın “İstismar olunan xalqın istiqlal Bəyannaməsi”, Fransanın “İnsan və vətəndaş hüquqları Bəyannaməsi”nin təsiri altında beynəlxalq hüquqa dövlətlərin suverenliyinə hörmət etmək, daxili işlərə qarışmamaq, insan hüquqlarına hörmət etmək və bir sıra digər mütərəqqi prinsiplər gətirilmişdir. Bu halda dövlətdaxili hüquq normasına zahirən analoji olan beynəlxalq hüquq norması qəbul edilə və yaxud da hər hansı bir dövlətdaxili akt öz formasını dəyişmədən beynəlxalq səviyyədə təkrar oluna bilər (5, 64). Bu, BMT kimi universal beynəlxalq təşkilatın Nizamnaməsinin hazırlanması və qəbul edilməsində də özünü təsdiq etmişdir: təhlükəsizlik surasının tərkibinin formalaşması və daimi üzvlərin statusunda.

Digər tərəfdən dövlətlər beynəlxalq öhdəliklərinə riayət etmədiklərinə haqq qazandırmaq üçün öz qanunvericiliklərinə istinad edə bilməzlər. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş imperativ prinsipinə əsasən dövlətlər qəbul etdikləri beynəlxalq öhdəliklərə vicdanla əməl etməyə borcludurlar. Qeyd edilən norma 1969-cu il Beynəlxalq müqavilələr hüququ haqqında Konvensiyanın 27-ci maddəsində təsbit olunmuşdur.

Beləliklə, dövlətdaxili hüquq beynəlxalq hüquqla elə uzlaşdırılmalıdır ki, sonuncunun həyata keçirilməsini təmin etsin. Dövlətlərin konstitusiya praktikasından çıxış edərək, beynəlxalq hüquq normalarının dövlətdaxili implementasiyasının inkorporasiya və transformasiya üsulunu qeyd etmək olar. İnkorporasiya zamanı beynəlxalq hüquq normaları, onların məcburiliyi dövlət tərəfindən müvafiq qaydada tanındıqdan sonra heç bir dövlətdaxili akt olmadan birbaşa milli hüquqa daxil edilir və milli hüquq normaları kimi tətbiq edilir. İnkorporosiya bu qaydada formulə edilir: beynəlxalq hüquq milli hüququn tərkib hissəsidir. Transformasiya halında isə beynəlxalq hüquq ipso facto milli hüququn hissəsi sayılmır. Beynəlxalq hüquq milli hüquqa ayrı-ayrı qanunvericilik aktları vasitəsi ilə daxil edilir. Başqa sözlə desək, beynəlxalq normanı milli hüquq sisteminə gətirən qanun verilməyibsə, milli məhkəmə həmin normanı heç cür tətbiq edə bilməz.

Beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələləri çərçivəsində sosial hüquqların tənzimlənməsi məsələləri mühüm əhəmiyyət kəsb edir. İlk öncə qeyd edilməlidir ki, sosial hüquqlar ikinci nəsil insan hüquqları olduğundan, aparılmış müqayisə sosial hüquqlarla bilavasitə əlaqədardır. İnsan hüquqlarının ali dəyər olması və bütün dövlətlərin bu müddəanı özlərinin milli qanunvericiliklərində əks etdirməsi, həmçinin bu hüquqları təmin etməsi ideyası bir sıra universal aktlarda əks olunmuşdur. İnsan hüquq və azadlıqların müfəssəl siyahısına, bu hüquqların sosial hüquqlarla vəhdət təşkil etməsi elmi nəzəri mülahizələrin, o cümlədən demək olar ki, bütün dövlətlərin konstitusiya mətnlərində rast gəlmək olar. Belə ki, bütün hüquq və azadlıqların eyni əhəmiyyətli və bölünməz olmasının təsdiq edilməsi BMT-nin rəsmi mövqeyidir. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda qeyd olunduğu kimi "... yalnız hər kəsin öz iqtisadi, sosial və mədəni, həmçinin mülki və siyasi hüquqlarından istifadə etməsi üçün şərait yaradılan zaman qorxu və ehtiyacdan azad insan şəxsiyyəti idealı mövcud ola bilər". Analoji yanaşma BMT Baş məclisinin 1951-ci il və 1986-cı il tarixli qətnamələrində də bəyan edilmişdir.

Bundan başqa, sosial hüquqların daha mükəmməl təsnifatı da beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələlərin araşdırılması və qarşılıqlı müqayisəsi zəminində müəyyən oluna bilər. Ayrı-ayrı sosial hüquqların beynəlxalq və milli hüquqi tənzimlənməsinin xüsusiyyətlərinin öyrənilməsi belə nəticəyə gəlməyə əsas verir ki, sosial hüquqlar geniş mənada nəzərdən keçirilməli, onların siyahısı dövlətlərin tanıdıqları və təminat verdikləri həddə deyil, insanın layiqli yaşayışının təmin olunduğu həddə uyğun olmalıdır. Bu da aşağıdakı hüquqların realizəsində ifadə oluna bilər: layiqli həyat hüququ; əmək hüququ; sağlam ətraf mühitdə yaşamaq hüququ; tətil hüququ; sosial müdafiə hüququ; mənzil hüququ; işsizlikdən müdafiə hüququ; sosial təminat hüququ; istirahət hüququ; bərabər dəyərli əməyə görə bərabər əmək haqqı hüququ; qadınların sosial müdafiə hüququ; uşaq və yeniyetmələrin sosial müdafiə hüququ; sağlamlıq hüququ; təhsil hüququ; ədalətli və əlverişli

əmək şəraiti hüququ; sosial sığorta hüququ; analıq (analığın qorunması) hüququ; həmkarlar ittifaqları hüququ; təhlükəsiz əmək şəraiti hüququ; ahılların sosial müdafiəsi və onlara yardım hüququ; azad iş seçimi hüququ; ailənin sosial müdafiəsi; inkişaf hüququ; ödənişsiz hüquqi yardım almaq hüququ. Göründüyü kimi, ancaq yuxarıda sadalan 24 hüquqla əhatə olunan insanın sosial hüquqları sosial hüquqlar institutunun fəaliyyətini mümkün edə bilər. Həmçinin qeyd edilməlidir ki, bu hüquqlar bütöv vəhdətdə komplekslilik təşkil edir və bir-birini tamamlamaqla insanın layiqli həyatına əhəmiyyətli dərəcədə təsir edir. Bu hüquqların hər birinin ayrı-ayrılıqda araşdırılması onu deməyə əsas verir ki, onlar mühüm beynəlxalq aktlarda təsbit olunmaqla müasir dövlətlərin konstitusion normalarının məzmununu təşkil edir. Hesab etmək olar ki, dövlətlərin sosial siyasətinin məzmun və tərkibinin eyni cür başa düşülməsinə imkan verən və buna müvafiq olaraq hər bir dövlətdə sosial tələbata ehtiyacı olan bütün şəxslərin müdafiəsini səmərəli təmin etməyə yönəlmiş bu təsnifat praktik və nəzəri cəhətdən mühüm əhəmiyyət kəsb edir.

İnsanların sosial hüquqlarını tənzimləyən beynəlxalq normaların hazırlanması və qəbul edilməsi sahəsində ilk addım dövlətlərin formal razılaşdırılmış mövqelərinin hüquqi ifadəsi olduğu halda, sonrakı addım onların qanunvericiliklə rəsmiləşən və həyata keçən dövlət-hüquqi tanınmasıdır. Bu mənada sosial hüquqların hüquqi tənzimlənməsi mənbələri arasında əsas rolu beynəlxalq-hüquq normaları oynayır. Universal normalar Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin ümumi prinsiplərində (m. 1, 13, 55, 56, 62 və 68), Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin (ÜİHB) proqram müddəalarında (m. 22-27), İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın normalarında, Beynəlxalq Əmək Təşkilatının və digər insan hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyət həyata keçirmək səlahiyyətli təşkilatların konvension standartlarında möhkəmləndirilmişdir. Sosial hüquqların tənzimlənmə mənbələrinin digər qrupunu regional sazişlərdəki normalar təşkil edir (İnsan hüquq və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası, Avropa Sosial Xartiyası və s.). Üçüncü əhəmiyyətli qrup dövlətlərin milli qanunvericiliklərində təsbit olunan sosial hüquqların gözlənilməsi və müdafiəsinin təminatları ilə əlaqədardır.

"AR-in dövlət müstəqilliyini bərpa etmək haqqında" AR Ali Sovetinin 18 oktyabr 1991-ci il Bəyannaməsi Azərbaycan xalqının müqəddəratı və azad inkişafının təmin olunması üçün öz məsuliyyətini dərk edərək milli mənsubiyyətindən və dini etiqadından asılı olmadan AR-nin bütün vətəndaşlarının beynəlxalq aktlarda nəzərdə tutulmuş bütün insan hüquqlarına və əsas azadlıqlarına təminat verərək AR-nin dövlət müstəqilliyinin bərpa olunduğunu elan etmişdir (8).

12 noyabr 1995-ci il tarixdə AR Konstitusiyasının qəbul edilməsi AR hüququnun beynəlxalq hüquqla qarşılıqlı əlaqə məsələlərinin tənzimlənməsinin əsasını qoymuşdur. Belə ki, AR Konstitusiyasının 10-cu maddəsində qeyd edilir ki, AR başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş

beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş prinsiplər əsasında qurur. Bütövlükdə, AR Konstitusiyası beynəlxalq hüquq normalarının primatlığını qəbul etmiş, bununla da beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericilikdə əks olunmasının hüquqi əsasını formalaşdırmışdır.

Daha sonra, AR Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsi AR-nin tərəfdar çıxdığı beynəlxalq müqavilələri AR-in qanunvericilik sisteminin tərkib hissəsi kimi müəyyən etmişdir. Göründüyü kimi, AR beynəlxalq hüquq normalarının implementasiyası zamanı inkorporasiya yolunu seçmişdir. Eyni zamanda, AR Konstitusiyasının 151-ci maddəsində birbaşa göstərilir ki, AR-nin qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (AR Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) AR-nin tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Beynəlxalq hüququnun primatlığını qəbul etməklə yanaşı AR sosial hüquqlar sahəsində mühüm fəaliyyət həyata keçirir və bu gün o, 220-dən artıq beynəlxalq müqavilənin iştirakçısıdır ki, bunların da təxminən yarısı bilavasitə və ya dolayısı ilə insan hüquq və azadlıqları, o cümlədən sosial hüquqlarla bağlıdır. Göründüyü kimi, AR-in insan hüquqları sahəsində cöxsaylı beynəlxalq müqavilələrə qoşulması onun hüquqi və sosial təbiətindən, həmçinin beynəlxalq hüquqa artan marağından irəli gəlir.

Qeyd edilənlərlə yanaşı, nəzərə almaq lazımdır ki, ÜİHB-nin qəbul edilməsindən artıq 70, İqtisadi, sosial və mədəni hüquqlar haqqında BP-nin qəbul edilməsindən 50, ASX-nin qəbul edilməsindən 55 ilə və s. yaxın vaxt keçmiş və həmin beynəlxalq hüquqi aktlarda nəzərdə tutulan müddəaların bəziləri öz məzmunu baxımından ictimai münasibətlərin tənzimlənməsində geri qalmışdır ki, bu da sosial hüquqların realizəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Adıçəkilən beynəlxalq aktlardakı sosial hüquqların "tədricən yerinə yetirilən" və "onların həyata keçirilməsi dövlətlərin iqtisadi vəziyyətindən daha çox asılı olması kimi" təzahürlər artıq köhnəlmişdir və dünyanın hazırkı inkişaf reallıqları ilə uzlaşmır. Belə normalar əksər dövlətlərin konstitusion müddəalarına çevrilmiş, onların reallaşması istiqamətində nəzəri və beynəlxalq təcrübə formalaşmış, hakimiyyətin idarə olunmasının ən səmərəli vasitəsi kimi sosial dövlət idarəetmə forması geniş vüsət almışdır. Hesab edirəm ki, artıq dövlətlər "tədricən həyata keçirilən hüquqlar" və "dövlətin iqtisadi vəziyyətindən asılı olan hüquqlar" anlayışlarından "bəhanələr" gətirə bilməzlər. Yəni müasir dövlət konsepsiyası onu deməyə əsas verir ki, dövlət sosial hüquqların həyata keçirilməsi öhdəliyindən sığorta oluna bilməz və bu öhdəliklərin həyata keçirilməsi üçün sosial proqramlar yerinə yetirməli və mümkün hüquqi-təşkilati mexanizmlər işləyib hazırlamalıdır.

Beləliklə, yuxarıdakılara əsasən belə nəticəyə gəlmək olar ki, sosial hüquqlar sahəsində beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələlərinə münasibətdə sosial hüquqların müdafiəsi müasir dünyanın hazırkı inkişaf reallıqları, inkişaf etmiş dövlətlərin bu sahədə təcrübəsi və beynəlxalq-

hüquqi normativ baza əsas götürülməklə həyata keçirilməldir. Çünki, əminliklə demək olar ki, artıq əksər dövlətlər beynəlxalq hüququn primatlığını qəbul etmiş, həmçinin beynəlxalq sənədlərlə insan hüquqlarının universallığı tanınmış, bu sahədə möhkəm beynəlxalq-hüquqi əməkdaşlıq yaranmış, milli və beynəlxalq müdafiə sistemi, sosial hüquqlar sahəsində məhkəmə təcrübəsi formalaşmışdır.

Ən mühüm universal sənəd olan BMT Nizamnaməsi ilə sosial hüquqlara verilən mühüm əhəmiyyət dediklərimizi bir daha təsdiq edir. Belə ki, BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndində BMT-nin əsas məqsədlərindən biri kimi iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dili və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq göstərilir. Bunlar BMT Nizamnaməsinin 55-ci maddəsi ilə bir daha təsdiqlənmişdir: BMT irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verir.

Beləliklə, sosial hüquqlar sahəsində beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı öyrənilməsi sosial hüquqların həyata keçirilməsində və inkişafında mühüm imkanlar əldə etməyə şərait yaradır, dövlətdaxili tədbirlər qismində müəyyən qanunvericilik və digər normativ aktların qəbul edilməsinə, həmçinin təşkilati xarakterli tədbirlərin görülməsinə imkan açır, ayrı-ayrı dövlətlərin qanunvericiliyi müqayisəli şəkildə inkişaf etməsinə və bu hüquqların beynəlxalq hüquqla daha səmərəli müdafiəsinə şərait yaradır.

## ƏDƏBİYYAT


1. Əliyev Ə. İ. İnsan hüquqları. Dərslik. Bakı, 2013.
2. Əliyev S.F. İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi. Monoqrafiya. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2016.
3. Hüseynov L. H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000.
4. İnsan hüquqları. E.A.Lukaşevanın redaktəsi ilə. Tərcümə edən Ş.İ.Əliyev. Bakı, Şirvannəşr, 2005.
5. Seyidov Ə.C. Cinayət prosesində insan hüquqlarının təminatı məsələləri: beynəlxalq standartlar və dövlətdaxili qanunvericilik. Bakı. Uniprint, 2012.
6. Kelzen H. Principles of International Law. 2 ed. New York; Chicago; San Francisco; Toronto; London, 1967.
7. Official Records of the General Assembly. Tenth Session. Annex. Agenda item 28. Part II. Chap. VIII.
8. www.e-qanun.az.


## СООТНОШЕНИЕ МЕЖДУНАРОДНОГО И ВНУТРИГОСУДАРСТВЕННОГО ПРАВА В ОБЛАСТИ ОБЕСПЕЧЕНИИ СОЦИАЛЬНЫХ ПРАВ


**ШАХРИЯР АЛИЕВ**


### РЕЗЮМЕ


В статье рассмотрены некоторые аспекты соотношении международного и внутригосударственного права, отмечено важное значение с точки зрения реализации социальных прав. Уделено внимание на возможность надежного обеспечения социальных прав на основе концепции и норм международного права в этой области. Изучение

вопросов соотношение выполнены на основе анализа законодательства Азербайджанской Республики и важных международных документов.

В статье наряду с доказательствами о том, что на основе создании международных норм выступает национальное законодательство, отмечено воля государств как самое эффективное средство реализации социальных прав, закрепленные в международных документах. В заключении выдвинуты автором ряда важных выводов, которые основаны на анализе соотношения.

**Ключевые слова:** социальные права, международное право, национальное законодательство, вопросы соотношения, глобализация, интеграционные процессы.

**THE RATIO OF INTERNATIONAL AND NATIONAL LAW IN ENSURING SOCIAL RIGHTS**

**SHAHRIYAR ALIYEV**

**SUMMARY**

The article deals with some aspects of the relationship between international and national law, the importance of the implementation in terms of social rights. Attention is paid to the possibility of providing a reliable social rights on the basis of concepts and norms of international law in this area. Study on the ratio carried out on basis of the analysis of the Azerbaijan Republic and relevant international documents.

The article, along with the evidence that on the basis of the establishment of international norms in favor national law, noted the will of States as the most effective means of implementing social rights enshrined in the international instruments. In conclusion, the author put forward a number of important conclusions, which are based on ratio analysis.

**Keywords:** social rights, international law, national legislation, questions of relations, globalization, integration processes.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2016*

## İQTİSADİYYAT

**UOT339.9; 339.9:061(100)**

# AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ İNKİŞAF KONSEPSİYASI VƏ QEYRİ-NEFT SEKTORU

**H.H.ASLANOV**
***Bakı Dövlət Universiteti***
***dosent1966@mail.ru***

*Qlobal iqtisadi böhranların mövcudluğu, nəticə etibarilə hər bir ölkənin milli iqtisadiyyatına əhəmiyyətli təsir göstərir. Qlobal iqtisadi böhranların destruktiv təzahürlərini intensiv şəkildə neytrallaşdırmaq məqsədilə, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilməsi obyektiv zərurətə çevrilib.*

*Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərin qorunub saxlanması və daha da inkişaf etdirilməsi, qlobal və regional çağırışlara cavab verərək ölkəmizin dünyada öz mövqelərini gücləndirilməsi üçün ölkə prezidenti tərəfindən Azərbaycan 2020 Gələcəyə baxış "İnkişaf Kosepsiyasının" hazırlanması Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafını müasir iqtisadi siyasətin tərkib hissəsi kimi müəyyənləşdirmişdir. Məqalədə məhz bu və digər məsələlər ətraflı öyrənilmiş və elmu təhlili verilmişdir.*

**Açar sözlər**: qeyri-neft sənayesi, rəqabət qabiliyyətlilik, xarici ticarət, idxal, ixrac diversifikasiya

İyirmi beş il ərzində Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirərək dövlətçiliyini inkişaf etdirmiş, demokratik dəyərlərə yiyələnmiş və özünün liberal prinsiplərə əsaslanan iqtisadi modelini yaratmışdır. İlk növbədə, Azərbaycan enerji və ərzaq təhlükəsizliyi problemlərini həll etməklə, bütövlükdə inkişaf dinamikası Azərbaycanın həm regional, həm də qlobal miqyasda nüfuzunun artmasına və onun yeni geoiqtisadi oyunçuya çevrilməsinə şərait yaratdı. Azərbaycan öz sərvətlərinin, iqtisadi resurslarının və əlverişli coğrafi mövqeyinin yaratdığı imkanlardan bəhrələnib öz iqtisadi potensialını inkişaf etdirməklə yanaşı, regional əməkdaşlığın güclənməsinə təkan vermişdir. Azərbaycanın iqtisadi inkişaf dinamikası əvvəlcə resurslara əsaslanırdısa, hazırda iqtisadi şaxələndirmənin nəticəsi olaraq qeyri-neft sektoru üstün artım tempinə malikdir. 2003-2014-ci illərdə ümumi daxili məhsulun (ÜDM) orta illik artım tempi 14,2 % , qeyri-neft sektorunda isə 10,7 % olmuşdur. 2003-

2014-ci illərdə ölkənin strateji valyuta ehtiyatları 25,3 dəfə, dövlət büdcəsi 16,6 dəfə, bank aktivlərinin həcmi 10,4 dəfə, nominal əmək haqqı 5,9 dəfə, nominal orta aylıq pensiya 6,1 dəfə artmış, yoxsulluğun səviyyəsi 44,7 %-dən 7,6 %-ə enmişdir.

Azərbaycanın əldə etdiyi tarixi naliyyətlərin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi, qlobal və regional çağırışlara cavab verərək ölkəmizin dünya nizamında öz mövqelərini gücləndirməsi üçün prezident İlham Əliyev "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə 29 dekabr 2012-ci ildə Fərman imzalamışdır. Bu sənəd 2020-ci ilə qədər olan dövrdə Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması, nəqliyyat, tranzit və logistika infrastruktunun təkmilləşdirilməsi, bölgələrin tranzit inkişafı, informasiya cəmiyyyətinə keçidin təmin olunması, insan kapitalının inkişafı, səmərəli sosial müdafiə sisteminin qurulması, institusional islahatların davam etdirilməsi, mədəni irs və ətraf mühitin qorunması məsələlərini əhatə edir. Konsepsiya çərçivəsində Azərbaycan qlobal miqyasda çağırışlara cavab verərək innovasiya və modernləşmə xarakteri rəqabətədavamlılığı yüksəldəcək və dünya iqtisadiyyatına səmərəli inteqrasiya imkanları yaradacaqdır. Azərbaycan dövlətinin strateji vəzifəsi biliklərə əsaslanan iqtisadiyyatın yaradılması və inkişaf etdirilməsidir. Lakin inkişaf birtərəfli olmayacaq, davamlı xarakter daşımaqla iqtisadi, sosial və ekoloji məsələləri də əhatə edəcəkdir. Bu, konsepsiyanın əhatə etdiyi dövrdə ölkədə adambaşına düşən ümumi daxili məhsulun həcminin iki nəfərdən çox artaraq 13 min ABŞ dollarına çatdırılmasına imkan verəcəkdir. Azərbaycan əlverişli coğrafi mövqeyindən yararlanaraq eneji, nəqliyyat, tranzit və logistika infrastrukturunun inkişaf etdirilməsi ilə regional mərkəzə çevriləcəkdir.

"Dünya İqtisadi Formu"nun dərc etdiyi "Qlobal rəqabətədavamlılıq hesabatında" Azərbaycan dünyanın 144 ölkəsi arasında 46-cı yeri tutmaqla, MDB-də ən rəqabətədavamlı iqtisadiyyata malik olduğunu sübut etmişdir. 20 il əvvəl Azərbaycanla eyni səviyyədə qərarlaşan postsovet ölkələri indi iqtisadi inkişaf səviyyəsinə görə respublikamızla rəqabətdə çətinlik çəkirlər. Azərbaycanın iqtisadi inkişaf dinamikası əvvəlcə resurslara əsaslanırdısa, hazırda iqtisadi diversifikasiyanın nəticəsi olaraq qeyri-neft sektoru üstün artım tempinə malikdir. Bəzən ölkəmiz dünya iqtisadiyyatında yeni təməyülləri hətta Avropa ölkələrini qabaqlamaqla mənimsəyir. Məsələn, Azərbaycan resursla zəngin olan ölkələr sırasında enerji səmərəliliyi sahəsində ən yüksək nailiyyət qazanmış və Şərqi Avropada "yaşıl iqtisadiyyat"ın tədqiqini aparan ilk ölkə olmuşdur [1, 3].

"Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında qeyri-neft sektorunun 3 əsas istiqamətdə inkişafını nəzərdə tutulur. Bu konsepsiya Azərbaycanın gələcək 30-40 ildən sonrakı inkişaf prespektivlərinin möhkəm əsaslarını hazırlayır. Qeyri-neft sektorunun inkişafında 3 əsas prinsip var ki, bunlardan biri informasiya komunikasiya texnologiyalarının inkişafıdır. Bu sahənin inkişafı cənab prezident tərəfindən təyin edilən əsas prioritet sahələrdən

biridir. Bizim gələcək inkişafımızın möhkəm özüllər üzərində qurulmasının əsasını texnoloji tərəqqi təşkil edəcəkdir. Gələcəkdə Azərbaycan Qərblə Şərqi bağlayan informasiya texnologiyalarının nəqliyyat dəhlizi rolunu oynayacaqdır. Biz bununla gələcək inkişafımızın münbit zəminini hazırlayırıq. Qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatların hesablamalarına görə, əgər 2004-cü ildə vətəndaşların İnternetə çıxışı 7% təşkil edirdisə, bu gün bu rəqəm 60%-ə yüksəlmişdir.

Bu məsələ hazırda inkişafı nəzərdə tutulan ikinci önəmli sahə turizm sektorunun inkişafı hesab olunur. Azərbaycanda son illər keçirilən dünya miqyaslı tədbirlərin məqsədi ölkənin turizm sektorunu canlandırmaqdır. Əlverişli coğrafi iqlim şəraitinə, füsunkar təbiətə, zəngin mədəni-mənəvi irsə, mətbəx mədəniyyətinə malik Azərbaycanda turizmin inkişaf prespektivləri bir sıra beynəlxalq təşkilatlar tərəfindən də yüksək dəyərləndirilir. BMT-nin Ümumdünya Turizm Təşkilatının (ÜTT) qənaətinə görə, respublikamız regionda yüksək turizm potensialına malik ölkədir və bu sahə üzrə ildən-ilə müsbət irəliləyişlər hiss olunur.

"Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında qeyri-neft sektorunun inkişafında qarşıda duran 3-cü məqam ölkədə kənd təsərrüfatı sahəsini inkişaf etdirməkdir. Bu sahədə üzümçülüyün inkişafı əsas məsələrdən biridir. Ölkədə üzümçülüyün inkişaf etdirilməsi, aqrar sahənin gəlirliyinin və ixracat potensialının artırılması, kənd əhalisinin maddi rifahının yüksəldilməsi məqsədi ilə həyata keçiriləcək. Bu istiqamətdə artıq "2012-2020-ci illər üzrə Dövlət Proqramı"da təsdiq edilib.

Konsepsiya çərçivəsində qarşıya qoyulan sosial-iqtisadi hədəflər yüksək səmərə ilə fəaliyyət göstərən, dünya miqyasında rəqabətə qadir olan iqtisadi sistemin formalaşmasını şərtləndirir. Tarixi və müasir təcrübə göstərir ki, belə bir sistem yalnız sahibkar təşəbbüsünə və s. sərbəst rəqabətə əsaslanan bazar münasibətləri şəraitində yer ala bilər. Bununla bərabər, iqtisadi və sosial sahələrdə davamlı yüksək artım sürətinin təmin olunması bazar iqtisadiyyatı şəraitində dövlət tənzimləməsinin adekvat şəkildə qurulmasını, qlobal dünya iqtisadiyyatındakı son meylləri və istiqamətləri nəzərə almaqla, bu tənzimləmənin daha da təkmilləşdirilməsini tələb edir.

Azərbaycanda keçid dövrünün başa çatması və yetkin bazar münasibətlərinin formalaşması şəraitində dövlət tənzimləməsi və idarəetməsi funksiyaları, əsasən, makroiqtisadi sabitliyin qorunub saxlanılması, ölkədə işgüzar mühitin təkmilləşdirilməsi və sərbəst rəqabətin təmin olunması, yerli və xarici investisiyalar yönündə tənzimləmə tədbirləri, investisiya qoyuluşları və irimiqyaslı infrastruktur istiqamətlərində həyata keçiriləcəkdir.

Xarici ticarət prosedurlarının sadələşdirilməsi və təkmilləşdirilməsi, beynəlxalq bazarlara çıxışda və xarici bazarlarda rəqabət gücünün artırılmasında sahibkarlara göstərilən dövlət dəstəyinin artırılması istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Kiçik və orta sahibkarlıq subyektlərinin ixrac qabiliyyətinin artırılması məqsədi ilə təşviqedici tədbirlər həyata keçiriləcək.

Sahibkarlıq subyektlərinin dövlət tərəfindən güzəştli kreditlərlə təminat səviyyəsi yüksəldiləcək, daxili bazarın haqsız rəqabətdən qorunması üçün beynəlxalq təcrübədə qəbul olunmuş antidempinq və digər qoruyucu tədbirlər həyata keçiriləcəkdir. Eyni zamanda gömrük və miqrasiya prosedurlarının təkmilləşdirilməsi, həmçinin investorları yerli bazarlara daxil olmaqdan çəkindirən amillərin aradan qaldırılması üçün səylər səfərbər ediləcəkdir. Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olmaq üçün beynəlxalq ticarət sisteminə uyğun islahatların həyata keçirilməsi, qanunların dünya ticarət sistemində tətbiq edilən praktikaya uyğunlaşdırılması son nəticə olaraq yerli şirkətlərin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafına yeni imkanlar açacaqdır. Bununla yanaşı, vergi dərəcələrinin və məcburi dövlət sosial sığorta haqlarının strukturunun (işə götürənlər və sığortaolunanlar tərəfindən hissələr), həmçinin gömrük rüsumlarının optimallaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər sahibkarlıq fəaliyyəti üçün əlverişli mühit yaradılmasına kömək edəcəkdir. Konsepsiyanın əhatə etdiyi dövrdə görüləcək tədbirlər Azərbaycanda maliyyə xidmətləri bazarının əsas seqmentlərinin (bank sektoru, qeyri-bank kredit təşkilatları, sığorta bazarı, lizinq bazarı, qiymətli kağızlar bazarı və faktorinq bazarı) tarazlı inkişafını təmin edəcəkdir. Bank nəzarəti alətləri təkmilləşdiriləcək, bank sisteminin sabit və təhlükəsiz təmin olunması üçün müvafiq tədbirlər həyata keçiriləcəkdir. Bank sektorunda konsolidasiya tədbirləri və struktur islahatları davam etdiriləcək, rəqabətin stimullaşdırılması, bank-maliyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, o cümlədən elektron ödəniş sistemləri infrastrukturunun təkmilləşdirilməsi və onun əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzində saxlanılacaqdır. Bank sisteminin kapitallaşması davam etdiriləcək, regionlar üzrə bank şəbəkəsinin genişlənməsi təşviq olunacaq, tikinti-əmanət banklarının yaradılması dəstəklənəcək, ipoteka kreditləşməsi mexanizmi təkmilləşdiriləcəkdir. Elektron ödəniş, poçt-əmanət sistemləri inkişaf etdiriləcək, bank xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi gücləndiriləcəkdir.

Konsepsiyaya nəzər saldıqda Azərbaycanın növbəti 10 ildə inkişaf etdirilməsi əsas sahələr qeyri-neft sektoru sahələridir. Məhz bu faktor növbəti illərdə qeyri-neft sektorunun inkişafına təkan verərək həm daxili bazarda həm də ixracda mühüm rol oynayacaq. Konsepsiyaya əsasən qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədi ilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi genişləndiriləcək və onlardan istifadənin səmərəliliyini yüksəldiləcəkdir. Qeyri-neft sektorunun inkişafına xidmət edən və müasir tələblərə cavab verən istehsal, sosial və bazar infrastrukturu şəbəkəsi yaradılacaq, təsərrüfatçılığın və xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin yaradılması istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Konsepsiyanın əhatə etdiyi dövrdə ölkədə polad istehsalı, neft-qaz emalı və neft-kimya kompleksləri, gübrə, gəmiqayırma və sement zavodları inşa ediləcəkdir. Alüminium sənayesi inkişaf etdiriləcək, ilkin alüminium istehsalı artırılacaq, özəl sektorun iştirakı

ilə son məhsulun istehsalına qədər texnoloji zəncir qurulacaq, bu sahənin ixrac potensialı genişləndiriləcəkdir.

Sənaye müəssisələrində innovasiya yönümlü texnologiyaların tətbiqi stimullaşdırılacaq, ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərcikləri yaradılacaqdır. İqtisadi rayonlar üzrə sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması qeyri-neft emalı sənayesinin inkişaf etdirilməsi ilə bağlı dövlət investisiya siyasətində əsas istiqamət olacaqdır. Bu baxımdan, hər bir iqtisadi rayonun potensialı nəzərə alınmaqla xüsusi iqtisadi zonalarının yaradılması və sənaye şəhərciklərinin (o cümlədən Sumqayıtda neft-kimya məhsullarının emalı, Balaxanıda məişət tullantılarının emalı və Gəncədə metal məmulatlarının istehsalı üzrə sənaye şəhərcikləri) qurulması mühüm addımlardır.

Qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin (kimya sənayesi, metallurgiya, maşınqayırma, elektronika, yüngül sənaye, yeyinti sənayesi və s.) inkişaf etdirilməsi və ixrac imkanlarının artırılması ilə yanaşı, rəqabətqabiliyyətli yeni istehsal sahələrinin yaradılması da dəstəklənəcəkdir. Ölkənin qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb edilməsinin intensivləşdirilməsi məqsədi ilə stimullaşdırıcı mexanizmlər tətbiq ediləcək, ixrac yönümlü qeyri-neft sektorunun inkişafı məqsədilə dövlət və özəl sektorun investisiya əməkdaşlığı inkişaf etdiriləcəkdir [2,135].

Əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa investisiya qoyuluşu üçün əlverişli şərait yaradılması və əqli mülkiyyətə əsaslanan kreativ iqtisadiyyatın davamlı inkişafı, ölkənin ÜDM-ində onun payının artırılması üçün tədbirlər həyata keçiriləcəkdir.

Konsepsiya çərçivəsində turizm infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq strandartlara cavab verən turizm xidmət sahələrinin dairəsinin genişləndirilməsi, bu sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi və ÜDM-də xüsusi çəkisinin artırılması istiqamətində tədbirlər nəzərdə tutulur. Turizm inkişaf etdirilməsi məqsədi ilə bu sahəyə dair qanunvericilik və standartlar təkmilləşdiriləcək, Xəzər dənizinin turizm potensialından tam şəkildə istifadə edilməsi üçün zəruri tədbirlər görüləcək, bölgələrdə turizm fəaliyyəti stimullaşdırılacaq, informasiya-təbliğat işi gücləndiriləcək, milli, tarixi-mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlər nəzərə alınmaqla turizmin müxtəlif növləri müvafiq turizm marşurutları yaradılmaqla təşviq ediləcəkdir.

Qeyri-neft sənayesinin inkişafı və ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetiriləcək, müasir texnologiyaların tətbiqi yolu ilə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və yeni belə müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçiriləcəkdir. Aqrar sektorun intensiv və səmərəli inkişafının stimullaşdırılması üçün dövlət dəstəyi tədbirləri beynəlxalq təcrübəyə uyğun olaraq davam etdiriləcəkdir. Özəl bankları və kredit təşkilatlarını bu sektora vəsait (kredit) ayırmağa daha da təşviq edən bir mühit yaratmaq üçün əlavə tədbirlər görüləcək, kənd təsərrüfatının sığortalanması mexanizmi təkmilləşdiriləcəkdir.

Nəticədə kənd təsərrüfatında məhsuldarlıq artacaq və kənd əhalisi qabaqcıl beynəlxalq təcrübə ilə daha yaxından tanış olacaqdır [3, 34].

Növbəti illərdə ölkədə torpaq bazarı inkişaf etdiriləcək, fermerlərin könüllülük əsasında birgə təsərrüfatçılıq ənənələrinin formalaşması təşviq olunacaqdır. Meliorasiya və irriqasiya tədbirləri gücləndiriləcək, torpaqların eroziyaya uğramasının, suvarılan əkin sahələrənin şoranlaşmasının qarşısının alınması və münbitliyinin artırılması istiqamətində tədbirlər gücləndiriləcəkdir. Ölkədə ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı stimullaşdırılacaq, genetik ehtiyatların və bioloji müxtəlifliyin qorunması, tingçilik, toxumçuluq və damazlıq işlərinin, mal-qaranın cins tərkibinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçiriləcəkdir. Kənd təsərrüfatı istehsalçılarının müasir texnika, texnoloji avadanlıq, gübrə, toxum və ting ilə təminatı yaxşılaşdırılacaqdır. Aqrar sahədə elmi təminat və kadr hazırlığının daha da yaxşılaşdırılması nəzərdə tutulur. Kənd təsərrüfatının müxtəlif sahələrinin intensiv inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlər görüləcək, iri taxılçılıq təsərrüfatlarının yaradılması təşəbbüsləri dəstəklənəcəkdir. Kənd təsərrüfatının intensiv inkişafı, mövsümi qiymətlərin tənzimlənməsi, məhsul itkisinin qarşısının alınması, daxili bazarın qorunması və ixrac potensialının artırılması baxımından bölgələrdə ən müasir texnologiyalar əsasında anbar komplekslərinin yaradılmasının əhəmiyyətini nəzərə alaraq, bu sahədə ardıcıl tədbirlər davam etdiriləcəkdir. Sahibkarların vərdiş və biliklərinin artırılması üçün informasiya və məsləhət xidmətlərinin əhatə dairəsi genişləndiriləcək, baytarlıq və fitosanitar sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq daha da inkişaf etdiriləcəkdir.

Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatı sistemində iştirakı əsasən xarici ticarət və kapitalın idxalı üzrə baş verir, xarici iqtisadi fəaliyyətin digər mütərəqqi formalarından (elmi-texniki əməkdaşlıq, xarici turizm, SİZ-lərdə əməkdaşlıq, konsessiya sazişləri əsasında əməkdaşlıq və s.) ya zəif istifadə olunur və yaxud da heç istifadə olunmur. Belə ki, neft və neft məhsulları istisna olmaqla, digər məhsullar üzrə xarici ticarətdə mənfi saldo ilbəil artır. Qeyri-neft sektorunda sağlamlaşdırma və yenidənqurma işləri gücləndirilməzsə yaranmış mənfi meylin davam edəcəyi gözlənilir.

Son dövrdə ixracda xammal və aralıq məhsullarının xüsusi çəkisi 80%-i keçmiş, son məhsulların xüsusi çəkisi müvafiq olaraq azalmışdır. İdxalda isə əksinə, son məhsulların, xüsusilə, istehlak mallarının, maşın və avadanlıqların xüsusi çəkisi artmışdır. Qeyd etmək lazımdır ki, xarici ticarət əlaqələrinin coğrafi quruluşunu da qanaətbəxş hesab etmək olmaz. Belə ki, 2014-cü ildə Azərbaycanın 135-ə yaxın dövlət iə ticarət əlaqəsinə girməsinə baxmayaraq, xarici ticarət dövriyyəsinin 75 %-dən çoxu və ixracın 78%-i cəmi 10 dövlətin payına düşür.

Azərbaycanın isə iqtisadiyyatının dünya bazarından asılılığı çox yüksəkdir. Xarici ticarət şərtləri hər il Azərbaycanın xeyrinə dəyişsə də, bunu birmənalı şəkildə müsbət hal kimi qiymətləndirmək olmaz. Belə ki, bu müsbət

dəyişmə əsasən ölkə iqtisadiyyatının idxalyönümlülüyü nəticəsində idxal qiymətləri indeksinin aşağı düşməsi, son illərdə isə neft və neft məhsullarının dünya bazar qiymətlərinin artması ilə əlaqədar olaraq ixrac qiymətləri indeksi kəskin şəkildə artması hesabına olmuşdur.

Yüksək ixracat potensialına sahib olmasına baxmayaraq qeyri-neft sektoru ölkə iqtisadiyyatında cəmi 5%-lik paya sahibdir və bu sahənin real imkanlarına qətiyyən adekvat deyil. Heç bir qeyri-nef sektoru sahəsinin ixracatındakı xüsusi çəkisi 1%-ə çatmır, halbuki vaxtilə kimya, maşınqayırma, toxuculuq və aqrar sahənin əhəmiyyətli çəkisi olmuşdur. Bu səbəbdəndir ki, xarici ticarət dövriyyəsi qlobal böhran və ona müvafiq olaraq neftin qiymətinin aşağı düşməsi səbəbindən azalmışdır. Ölkə ixracatında əsas yeri mineral məhsulların ixracı ümumi ixracatın 97,1%-ni təşkil edir. Azərbaycan Respublikasının mineral məhsul siyahısında isə əsas yeri neft və neft məhsulları tutmaqdadır. Bununla ixracatda qeyri-neft sektoru 3%-dən az paya sahibdir.

Ümumi olaraq son il ərzində qeyri-neft sektorun ixracatına stimullaşdırılması istiqamətində iqtisadi islahatlar davam etdirilmişdir. Bu sahəyə kreditlərin həcmi illər keçdikcə artmaqdadır. Qeyri-neft sektorunda özəl müəssisələrin fəaliyyətinə dəstəyin verilməsi zəifdir. Bunun üçün özəl sektorun inkişafını təşviq edən və rəqabət mühitini təkmilləşdirən institutlara diqqət artırılması zəruridir.

Ölkədə idxaldan asılılığın maksimum dərəcədə azaldılması, gündəlik tələbat malları ilə özünü təmin etmək üçün qeyri-neft sənayesində rəqabətə davamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi lazımdır.

Azərbaycan üzrə 2011-2014-cü maliyyə illərini əhatə edən Ölkə Tərəfdaşlıq Strategiyası (ÖTS) son 5 il ərzində ölkədə gəlirlərin sürətli artımı və yoxsulluğun azalmasının, eyni zamanda qlobal iqtisadi böhranın fonunda hazırlanmışdır. Burda əsasən iki strateji məqsəd qeyd olunmuşdur. Bunlardan biri məhz rəqabətli qeyri-neft iqtisadiyyatının qurulması nəzərdə tutulur. Burada hökumətin əsasən hədəfləri qeyd olunmuşdur. Bunlar aşağıdakılardır:

Səmərəli makroiqtisadi idarəetmə və ticarət siyasətləri və qurumlarının təkmilləşdirilməsi

Azərbaycanın regional nəqliyyat dəhlizi qismində rolunun gücləndirilməsi və Azərbaycan daxilində nəqliyyat əlaqələrinin təkmilləşdirilməsi (tranzit nəqliyyatının artması ilə ölçülməli)

Qeyri-neft sektorunun daha yüksək templə artması məqsədilə işgüzar mühitin yaxşılaşdırılması (kiçik və orta müəssisələrin, qeyri-neft ixracının artımının səviyyəsi ilə ölçülməli)

Daha səmərəli və məhsuldar kənd sektorunun qurulması (kənd təsərrüfatı ixracının, təsərrüfatların gəlirlərinin artması ilə ölçüləcək)

Bu hədəflərin həyata keçirilməsində əsas maneələr isə aşağıdakı kimi qeyd olunmuşdur:

Makroiqtisadi idarəetmə, neft gəlirlərini nəzərə almaqla, xərclərin, mübadilə məzənnəsinin və inflyasiyanın ehtiyatlı tarazlaşdırılmasını tələb edir.

Ticarət siyasətləri və təşkilatlar hal-hazırda tətbiq olunan "nəzarət-yönümlü" yanaşmanın yüngülləşdirməlidir.

Nəqliyyat: Yollar təkmilləşdirilməli və genişləndirilməlidir. Dəniz limani və Dəmir yolları modernləşdirilməli, intermodal və birgə fəaliyyət göstərməlidir.

İşgüzar mühit bir neçə sahədə (vergiqoyma, gömrük, lisenziyalaşdırma və.s) təkmilləşdirilməlidir.

Maliyyə sistemi dayaz olaraq qalır. Ən böyük bank dövlət mülkiyyətindədir və kiçik və orta müəssisələrin kredit əldə etmək imkanları məhduddur.

Kənd təsərrüfatı- kənd təsərrüfatında məhsuldarlığın artırılması, ərzaq məhsullarının sertifikatlaşdırıması və emalı, suvarma çərçivəsinin təkmilləşdirilməsi, bitkilərin və mal-qaranın xəstələnməsi riskinin azalmasına ehtiyac.

İqtisadiyyatın neft-qaz gəlirlərindən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafı və ixracın stimullaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirən respublikamızda xarici ticatət dövriyyəsinin strukturunda müsbət keyfiyyət dəyişikliklərinə nail olunur. 2014-cu ilin birinci yarısında respublikanın xarci mövqeyinin əlverişliyi qorunub, xüsusi ilə qeyri-neft sektoru üzrə məhsul və xidmətlərə yüksək tələbin mövcudluğu şəraitində xarici ticarət balansında irihəcmli profisit yaranıb [5, 44].

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2014-cü ildə respublikanın dövlət və qeyri-dövlət təşkilatları, eləcə də fiziki şəxslər tərəfindən 135 xarici dövlətlə ticarət əməliyyatları aparılıb. Bu dövrdə xarici ticarət dövriyyəsi 22 milyard 167,6 milyon ABŞ dolları təşkil edib və bunun da 4 milyard 460 milyon dolları idxalın, 17 milyard 707,6 milyon dolları ixracın payına düşür. Xarici ticarətdə, ümumilikdə 13 milyard 247,6 milyon dollarlıq müsbət saldo yaranıb.

Qeyd olunan müddətdə xarici iqtisadi fəaliyyət iştirakçılarının sayını artıraraq 6246-ya yüksəlib. Xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən MDB üzvü olan ölkələrə 537 milyon 354 min manatlıq, Avropa İttifaqı ölkələrinə 5 milyard 965 milyon 979 min manatlıq, digər ölkələrə isə 6 milyard 208 milyon 172 min manatlıq mal və məhsullar ixrac olunub. Xarici ticarət əməliyyatlarının 4/5 hissəsindən çoxu (84,9%) İtaliya, İsrail, Fransa, İndoneziya, Rusiya Federasiyası, Türkiyə, Amerika Birləşmiş Ştatları, Almaliya, Hindistan, Çin, Bolqarıstan, Böyük Britaniya, Gürcüstan, Yunanıstan, Ukrayna, Sinqapur, Tailand və Çexiya ilə aparılıb.

Azərbaycandan ixracın əsas hissəsi, təbii olaraq, neft və neft məhsullarının payına düşsə də (86,50%), xarici bazarlarda rəqabətədavamlı məhsullar istehsal edən sahibkarlıq subyektlərinin sayının tədricən artımı qeyri-neft sektoru üzrə ixrac potensialının möhkəmlənməsinə imkan yaradıb. Sahibkarların xarici bazara çıxış imkanlarının genişlənməsi həm də qanunvericiliyin təkmilləşdirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi ilə izah olunur. Ölkə başçısının 11 noyabr 2008-ci il tarixli "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitə-

lərinin yoxlanılmadan "bir pəncərə" prinsipinin tətbiqi haqqında" fərmanı əlverişli geostrateji məkanda yerləşən Azərbaycanda gömrük sisteminin təkmilləşdirilməsinə, bu sahədə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadəyə imkan yaradıb. Ümumilikdə, sözügedən fərman dövlət sərhədinin keçid məntəqlərinin buraxılış qabiliuyyətinin artırılmasına, keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılması zamanı süni maneələrin aradan qaldırılması, idxal-ixrac əməliyyatlarının müasir tələblərə uyğun aparılmasına, bu sahədə "bir pəncərə" prinsipinin tətbiqinə xidmət edir.

Ölkənin xarici ticarətində qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən əhəmiyyətli işlər də görülmüşdür. Bu işlərdən biri də Xüsusi İqtisadi Zonaların yaradılması ilə bağlı tədbirlərdir. "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının Qanunu 2009-cu il 14 aprel tarixindən qüvvəyə minmişdir. Bu qanunun tətbiqi ilə bağlı imzalanmış fərmanda ölkədə xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti ilə əlaqədar dövlət siyasətinin Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən həyata keçirilməsi müəyyən edilmişdir. Fərmanda verilmiş tapşırıqların icrası ilə bağlı hazırda xüsusi iqtisadi zonaların fəaliyyətini tənzimləyəcək qanunvericilik bazasının yaradılması üzərində tamamlama işləri görülür. Bundan əlavə, xüsusi iqtisadi zonaların yaradılmasına və yerləşəcək ərazilərə dair təkliflər hazırlanmışdır.

Xarici ticarətdə qeyri-neft sektorunu inkişaf üçün ÜTT-ə üzvlük xüsusi üstünlüklər yaradır. Belə ki, ölkə ixrac etdiyi mal və xidmətlər dünyada 150-dən artıq ölkənin bazarlarına etibarlı və heç bir ayrı-seçkiliklə üzləşmədən daxilolma imkanı əldə edəcək, iqtisadiyyatın qeyri-neft sektorunu inkişaf etdirmək məqsədi ilə dünya bazarında rəqabətədavamlı məhsulların inkişafı üçün əlverişli mühit yaradılacaqdır, ölkəyə investisiyaların cəlbi, ticarət dövriyyəsinin artması, iş yerlərinin açılması hesabına maliyyə aktivlərinin artırılmasına nail olunacaq, Azərbaycan tərafdaşları arasında yarana biləcək hər hansı bir hadisənin, ticarət münaqişələrinin həlli yollarının ədalətli mexanizmlər vasitəsilə həlli imkanı qazanacaq, ən əsası isə ölkənin istər qanunvericilik, istərsə də institusional əsaslarının müasirləşdirilməsi və sabitləşdirilməsi sahəsində islahatlar sürətlənəcəkdir.

Nazirlər Kabinetinin 2011-ci il 8 fevral tarixli qərarı ilə təsdiq olunmuş "2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı" da ixracın stimullaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Tədbirlər Planında müəssisələrdə istehsal prosesinin qabaqcıl texnologiyaları əsasında təşkili üçün sahibkarlıq subyektlərinin dəstəklənməsi ilə yanaşı, ixrac prosesdurlarının sadələşdirilməsi, ixracməqsədli məhsulların istehsalının kreditləşdirilməsi, ixrac üçün prespektivli sayılan ölkələrdə müvafiq sərgilərin, forumların təşkili, potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılması və digər tədbirlər əksini tapıb.

Yekunda onu qeyd etmək yerinə düşər ki, qeyri-neft sektoru Azərbaycan iqtisadiyyatı üçün gələcək illərdə neftdən asılılığı azaltmaq üçün çıxış yoludur. Qeyri-neft sektorunun inkişaf etdirilməsi hesabına yüksək keyfiyyətli istehlak

mallarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi, idxalın səmərəli şəkildə əvəzlənməsində əhəmiyyətli rola malikdir. Bazar iqtisadiyyatının tələbləri və qanunauyğunluqları göstərir ki, bu və ya digər məhsul, istər daxili, istərsə də xarici bazarda o zaman müvəffəqiyyətlə reallaşdırıla bilər ki, onların keyfiyyəti yüksək olsun və satış qiymətləri istehlakçılar üçün yetərli səviyyəyə malik olsun. Məhz belə bir şəraitdə həmin məhsulların reallaşdırılması təmin edilə bilər. Məhsulun reallaşdırılması müasir bazar iqtisadiyyatının ən mühüm problemlərindən biridir.

## ƏDƏBİYYAT


1. Ramiz Mehdiyev. "Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan İqtisadiyyatının şaxələnməsi və sosial rifah sahələrində mühüm nailiyyətlər əldə edilib" 03.12.2012 www.milli.az
2. Abbasov A.F., Məmmədov İ.N. Neft sektorunun inkişaf istiqamətləri. Monoqrafiya. Bakı: Apostrof, 2012, 524 s.
3. Vəliyev D.Ə. Neft sektorunun inkişafı-qloballaşma şəraitində Azərbaycan iqtisadiyyatının tərəqqi yoludur. İpək yolu jurnalı, 2004. №1.
4. Azərbaycan 2020: Gələcəyə baxış "İnkişaf Konsepsiyası"nın 3 əsas istiqaməti. 27.01.2012. www.ensonxeber.com/news
5. Azərbaycan 2011-2014-cü maliyyə illəri üçün ölkə tərəfdaşlıq strategiyası. 2009, GSS.
6. Iqtisadiyyatın gələcək inkişaf sektoru: qeyri-neft sənayesi http://www.vergilər.az


## АЗЕРБАЙДЖАН 2020: КОНЦЕПЦИЯ РАЗВИТИЯ ВЗГЛЯД В БУДУЩЕЕ И НЕНЕФТЯНОЙ СЕКТОР


**Г.Г.АСЛАНОВ**



**РЕЗЮМЕ**

Происходящий глобальный экономический кризис в итоге оказывает существенное влияние на национальную экономику каждой страны. В целях нейтрализации последствий глобального экономического кризиса необходимо обратить особое внимание на развитие ненефтяного сектора. В интересах обеспечения экономической безопасности страны, сохранения исторических достижений и дальнейшее развитие в соответствии региональной и глобальной политикой осуществлены мероприятия по экономическому развитию. Укрепление позиции страны в мировом масштабе требует подготовки концепции перспективного развития. С учетом этих требований в республике разработана концепция Азербайджан 2020: взгляд в будущее. Это позволило осуществить развитие ненефтяного сектора как составной части экономической политики. В статье эти и ряд других проблем всесторонне изучены и даны научно обоснованные рекомендации.



**Ключевые слова:** отрасли ненефтяного сектора, конкурентоспособность, внешняя торговля, экспорт, импорт, диверсификация.

**AZERBAIJAN 2020: THE DEVELOPMENT CONCEPTION OF VIEW TO FUTURE AND NON-OIL SECTOR**

**H.H.ASLANOV**

**SUMMARY**

Global economic crisis has essential influence on the national economy of every country. It has become an objective necessity to develop non-oil sector in order to intensively neutralize the destructive consequences of the global economic crisis. Strengthening the position of the country on the global scale requires drafting the conception of the perspective development. In this regard the conception of "Azerbaijan 2020 – a glance at the future" has been worked out. This allowed to realize the development of non-oil sector as a main part of the economic policy. The paper studies these problems and proposes scientific recommendations.

**Key words:** non-oil industry, competetiveness, foreign trade, export, import, diversification

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 *Sosial-siyasi elmlər seriyası* 2016

**UOT 330.101:330.837:330.8**

# "DE MİNİMUS" REJİMİ BEYNƏLXALQ TİCARƏT PROSEDURALARININ SADƏLƏŞDİRİLMƏSİ GÖSTƏRİCİSİ KİMİ

**M.Y.YADULLA**
***Bakı Dövlət Universiteti***
***narqiz@mail.ru***

*Məqalədə AR-nın xarici ticarət fəaliyyətini tənzimləyən və 2003-cü ildən üzvü olduğumuz Kyota Konvensiyasının "de minimus" rejimi üzrə bəzi müddəaları şərh olunmuşdur. "De minimus" rejimi, habelə ÜGT-nın qısa müddətdə buraxılış üzrə rəhbərliyinin müəyyən etdiyi və respublikamızın bu sahədə üzərinə götürdüyü öhdəliklərin əsas məqamları nəzərdən keçirilmişdir.*

**Açar sözlər:** Yenidən baxılan Kyota konvensiyası, "de minimus" rejimi, yük bəyannamələri, sadələşdirilmiş bəyannamələr

BTP-nın gömrük işi üzrə Tövsiyələri "de minimus" rejimini malların dəyərinin, o cümlədən sənəd və ticarət nümunələrinin dəyərinin həddi kimi müəyyən edir ki, bundan da aşağı gömrük rüsum və vergiləri tutulmur, belə malların rəsmiləşdirilmə prosedurları isə, məlumatlara tələblər də daxil olmaqla minimuma endirilir. Məqalədə "de minimus" rejiminin aparılmasının əsas aspektləri üzrə praktiki tövsiyyələr verilmiş, belə rejimin maliyyə və iqtisadi təsiri üzrə son tədqiqatlar göstərilmişdir.

Yük bəyannamələrinin hazırlanması, təqdim olunması, işlənməsi, saxlanılması və mallara olan bəyannamələr (kağız və elektron formada) həm təsərrüfat subyektləri, həm də gömrük orqanı üçün kifayət qədər məsrəfli proseslərdir. Vergi tutulan, yüksək dəyərə malik olan yüklərin və aşağı dəyərə malik olan yüklərin və gömrük rüsum və vergilərinə məruz qalmayan yüklərin işlənməsi üzrə məsrəflər eynidir. Malların dəyəri və gömrük rüsum və vergilərinin dəyərinin belə yükün (kiçik partiyalar) işlənmə dəyərindən aşağı olduğu hallarda dövlət belə yüklərə münasibətdə rüsum və vergi formasında qazandığından daha çox inzibati proseduralara vəsait sərf edir. Amma əksər hallarda dövlət strukturları göstərdikləri xidmətləri bir növ zərurət kimi qəbul edir və öz işlərinin səmərəliliyinin və nəticəsinin artırılması məqsədilə müntəzəm olaraq təhlil aparmırlar.

Reallaşdırılma metodikası

1999-cu ildə Yenidən baxılan Kyoto Konvensiyasının qəbul edilməsi zamanı (YKK) kiçik yüklərin kəmiyyətinin artırılma meyli təqdir edilmiş və əhəmiyyətsiz dəyər haqqında müddəa konvensiyaya daxil edilmişdir. YKK-nın 4.13 keçid standartına müvafiq olaraq, gömrük orqanları rüsum və vergilərin tutula biləcəyi minimal ölçünü və ya yükün minimal dəyərini göstərməlidir.

Deməli, gömrük rüsumunun tutulmadığı malların sənədlərinə də tələblər minimal olmalıdır. "De minimus" rejimini işlədən gömrük orqanları həmçinin, təcrübədə ÜGT-nın qısa müddətdə buraxılış üzrə Rəhbərliyini də tətbiq etmişlər ki, bu da birləşdirilmiş bəyannamə əsasında yükün qısa müddətdə buraxılışını nəzərdə tutur, bu isə, manifest, nəqliyyat qaiməsi, yük bəyannaməsi ola bilər və ya yuxarıda sadalanan sənədlərin kombinasiyasını təcəssüm edə bilər.

***Ticarət proseduralarının sadələşdirilməsi üzrə praktiki rəhbərlik***

*Gömrükdən yüklərin buraxılması gömrük rəsmiləşdirilməsinin mühüm mərhələsidir, belə ki, o, idxalatçı/ixracatçı və ya onun səlahiyyətli nümayəndəsinə münasibətdə, dövlətlərarası ticarətin tənzimlənməsinə cavab verən dövlət orqanları (əsasən, gömrük xidmətinin rəhbərliyi altında) tərəfindən qərarların qəbul edilməsini nəzərdə tutur ki, bu da, yükü gömrük nəzarət zonasından (bir qayda olaraq, sərhəddə yerləşən gömrük orqanında, limandan və ya ayeroportdan) çıxartmağa və həmin yükün təyinat məntəqəsinə daşınmasının davam etdirilməsinə sərəncam verir. Yükün buraxılması onun gömrük rəsmiləşdirilməsindən ayrı baş verməlidir, yəni bütün zəruri rüsum və vergilərin qiymətləndirilməsi və ödənilməsi yükün buraxılışından sonra baş verməlidir, amma bu zaman adətən müəyyən girov qoyulur.*

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli 263 № li qərarı ilə "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları" təsdiq edilmişdir. Bu Qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 146.3-cü maddəsinə əsasən hazırlanmışdır və gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi qaydalarını müəyyən edir. Bu qaydalara əsasən, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən, gömrük nəzarəti altında yerləşdirilən mallar və nəqliyyat vasitələri barədə məlumatlar gömrük orqanına şifahi, kağız üzərində yazılı və ya elektron formalarda bəyan edilir. Gömrük sərhədindən malları və nəqliyyat vasitələrini keçirən, yaxud icrasına nəzarət gömrük orqanlarına həvalə olunmuş fəaliyyəti həyata keçirən şəxslər tərəfindən gömrük məqsədləri üçün aşağıdakı sənəd və məlumatlar həmin orqanlara kağız üzərində yazılı və ya elektron formalarda təqdim edilməlidir: 1. Gömrük ərazisinə gətirilmiş mallar üzrə gömrük bəyannaməsi təqdim olunanadək, risklərin təhlili və gömrük nəzarətinin düzgün tətbiqi üçün zəruri olan məlumatlar; 2. Gömrük ərazisindən malların aparılmasına görə gömrük bəyannaməsi və ya təkrar ixrac bildirişinin tələb olunmadığı hallarda risklərin təhlili və gömrük nəzarətinin düzgün tətbiqi üçün zəruri olan məlumatlar; 3. Gömrük ərazisinə daxil olması nəzərdə tutulan nəqliyyat vasitəsinə görə məsul şəxs tərəfindən

nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması haqqında məlumat; 4. gömrük ərazisinə daxil olması nəzərdə tutulan nəqliyyat vasitəsinə görə məsul şəxs tərəfindən nəqliyyat vasitəsinin müəyyən olunmuş gömrük sahəsindən fərqli sahəyə daxil olması haqqında məlumat; 5.gömrük ərazisindən yola düşməsi nəzərdə tutulan nəqliyyat vasitəsinə görə məsul şəxs tərəfindən nəqliyyat vasitəsinin gömrük ərazisindən yola düşməsi haqqında məlumat; 6. xüsusi gömrük proseduruna icazə sahibi tərəfindən icazənin verilməsindən sonra onun davam etdirilməsinə və ya məzmununa təsir edə biləcək bütün amillər barədə məlumat.

Gömrük bəyannaməsi malların bəyan edildiyi gömrük prosedurunun tətbiqi üçün lazım olan bütün məlumatları özündə əks etdirməlidir. Elektron formada təqdim edilən gömrük bəyannaməsində elektron imza və ya bəyannaməçinin eyniləşdirilməsinə imkan verən digər vasitələr olmalıdır. Kağız üzərində yazılı formada təqdim olunan gömrük bəyannaməsi bəyannaməçi tərəfindən imzalanmalı, hüquqi şəxs olan bəyannaməçi tərəfindən isə həmçinin möhürlə təsdiq edilməlidir. Malların bəyan edildiyi gömrük prosedurunun tətbiqi üçün tələb olunan kağız üzərində yazılı və ya elektron formalarda sənədlər gömrük orqanlarına gömrük bəyannaməsinin təqdim edildiyi vaxt verilməlidir. Malların bəyan edildiyi gömrük proseduru altında yerləşdirilməsi üçün kağız üzərində yazılı və ya elektron formalarda gömrük bəyannaməsi ilə birgə aşağıdakı sənədlər gömrük orqanına təqdim edilməlidir: 1. xarici ticarətin həyata keçirilməsini təsdiq edən müqavilə və ya şəxsin mallar barədə sahiblik, istifadə və (və ya) sərəncamvermə hüquqlarını təsdiq edən sənəd, yaxud istənilən digər sənəd; 2.malların və nəqliyyat vasitələrinin daşınması zamanı nəqliyyat növündən asılı olaraq nəqliyyat sənədləri; 3. gömrük sərhədindən keçirilən malların kateqoriyası, malları keçirən şəxs, ixrac ölkəsi və ya malların yerləşdirildiyi gömrük proseduru nəzərə alınaraq, aşağıda sadalanan sənədlərin də təqdim edilməsi tələb olunur: 1.gömrük təmsilçiliyi birbaşa, yaxud dolayı yolla həyata keçirildikdə, şəxsdən ona müvafiq səlahiyyətin verilməsini təsdiq edən sənəd; 2. gömrük ödənişlərinin ödənilməsi nəzərdə tutulduqda, onun ödənilməsini və ya gömrük borcuna görə təminatın verilməsini təsdiq edən sənəd; 3. idxal olunan malların bəyan edilmiş gömrük dəyərini təsdiq edən sənəd; 4. etil (yeyinti) spirtinin və alkoqollu içkilərin, tütün məmulatlarının idxalı və ya prekursorların idxalı, tranziti və ixracı zamanı xüsusi razılıq sənədi (lisenziya); 5. gömrük ərazisində məcburi sertifikatlaşdırılmalı olan mallar gömrük ərazisinə idxal edildikdə, uyğunluq sertifikatı; 6. dövlət baytarlıq nəzarətində olan mallar gömrük ərazisinə idxal edildikdə, baytarlıq sertifikatı; 2.6.7. yeyinti məhsulları gömrük ərazisinə idxal edildikdə, gigiyena sertifikatı; 2.6.8. bitki və bitkiçilik məhsulları gömrük ərazisinə idxal edildikdə, idxal karantin icazəsi, ixrac edildikdə isə fitosanitar sertifikatı; 2.6.9. yeyinti məhsulları Avropa İttifaqı ölkələrinə ixrac edildikdə, keyfiyyət sertifikatı; 2.6.10. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlən-

məsi Qaydaları”na 1 və 2 nömrəli əlavələrdə göstərilən mallar gömrük ərazisinə gətirildikdə və ya gömrük ərazisindən aparıldıqda, müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı və ya müvafiq dövlət orqanlarının rəyləri; 2.6.11. gömrük ərazisinə gətirilməsinə və bu ərazidən aparılmasına Gömrük Məcəlləsinin 215-ci maddəsi, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında” Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə məhdudiyyət qoyulmuş mallar gömrük sərhədindən keçirildikdə, müvafiq icazə sənədləri; 2.6.12. ixrac nəzarətinə düşən malların ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı və tranziti zamanı xüsusi icazə sənədi; 2.6.13. malların gömrük bəyannaməsində göstərilən mənşəyini təsdiq edən sənəd. 2.7. Aidiyyəti dövlət orqanları tərəfindən verilmiş və gömrük orqanlarına təqdim edilmiş bu Qaydaların 2.6-cı bəndində qeyd edilən sənədlərin qüvvədə olma müddətində şəxs tərəfindən onların yenidən gömrük orqanlarına təqdim edilməsi tələb olunmur. 2.8. Ayrı-ayrı sənədlərin üzrlü səbəblərə görə gömrük bəyannaməsi ilə birlikdə təqdim edilməsi mümkün olmadığı hallarda, bəyannaməçinin yazılı müraciəti əsasında gömrük orqanları həmin sənədlərin gömrük bəyannaməsi təsdiq edildikdən sonra təqdim olunmasına icazə verirlər. Gömrük Məcəlləsində ayrı-ayrı sənədlərin təqdim edilməsi üçün daha qısa müddət müəyyən edilməmişdirsə, həmin sənədlər gömrük bəyannaməsi təsdiq edildiyi tarixdən 45 (qırx beş) gündən gec olmayaraq, gömrük orqanına təqdim olunmalıdır. Bəyannaməçi sənədlərin vaxtında verilməsinə dair gömrük orqanına yazılı formada öhdəlik təqdim edir. 3. Malların şifahi, kağız üzərində yazılı və ya elektron formalarda bəyan edilməsi 3.1.Bəyanetmə malların və nəqliyyat vasitələrinin yerləşdirilməsi nəzərdə tutulan gömrük proseduru haqqında, habelə gömrük məqsədləri üçün lazım olan digər məlumatların şifahi, kağız üzərində yazılı və ya elektron formalarda gömrük orqanlarına verilməsi ilə həyata keçirilir. 3.2. Fiziki şəxslərin gömrük sərhədindən keçirilən malların bəyan edilməsinin sadələşdirilmiş qaydasından istifadə etməsi üçün gömrük sərhəd buraxılış məntəqələrində ikikanallı – “Yaşıl kanal” və “Qırmızı kanal” buraxılış sistemləri tətbiq olunur. 3.3. Müşayiət olunmayan baqajda keçirilən və poçt göndərişlərində göndərilən mallar istisna olmaqla, “Yaşıl kanal” buraxılış sistemi fiziki şəxslər tərəfindən malların şifahi formada bəyan edilməsi üçün nəzərdə tutulur. 3.4. “Yaşıl kanal” buraxılış sistemi vasitəsilə mallar güzəştli qaydada, yəni malların gömrük rəsmiləşdirilməsi zamanı Gömrük Məcəlləsində nəzərdə tutulmuş gömrük prosedurlarından azad olunmaqla, gömrük ödənişləri alınmadan və ticarət siyasəti tədbirləri tətbiq edilmədən keçirilir. Fiziki şəxsin mallarını “Yaşıl kanal” buraxılış sistemindən istifadə etməklə gömrük sərhədindən keçirməsi onun əl yükündə və müşayiət olunan baqajında yazılı formada bəyan edilməli malların olmaması və bu malların gömrük orqanlarına şifahi bəyan edilməsi kimi qəbul edilir. 3.5. Gömrük bəyannaməsi

kağız üzərində yazılı və ya elektron formalarda gömrük orqanlarına təqdim edilə bilər. Malların bəyan edildiyi gömrük proseduru altında yerləşdirilməsi üçün tələb olunan müvafiq sənədlər də həmin qaydada təqdim edilə bilər. 3.6. Gömrük ərazisinə gətirilən mallara dair gömrük bəyannaməsi həmin mallar gömrük ərazisinə gətirilən yerdəki gömrük orqanına, daxili tranzit xüsusi gömrük proseduru həyata keçirildikdə isə təyinat gömrük orqanına təqdim edildiyi tarixdən 15 (on beş) gündən gec olmayaraq verilməlidir. 3.7. Bu Qaydaların 3.6-cı bəndində göstərilən müddət bəyannaməçi tərəfindən müvafiq sənədlərin və məlumatların toplanılması üçün kifayət etmədikdə, onun əsaslandırılmış müraciəti əsasında gömrük orqanı həmin müddəti uzadır. Gömrük bəyannaməsinin təqdim edilməsi müddətinin uzadılmasına malların müvəqqəti saxlancına xüsusi gömrük proseduru altında qalma müddəti çərçivəsində yol verilir. 3.8. Gömrük bəyannaməsinin təqdim edilməsinin son günü qeyri-iş gününə təsadüf edərsə, növbəti iş günü müddətin bitdiyi gün hesab edilir. 3.9. Gömrük ərazisindən aparılan mallara dair gömrük bəyannaməsi həmin mallar gömrük ərazisindən çıxarılarkən verilməlidir. 3.10. Malları daşıyan nəqliyyat vasitələri bu Qaydaların 3.11-ci bəndində göstərilən hal istisna edilməklə, mallarla eyni vaxtda bəyan edilir. 3.11. Dəniz, çay və hava gəmiləri gömrük ərazisinə daxil olduqları və ya bu ərazidən yola düşdükləri su və hava limanlarında bəyan edilir. 3.12. Yüksüz və sərnişinsiz nəqliyyat vasitələri gömrük sərhədindən keçərkən bəyan edilir. 3.13. Gömrük bəyannaməsinin, qısa idxal (ixrac) bəyannaməsinin və təkrar ixrac bildirişinin formaları bu Qaydaların 1, 2, 3 və 4 nömrəli əlavələri ilə müəyyən edilir. 4. Əlavə bəyannamələrin təqdim edilməsi 4.1. Səlahiyyətli iqtisadi operatorlar malları müvafiq gömrük proseduru altında yerləşdirərkən və Gömrük Məcəlləsinin 112.1-ci maddəsində nəzərdə tutulan yardım yüklərinin gömrük rəsmiləşdirilməsi zamanı sadələşdirilmiş bəyannamə verilərkən, bəyannaməçi aidiyyəti gömrük proseduru üzrə gömrük bəyannaməsinin tamamlanması üçün bu Qaydaların 5 nömrəli əlavəsində göstərilmiş formada əlavə bəyannamə təqdim etməlidir. 4.2. Əlavə bəyannamə bəyannaməçi tərəfindən bu Qaydaların 2.5-ci və 2.6-cı bəndlərində qeyd olunan sənədlərlə birgə gömrük rəsmiləşdirilməsi zamanı sadələşdirilmiş bəyannamənin verildiyi gömrük orqanına onun verildiyi tarixdən 30 (otuz) gündən gec olmayaraq təqdim edilməlidir. 5. Dövri bəyannamələrin təqdim edilməsi 5.1. Gömrük orqanları eyni malları və nəqliyyat vasitələrini gömrük sərhədindən müntəzəm olaraq keçirən şəxsə onları 30 (otuz) gün müddətinə bu Qaydaların 6 nömrəli əlavəsində göstərilmiş formada bir dövri bəyannamə əsasında keçirməsinə icazə verirlər. 5.2. Gömrük orqanları tərəfindən icazə şəxslər aşağıdakı şərtlərə əməl etdikdə verilir: 5.2.1. xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun olaraq eyni koda malik malların eyni şəxs tərəfindən eyni gömrük orqanında gömrük rəsmiləşdirilməsindən keçirilməklə gömrük ərazisinə gətirilməsi və ya gömrük ərazisindən aparılması nəzərdə tutulduqda; 5.2.2. bir müqavilə əsasında malların gömrük sərhədindən 3 (üç) və ya daha çox partiyalarla 30 (otuz) gün müddətində keçirilməsi nəzərdə tutul-

duqda; 5.2.3. gömrük borcu mallar müvafiq gömrük orqanına təqdim olunduğu tarixdən 15 (on beş) gündən gec olmayaraq ödənildikdə. 5.3. Eyni malları və nəqliyyat vasitələrini gömrük sərhədindən müntəzəm olaraq partiyalarla keçirən şəxs onların bir dövri bəyannamə əsasında gömrük sərhədindən keçirilməsinə icazə almaq üçün gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanına müraciət edir. 5.4. İcazə onun alınması üçün bu Qaydaların 5.2-ci bəndi ilə müəyyən edilmiş tələblərin yerinə yetirilməsindən dərhal sonra müvafiq qeydiyyat aparılmaqla verilməlidir. 5.5. Bu Qaydaların 5.2-ci bəndində göstərilən tələblərin yerinə yetirilməməsinə əsas olduqda, icazənin verilməsindən imtina edilir və bu barədə şəxsə dərhal əsaslandırılmış səbəb göstərilməklə, kağız üzərində yazılı və ya elektron formalarda məlumat verilir. 5.6. Malları və nəqliyyat vasitələrini bir dövri bəyannamə əsasında gömrük sərhədindən müntəzəm olaraq keçirmək üçün icazə almış şəxs bu Qaydaların 2.5-ci və 2.6-cı bəndlərində göstərilən sənədləri dövri bəyannamə ilə birgə icazənin alındığı gömrük orqanına təqdim etməlidir. 5.7. Malların dövri bəyannamə əsasında gömrük rəsmiləşdirilməsi dövri bəyannamənin təsdiq edildiyi gün qüvvədə olan gömrük qanunvericiliyinə uyğun olaraq aparılır. 6. Natamam bəyannamələrin təqdim edilməsi 6.1.Bəyannaməçi gömrük bəyannaməsini bu Qaydaların 6.3-cü bəndində göstərilən səbəblərə görə tam şəkildə doldura bilmədikdə, gömrük orqanları bu Qaydaların 7 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada natamam bəyannamənin verilməsinə icazə verirlər. 6.2. Gömrük orqanları tərəfindən icazə şəxslər aşağıdakı şərtlərə əməl etdikdə verilir: 6.2.1. gömrük nəzarətinin həyata keçirilməsi üçün zəruri imkanlar yaradıldıqda; 6.2.2. gömrük borcunun ödənilməsinə Gömrük Məcəlləsi ilə müəyyən edilmiş qaydada təminat verildikdə. 6.3. Gömrük bəyannaməsinin təqdim edilməsi aşağıdakı səbəblərə görə mümkün olmadıqda, natamam bəyannamə təqdim edilir: 6.3.1. gömrük orqanlarına faktiki təqdim edilməli olan mal partiyası gömrük bəyannaməsi verildiyi vaxt olmadıqda; 6.3.2. gömrük bəyannaməsi verildiyi vaxt malın miqdarını, keyfiyyətini və dəyərini müəyyənləşdirmək mümkün olmadıqda. 6.4. Bəyannaməçi malların natamam bəyannamə əsasında gömrük sərhədindən keçirilməsinə icazə almaq üçün gömrük orqanına müraciət edir. 6.5. İcazə onun alınması üçün bu Qaydaların 6.2-ci bəndində göstərilmiş tələblərin yerinə yetirilməsindən dərhal sonra verilməlidir və natamam bəyannamə rəsmiləşdirildikdən sonra 30 (otuz) gün müddətində həmin mallara dair gömrük bəyannaməsi gömrük orqanına təqdim edilməlidir. 6.6. Bu Qaydaların 6.2-ci bəndində göstərilən tələblərin yerinə yetirilməməsinə əsas olduqda, icazənin verilməsindən dərhal imtina edilir və bu barədə şəxsə əsaslandırılmış səbəb göstərilməklə, kağız üzərində yazılı və ya elektron formalarda məlumat verilir. 7. Malların və nəqliyyat vasitələrinin səlahiyyətli iqtisadi operatorlar tərəfindən bəyan edilməsinin sadələşdirilmiş qaydaları 7.1. Səlahiyyətli iqtisadi operatorlar malları müvafiq gömrük proseduru altında yerləşdirərkən, gömrük orqanlarına bu Qaydaların 8 nömrəli əlavəsində göstərilmiş formada sadələşdirilmiş bəyannamələr təqdim edirlər. 7.2. Sadələşdirilmiş bəyannamələr gömrük

orqanlarının səlahiyyətli iqtisadi operatorların elektron məlumat sistemindən məlumatlar əldə edə bilmələri və onların digər gömrük orqanları ilə mübadilə edilməsi üçün lazım olan tələblərə cavab verməsi şərtilə, səlahiyyətli iqtisadi operatorların mallar və nəqliyyat vasitələri barədə hesabatı formasında ola bilər. 7.3. Səlahiyyətli iqtisadi operatorlar tərəfindən gömrük ərazisinə gətirilən və ya bu ərazidən aparılan zaman mallara dair sadələşdirilmiş bəyannamə həmin malların gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanına dərhal verilir. 8. Yardım yüklərinin bəyan edilməsinin sadələşdirilmiş qaydaları 8.1. Gömrük Məcəlləsinin 112.1-ci maddəsində nəzərdə tutulan yardım yüklərinin gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanlarına bu Qaydaların 9 nömrəli əlavəsində göstərilmiş formada sadələşdirilmiş bəyannamələr təqdim edilir. 8.2. Gömrük ərazisinə gətirilən və ya bu ərazidən aparılan zaman yardım yüklərinə dair sadələşdirilmiş bəyannamə həmin malların gömrük rəsmiləşdirilməsini həyata keçirən gömrük orqanına dərhal verilir. 8.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə yardım yüklərinin bəyan edilməsinin sadələşdirilməsinin digər qaydaları müəyyən edilə bilər. 9. Fiziki şəxslər tərəfindən malların bəyan edilməsinin sadələşdirilmiş qaydaları 9.1. Fiziki şəxslərin gömrük sərhədindən keçirilən malların bəyan edilməsinin sadələşdirilmiş qaydasından istifadə etməsi üçün gömrük sərhəd buraxılış məntəqələrində ikikanallı – "Yaşıl kanal" və "Qırmızı kanal" buraxılış sistemləri tətbiq edilir. 9.2. "Yaşıl kanal" buraxılış sistemi fiziki şəxslər tərəfindən malların (müşayiət olunmayan baqajda keçirilən və poçt göndərişlərində göndərilən mallar istisna olmaqla) şifahi formada bəyan edilməsi üçün nəzərdə tutulur. 9.3. "Qırmızı kanal" buraxılış sistemi bu Qaydaların 10 nömrəli əlavəsində göstərilmiş formada mallara dair sadələşdirilmiş bəyannamə verilməklə, onların kağız üzərində yazılı və ya elektron formalarda bəyan edilməsi üçün nəzərdə tutulur. 9.4. Fiziki şəxslər kağız üzərində yazılı formada bəyan edilməli olan malları gömrük sərhədindən bu Qaydaların 9.3-cü bəndində göstərilən "Qırmızı kanal" sistemi tətbiq olunmaqla, onlara dair sadələşdirilmiş bəyannamə verməklə keçirirlər. 9.5. Kağız üzərində yazılı və ya elektron formalarda bəyan edilməli olan malların fiziki şəxslər tərəfindən sadələşdirilmiş qaydada gömrük ərazisinə müvəqqəti gətirilməsi və bu ərazidən müvəqqəti aparılması da sadələşdirilmiş bəyannamə vasitəsilə bəyan edilir. 9.6. Təbii aşınma və təbii itki halları istisna olmaqla, müvəqqəti gətirilən və müvəqqəti aparılan mallar dəyişdirilməmiş vəziyyətdə geri qaytarılmalıdır. 9.7. Fiziki şəxslər tərəfindən müvəqqəti gətirilmiş və ya müvəqqəti aparılmış malların geri aparılmasının və ya geri gətirilməsinin gömrük rəsmiləşdirilməsi istənilən gömrük orqanında həyata keçirilə bilər. 9.8. Kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar üzrə gömrük borcu, onlar fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilərkən, sadələşdirilmiş bəyannamənin təsdiqi ilə eyni vaxtda ödənilir. 9.9. Fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən malların bəyan edilməsi ilə bağlı digər məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli qərarı ilə

təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"na əsasən müəyyən edilir. 10. Qısa idxal bəyannaməsinin verildiyi hallar 10.1. Gömrük ərazisinə gətirilmiş mallar üzrə gömrük bəyannaməsi təqdim olunanadək qısa idxal bəyannaməsi aşağıdakı hallarda gömrük orqanlarına təqdim edilir: 10.1.1. gömrük sərhədindən mallar elektrikötürücü xətlər vasitəsilə keçirildikdə; 10.1.2. mallar müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirildikdə. 11. Qısa ixrac bəyannaməsinin verildiyi hallar 11.1. Qısa ixrac bəyannaməsi aşağıdakı hallarda gömrük orqanlarına təqdim edilir: 11.1.1. gömrük ərazisindən malların aparılması üçün gömrük bəyannaməsi və ya təkrar ixrac bildirişi tələb olunmadıqda; 11.1.2. gömrük sərhədindən mallar elektrikötürücü xətlər vasitəsilə keçirildikdə. 12. Gömrük bəyannaməsinin və ya təkrar ixrac bildirişinin tələb olunmadığı hallar 12.1. Gömrük bəyannaməsinin tələb olunmadığı hallar aşağıdakılardır: 12.1.1. mallara dair təkrar ixrac bildirişi təqdim olunduqda; 12.1.2. gömrük ərazisinə daxil olan ərazi sularından və hava məkanından dayanmadan keçən nəqliyyat vasitələrində mallar daşındıqda. 12.2. Aşağıdakı hallarda təkrar ixrac bildirişi tələb olunmur: 12.2.1. gömrük ərazisindən beynəlxalq tranzit xüsusi gömrük proseduru altında yerləşdirilərək keçirilən mallara; 12.2.2. sərbəst zona daxilində bir nəqliyyat vasitəsindən digərinə boşaldılaraq yüklənmiş və ya sərbəst zonadan birbaşa təkrar ixrac edilən mallara; 12.2.3. müvəqqəti saxlanc yerlərindən birbaşa təkrar ixrac edilən, müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallara. 13. Qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl təqdim edilməsi və onun təqdim edilməsinin mümkünlüyünün son müddəti 13.1. Qısa idxal bəyannaməsi mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada gömrük orqanlarına təqdim edilə bilər. 13.2. Elektron formada təqdim olunan qısa idxal bəyannaməsində risklərin təhlili, gömrük nəzarətinin düzgün aparılması üçün zəruri olan məlumatlar əks edilməlidir. 13.3. Elektron formada təqdim olunan qısa idxal bəyannaməsi malları gömrük ərazisinə gətirən və ya daşınmasına cavabdeh olan şəxslər, onların nümayəndələri, idxalatçı, malın alıcısı, yaxud malları gömrük rəsmiləşdirilməsi ilə əlaqədar gömrük orqanına təqdim edən şəxs tərəfindən bu məqsəd üçün gömrük orqanlarının müəyyən etdiyi rəsmi informasiya sistemləri vasitəsilə verilir. 13.4. Məlumatların elektron emalı üsullarından istifadə edilməklə təqdim olunan qısa idxal bəyannaməsi mallar gömrük sərhədini keçənədək təqdim edilir. 13.5. Bu hissənin müddəaları gömrük ərazisinin ərazi sularından və hava məkanından dayanmadan keçən nəqliyyat vasitələrində daşınan mallara şamil edilmir. 14. Gömrük bəyannaməsində düzəlişlər edilməsi, onun geri götürülməsi və ya ləğvi 14.1. Bu Qaydaların 14.2-ci bəndində göstərilən hallar istisna olmaqla, gömrük bəyannaməsi təsdiq edildikdən sonra bəyannaməçinin müraciəti əsasında həmin bəyannamədə düzəlişlər aparılmasına və ya onun geri götürülməsinə gömrük orqanları tərəfindən icazə verilir. 14.2. Təqdim olunmuş gömrük bəyannaməsində aşağıdakı hallarda düzəlişlər

edilməsinə və ya onun geri götürülməsinə icazə verilmir: 14.2.1. gömrük orqanları bəyannaməçiyə malları yoxlamaq niyyətində olduğunu bildirdikdən sonra; 14.2.2. gömrük orqanları gömrük bəyannaməsindəki məlumatların düzgün olmadığını müəyyənləşdirdikdən sonra; 14.2.3. bu Qaydaların 14.3-cü bəndində göstərilən hallar istisna olmaqla, gömrük orqanları tərəfindən malların buraxılışı həyata keçirildikdən sonra. 14.3. Aşağıdakı hallarda gömrük orqanları tərəfindən malların buraxılışı həyata keçirildikdən sonra gömrük bəyannaməsində düzəlişlər edilməsinə və ya onun geri götürülməsinə icazə verilir: 14.3.1. gömrük ödənişləri üzrə güzəştlər verilərək şərti buraxılmış mallardan başqa məqsədlər üçün istifadə olunduqda; 14.3.2. malların buraxılışının həyata keçirilməsinə baxmayaraq, onlar gömrük nəzarəti zonasını tərk etmədikdə. 14.4. Gömrük bəyannaməsində edilən düzəlişlər onun tətbiq sahəsini genişləndirə və ya məhdudlaşdıra bilməz. 14.5. Gömrük orqanlarının səlahiyyətinə aid olan məlumatların gömrük bəyannaməsinə daxil edilməsi halları istisna olmaqla, gömrük orqanlarının vəzifəli şəxsləri gömrük bəyannaməsini doldurmaq, gömrük bəyannaməsində göstərilən məlumatları dəyişdirmək və ya ona əlavələr etmək hüququna malik deyildirlər. 14.6. Bu Qaydaların 14.5-ci bəndi gömrük orqanının vəzifəli şəxslərinin bəyannaməçiyə, mallar barədə səlahiyyəti olan digər şəxslərə gömrük bəyannaməsinin tərtib olunmasında və ona müvafiq düzəlişlər edilməsində yardım göstərilməsi barədə Gömrük Məcəlləsinin 22.6-cı maddəsində nəzərdə tutulmuş vəzifəsini istisna etmir. 14.7. Gömrük orqanları təsdiq olunmuş gömrük bəyannaməsini bəyannaməçinin müraciəti əsasında aşağıdakı hallarda ləğv edirlər: 14.7.1. mallar dərhal başqa gömrük proseduru altında yerləşdirilməli olduqda; 14.7.2. fors-major halları ilə əlaqədar malların bəyan edildiyi gömrük proseduru altında yerləşdirilməsi mümkün olmadıqda. 14.8. Gömrük orqanları bəyannaməçiyə malları yoxlamaq niyyətini bildirdikdə, gömrük bəyannaməsinin ləğvi barədə müraciətə yalnız müvafiq yoxlama aparıldıqdan sonra baxılır. 14.9. Bu Qaydaların 14.10-cu bəndində göstərilmiş hallar istisna olmaqla, gömrük bəyannaməsi malların buraxılışından sonra ləğv edilə bilməz. 14.10. Aşağıdakı hallarda gömrük bəyannaməsi malların buraxılışından sonra ləğv edilir: 14.10.1. gömrük auditi gömrük orqanları tərəfindən malların və nəqliyyat vasitələrinin buraxılışından, o cümlədən şərti buraxılışından sonra gömrük bəyannaməsində göstərilən məlumatların düzgün olmadığını müəyyən etdikdə; 14.10.2. gömrük auditi şəxsin mallar və nəqliyyat vasitələri barədə sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət etmədiyini müəyyən etdikdə. 14.11. Gömrük bəyannaməsinin ləğvi bəyannaməçinin qanunvericilikdə nəzərdə tutulmuş inzibati və ya cinayət məsuliyyətinə cəlb olunması üzrə tədbirlərin tətbiqini istisna etmir. 15. Malların gömrük ərazisindən aparılmazdan əvvəl bəyan edilməsi 15.1. Gömrük ərazisindən aparılması nəzərdə tutulan mallar həmin ərazidən aparılmazdan əvvəl bəyan edilməlidir. 15.2. Bu Qaydaların 15.1-ci bəndi gömrük ərazisinə daxil olan ərazi sularından və hava məkanından dayanmadan keçən nəqliyyat vasitələrində daşınan mallara şamil edilmir. 15.3. Bu Qaydaların 15.1-ci

bəndində nəzərdə tutulmuş bəyanetmə aşağıdakı formalarda ola bilər: 15.3.1. gömrük ərazisindən aparılan mallar gömrük bəyannaməsi tələb olunan gömrük proseduru altında yerləşdirildikdə, müvafiq gömrük bəyannaməsi; 15.3.2. Gömrük Məcəlləsinin 128-ci maddəsində nəzərdə tutulan təkrar ixrac bildirişi; 15.3.3. gömrük bəyannaməsi və təkrar ixrac bildirişi tələb olunmadığı hallarda, Gömrük Məcəlləsinin 129-cu maddəsində nəzərdə tutulan qısa ixrac bəyannaməsi. 15.4. Mallar gömrük ərazisindən aparılmazdan əvvəl təqdim olunan gömrük bəyannaməsində ən azı qısa ixrac bəyannaməsi üçün tələb olunan məlumatlar əks olunmalıdır. 15.5. Bu Qaydaların 15.3-cü bəndində nəzərdə tutulmuş gömrük bəyannaməsi, təkrar ixrac bildirişi və ya qısa ixrac bəyannaməsi gömrük ərazisindən aparılması nəzərdə tutulan mallar gömrük sərhədinə çatmamışdan əvvəl də kağız üzərində yazılı və ya elektron formalarda gömrük orqanına təqdim edilə bilər. 16. Malların gömrük ərazisinə gətirilməzdən əvvəl bəyan edilməsi 16.1. Gömrük ərazisinə gətirilməsi nəzərdə tutulan mallar həmin əraziyə gətirilməzdən əvvəl bəyan edilə bilər. 16.2. Bu Qaydaların 16.1-ci bəndi gömrük ərazisinə daxil olan ərazi sularından və hava məkanından dayanmadan keçən nəqliyyat vasitələrində daşınan mallara şamil edilmir. 16.3. Bu Qaydaların 16.1-ci bəndində nəzərdə tutulmuş bəyanetmə aşağıdakı formalarda ola bilər: 16.3.1. gömrük ərazisinə gətirilən mallar gömrük bəyannaməsi tələb olunan gömrük proseduru altında yerləşdirildikdə, müvafiq gömrük bəyannaməsi; 16.3.2. gömrük ərazisinə gətirilmiş mallar üzrə gömrük bəyannaməsi təqdim olunanadək, qısa idxal bəyannaməsi; 16.3.3. gömrük orqanlarına faktiki təqdim edilməli olan mal partiyası gömrük bəyannaməsi verildiyi vaxt olmadıqda, natamam bəyannamə; 16.3.4. yardım yüklərinin və səlahiyyətli iqtisadi operatorlar tərəfindən gömrük ərazisinə gətirilən malların gömrük rəsmiləşdirilməsi məqsədi ilə sadələşdirilmiş bəyannamə. 16.4. Bu Qaydaların 16.3-cü bəndində göstərilən bəyannamələr gömrük ərazisinə gətirilməsi nəzərdə tutulan mallar gömrük sərhədinə çatmamışdan əvvəl də kağız üzərində yazılı və ya elektron formalarda gömrük orqanına təqdim edilə bilər. 17. Gömrük ərazisinə daxil olması nəzərdə tutulan nəqliyyat vasitəsinə görə məsul şəxs tərəfindən müvafiq məlumatların gömrük orqanlarına əvvəlcədən təqdim edilməsi 17.1. Gömrük ərazisinə daxil olması nəzərdə tutulan nəqliyyat vasitəsinə görə məsul şəxs aşağıdakılar barədə məlumatları kağız üzərində yazılı və ya elektron formalarda gömrük orqanlarına əvvəlcədən təqdim edə bilər: 17.1.1. nəqliyyat vasitəsinin gömrük ərazisinə gözlənilən daxilolma vaxtı; 17.1.2. nəqliyyat vasitəsinin hərəkət istiqamətləri və marşrutları; 17.1.3. nəqliyyat vasitəsinin heyəti və sərnişinləri; 17.1.4. təyinatından və gətirilmə məqsədlərindən asılı olmayaraq, gömrük ərazisində boşaldılacaq yük; 17.1.5. mövcud olduqda, gömrük ərazisində boşaldılması nəzərdə tutulmayan yük; 17.1.6. nəqliyyat vasitəsinin daxil olacağı gömrük sahəsi. 17.2. Gömrük ərazisinə daxil olan nəqliyyat vasitəsinə görə məsul şəxs: 17.2.1. nəqliyyat vasitəsi gömrük ərazisinin müəyyən olunmuş gömrük sahəsinə daxil olarkən, daxilolma haqqında məlumatı gömrük orqanlarına təqdim etməlidir;

17.2.2. gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən icazə verilənədək heç bir şəxsin nəqliyyat vasitəsini tərk etməsinə və ya oraya daxil olmasına imkan verməməlidir; 17.2.3. nəqliyyat vasitəsinin gömrük sahəsi daxilində hərəkəti, malların nəqliyyat vasitəsindən boşaldılması, heyətin və başqa şəxslərin nəqliyyat vasitəsindən düşürdülməsi barədə gömrük orqanlarının vəzifəli şəxslərinin göstərişlərinə əməl etməlidir. 17.3. Nəqliyyat vasitəsi gömrük ərazisinə daxil olduqdan sonra 1 (bir) saat müddətində gömrük orqanlarına daxilolma haqqında məlumat verilməlidir. Nəqliyyat vasitəsi gömrük ərazisinə gömrük orqanlarının iş vaxtından kənar saatlarda daxil olduqda, bu məlumat onların növbəti iş vaxtı başlandıqdan sonrakı 1 (bir) saat müddətində verilməlidir. 17.4. Bu Qaydaların 17.1-ci bəndində göstərilən məlumatlar gömrük orqanlarına nəqliyyat vasitəsinə görə məsul şəxslərin adından onların nümayəndəsi tərəfindən də təqdim oluna bilər. 17.5. Nəqliyyat vasitələri gömrük ərazisinə yüksüz və şərnişinsiz daxil olarkən, Gömrük Məcəlləsinin tələbləri nəzərə alınmaqla, müvafiq gömrük orqanına bəyan edilməlidir. 18. Gömrük ərazisindən yola düşməsi nəzərdə tutulan nəqliyyat vasitəsinə görə məsul şəxs tərəfindən müvafiq məlumatların gömrük orqanlarına əvvəlcədən təqdim edilməsi 18.1. Gömrük ərazisindən yola düşməsi nəzərdə tutulan nəqliyyat vasitəsinə görə məsul şəxs bu barədə məlumatları kağız üzərində yazılı və ya elektron formalarda gömrük orqanlarına əvvəlcədən təqdim edə bilər. 18.2. Gömrük orqanı bu məlumatı qeydə almaqla, sonrakı rəsmiləşdirilmənin aparılması üçün nəqliyyat vasitəsinin yola düşəcəyi vaxtı və yeri müəyyən edir. 18.3. Nəqliyyat vasitələri gömrük ərazisindən yüksüz və sərnişinsiz yola düşərkən, bu Qaydaların 19-cu hissəsinin tələbləri nəzərə alınmaqla, bu barədə müvafiq gömrük orqanına bəyan edilməlidir. 18.4. Gömrük orqanları gömrük ərazisində olan nəqliyyat vasitəsinin rəsmiləşdirilməsi aparılmadan, onun bu ərazidən yola düşməsinə imkan verməməlidirlər. 18.5. Bu hissənin tələbləri Azərbaycan Respublikasının ərazisində yerləşən dəniz, çay və ya hava limanlarında dayanmayan, gömrük ərazisindən keçən dəniz, çay və hava gəmiləri barəsində tətbiq edilmir. 19. Gömrük ərazisinə yüksüz və sərnişinsiz daxil olan və ya bu ərazidən yüksüz və sərnişinsiz yola düşən nəqliyyat vasitələrinin bəyan edilməsi: 19.1. Bu Qaydaların məqsədləri üçün yüksüz və sərnişinsiz nəqliyyat vasitələri dedikdə, gömrük ərazisinə daxil olan və ya bu ərazidən yola düşən zaman sərnişinlər və yüklər olmadan beynəlxalq daşınmada istifadə olunan hava, dəmiryol, dəniz, daxili su və avtomobil nəqliyyatı vasitələri başa düşülür. 19.2. Yüksüz və sərnişinsiz nəqliyyat vasitələri gömrük sərhədindən keçərkən, nəqliyyat vasitəsinin rəsmiləşdirilməsi haqqında sənəd gömrük orqanına təqdim edilməklə bəyan olunur. 19.3. Nəqliyyat vasitəsinin rəsmiləşdirilməsi haqqında sənəddə aşağıdakı məlumatlar göstərilməlidir: 19.3.1. nəqliyyat vasitəsinin texniki göstəriciləri; 19.3.2. sürücü haqqında məlumat; 19.3.3. nəqliyyat vasitəsinin heyət üzvləri, boşaldılmış və ya yüklənilməsi nəzərdə tutulmuş sərnişinlər və ya yük, hərəkət istiqaməti və marşrut haqqında məlumatlar. 20. Gömrük sərhədindən keçirilən nəqliyyat vasitəsində istifadə və istismar

üçün ehtiyatların bəyan edilməsi 20.1. Nəqliyyat vasitələrində istifadə və istismar üçün ehtiyatların bəyan edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 28 dekabr tarixli 324 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük ərazisindən kənar əraziyə yola düşməyə hazırlaşan nəqliyyat vasitəsinin heyət üzvlərinin, xidmətedici heyətinin, sərnişinlərinin istifadəsi və nəqliyyat vasitəsinin istismarı üçün ehtiyatlar hesab olunan malların nomenklaturası, çeşidi, miqdarı və onların gömrük rüsumlarından və vergilərdən azadolma şərtləri"nin 2.1.2-ci yarımbəndinə əsasən ehtiyatlar hesab olunan mallara dair sənədlərin kağız üzərində yazılı və ya elektron formalarda aidiyyəti gömrük orqanına təqdim edilməsi ilə həyata keçirilir. 20.2. Ehtiyatlar hesab olunan mallara dair sənədlərlə müşayiət olunmayan nəqliyyat vasitəsində istifadə və istismar üçün ehtiyatların bəyan edilməsi ümumi qaydada həyata keçirilir. 20.3. Dəniz, çay və hava gəmilərində istifadə və istismar üçün ehtiyatlar gömrük ərazisində daxil olduqları, yaxud yola düşdükləri su və hava limanlarında, digər nəqliyyat vasitələrinə dair ehtiyatlar isə gömrük sərhədindən keçirilərkən bəyan edilir. 21. Şəxslərin gömrük ərazisinə daxil olduqları andan etibarən dərhal bu barədə gömrük orqanlarının vəzifəli şəxslərinə məlumat verməsi 21.1. Şəxslər gömrük ərazisinə daxil olduqları andan dərhal bu barədə həmin ərazidəki gömrük orqanının vəzifəli şəxslərinə gömrük sərhəd buraxılış məntəqələrində ikikanallı – "Yaşıl kanal" və "Qırmızı kanal" buraxılış sistemlərindən istifadə edərək məlumat verməlidirlər. 21.2. Gömrük ərazisinə daxil olmuş nəqliyyat vasitəsindən düşən şəxslər gömrük orqanının vəzifəli şəxslərindən başqa göstəriş almadıqda, gömrük nəzarəti zonasına getməklə və gömrük nəzarətinin həyata keçirildiyi müddətdə orada qalmaqla, gömrük orqanının vəzifəli şəxslərinə məlumat vermiş hesab edilirlər. 21.3. Gömrük ərazisinə daxil olan nəqliyyat vasitələrindəki şəxslər həmin nəqliyyat vasitəsindən düşmə ilə əlaqədar gömrük orqanının vəzifəli şəxslərinin bütün göstərişlərinə əməl etməlidirlər. 21.4. Gömrük nəzarəti zonasına daxil olan nəqliyyat vasitəsindən düşən şəxs: 21.4.1. ona məxsus müşayiət olunan baqajın gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən yoxlanılmasına şərait yaratmalıdır; 21.4.2. ona məxsus müşayiət olunan baqajın gömrük nəzarəti zonası daxilində hərəkəti və ya nəqliyyat vasitəsindən götürülüb gömrük nəzarəti zonasına aparılması ilə bağlı gömrük orqanının vəzifəli şəxslərinin göstərişlərinə əməl etməlidir.

***Problemin dürüstləşdirilməsi***

*Yükün buraxılışı üçün dövlət orqanlarına zəruri olan vaxt onların fəaliyyətinin ən aşkar göstəricidir və ticarət məsrəflərinə əhəmiyyətli təsir göstərir. Buraxılış vaxtı nə qədər sürətli və qabaqcadan müəyyən edilmiş olsa, ticarət subyektlərinin təchizat zəncirinin planlaşdırılması, idarə olunması və optimallaşması üzrə imkanları olar. Buraxılış prosesi müxtəlif idarələrin (səhiyyə, kənd təsərrüfatı, ekologiya və s.) fəaliyyətinin və onların malları ölkə ərazisinə buraxılışı və ya əksinə, qadağası haqqında qərarlarının koordinasiyasını nəzərdə tutur. Koordinasiyanın olmaması əksər hallarda yoxlama*

*tədbirlərinin təkrarlanmasına və buraxılış vaxtının əsasız olaraq artırılmasına gətirib çıxarır. Əksər halda yükün buraxılışı gömrük rüsum və vergilərinin ancaq ödənişindən sonra həyata keçirilir, yəni yükün buraxılışı və yükün gömrük rəsmiləşdirilməsi proseslərinin bölgüsü mövcud olmur.*

***Reallaşdırılma metodikası***

*Yenidən baxılan Kyoto konvensiyasının 3.40 standartına müvafiq olaraq, gömrük orqanları yük yoxlanıldıqdan və baxıldıqdan və ya yükə baxışın aparılmaması haqqında qərar qəbul edildikdən dərhal sonra yükü buraxmalıdırlar. Bu müddəa girovun təqdim edilməsi kimi müvafiq tədbirlərə əsaslanır ki, bu da yükün buraxılış prosesini gömrük rüsum və vergilərinin qiymətləndirilməsi və ödənişinin kifayət qədər uzun prosesindən ayırmağa imkan verməlidir.*

*Çoxlu əlavə tədbirlər mövcuddur ki, bunlar da yükün gömrükdən buraxılışı üzrə ümumi vaxtı kifayət qədər azaltmalıdır. Gömrük və digər dövlət orqanları kağız bəyannamələrin tamamilə ləğv edilməsi mümkünlüyünə baxmalı və bəyannamələrin tam elektron işlənməsinə keçməlidirlər. Gömrük orqanları yük gömrük nəzarəti məntəqəsinə çatana qədər elektron yük bəyannamələrini riskin mövcudluğu üzrə emal və təhlil etməlidir ki, yüklər bilavasitə gələn kimi buraxılsın. Gömrük orqanları həmçinin, "de minimus"rejimini dəyəri müəyyən kəmiyyətdən aşağı olan bütün yüklərin buraxılış prosesinin gücləndirilməsi üçün tətbiq etməlidirlər. Risklərin qiymətləndirilməsi prosesi bütün müvafiq dövlət orqanları ilə birgə həyata keçirilməlidir ki, yüklərin buraxılışı və zəruri baxışın aparılması üçün vaxt və yerin razılaşdırılması haqqında qərarın həmrəyliyi təmin olunsun.*

*Gömrük və digər orqanların, həmçinin, sərhəddə, limanda və ya aeroportda xüsusi sektorun nümayəndələrinin iş qrafiki sinxronlaşdırılmalı və biznesin tələblərinə cavab verməlidir. Bundan başqa, hökumətlər yüklərin buraxılış vaxtının qiymətləndirilməsi üzrə tədqiqatların aparılma mümkünlüyünü nəzərdən keçirməlidirlər, bu zaman buraxılış prosesinin optimallaşdırılmasının daima fəaliyyət göstərən mexanizminin sahmana salınması məqsədilə ÜGT-nın standart və metodiki göstərişləri nəzərə alınmalıdır.*

***Əlavə informasiya***

*Dünya Bankının "Biznesin aparılması" hesabatında və Loqistikanın səmərəlilik Əmsalında (LSƏ) yükün gömrükdən buraxılmasının nə qədər vaxta başa gəlməsinə böyük diqqət yetirilir. Ümumdünya Gömrük təşkilatının "Buraxılış vaxtının tədqiqatı"yükün gömrükdən buraxılışı üçün zəruri olan vaxtın qiymətləndirilməsi üçün çox faydalıdır, onun müntəzəm aparılması zamanı isə, verilən göstəricinin yaxşılaşdırılması üzrə müvafiq proqramların işlənməsi mümkün olur.*

*ÜGT-nın Rəhbərliyində dərhal buraxılış üzrə ticarət prosedurlarının sadələşdirilməsinə aid vacib tədbirlər nəzərdən keçirilir ki, bunlar da həcminə, dəyərinə görə kiçik olan və BTP-nın gömrük üzrə 9 nömrəli Tövsiyyələrinə müvafiq olaraq, rüsuma məruz qalmayan yüklərin sürətli buraxılışını təmin edir. Məsələn, Yaponiyanın gömrük xidməti 2009-cu ildə buraxılış vaxtı üzrə*

*özünün 9-cu tədqiqatını aparıb. Yaponiyada 1991-ci ildə buraxılış vaxtının ilk tədqiqatından keçən vaxt ərzində dəniz yolu ilə daşınan yüklərin buraxılışı üçün zəruri olan vaxt 7 gündən 2,6-a (2009), hava yolu ilə daşınan yüklər üçün isə, 2,2 gündən(1991) 0,7 günə qədər (2009) azalıb.*

"De minimus" rejimi üçün minimal dəyərin müəyyən edilməsi üçün tədqiqatların nəticələrinə arxalanmalı, həmçinin, beynəlxalq təcrübəni nəzərə almaq lazımdır.

2011-ci il Sammitində Asiya-Sakit okean İqtisadi Əməkdaşlıq ölkələrinin liderləri vahid minimal dəyərin 100 ABŞ dolları dəyərində tətbiq edilməsini təqdir etdilər. Bu qərar Asiya-Sakit okean ekspress-daşıyıcıları tərəfindən aparılan (CARES) tədqiqata əsaslanır ki, bu da müəyyən etdi ki, 100 ABŞ dolları həcmində minimal dəyərin müəyyən edilməsi ASİƏ təşkilatının 21 ölkəsində müsbət səmərə verəcək. Dərhal buraxılış üzrə Rəhbərliyə əsasən, gömrük orqanları minimal dəyər haqqında məlumatın tətbiqini təmin etməlidir. Minimal dəyər həm də milli qanunvericilikdə əks olunmalıdır. Gömrük orqanı müntəzəm olaraq minimal dəyər və ya gömrük rüsum/vergilərinin minimal ölçüsü haqqında məsələlərə yenidən baxmalıdır, bu zaman inflyasiya və aşağı dəyərə malik olan yüklərin emalını sadələşdirmək zərurəti nəzərə alınmalıdır. Belə yüklərin dəyərinin müəyyən edilməsi zamanı nəqliyyat xərcləri nəzərə alınmaya bilər.

**ƏDƏBİYYAT**


1. AR-nın Yeni Gömrük Məcəlləsi. 2011. Hüquq ədəbiyyatı, 2015. mad.31; 155.
2. "Dərhal buraxılış üzrə Ümumdünya Gömrük təşkilatının Rəhbərliyi". 1990, Yenidən baxılan variant, 2006.
3. "Gömrük proseduralarının sadələşdirilməsi və uzlaşdırılması haqqında Beynəlxalq Konvensiyanın dəyişdirilməsi haqqında protokol". Brüssel. 27 iyul 1999, s.184.
4. Kyota Konvensiyası. Baş Əlavəyə Rəhbərlik. 6-cı bölmə. Gömrük nəzarəti, s.36.
5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli 263 № li "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları" haqqında qərarı.


## РЕЖИМ «DE MINIMUS» КАК ПОКАЗАТЕЛЬ УПРОЩЕННОЙ ПРОЦЕДУРЫ МЕЖДУНАРОДНОЙ ТОРГОВЛИ


**М.Я.ЯДУЛЛА**


**РЕЗЮМЕ**


Рекомендация МТП по таможне #11 определяет режим «de minimus» как предельную стоимость товаров, в том числе документов и торговых образцов, ниже которой таможенные пошлины и налоги не взимаются, а процедуры очистки таких товаров, включая требования к данным, сведены к минимуму. В данной статье приведены практические рекомендации по основным аспектам введения режима «de minimus», а также приведены последние исследования по экономическому и финансовому влиянию такого режима.

В статье также рассматривается, что, Согласно Руководству по немедленному выпуску, таможенная служба должна сделать так, чтобы информация о минимальной стоимости была общедоступна. Там где это практически выполнимо минимальная стоимость должна быть закреплена в национальном законодательстве. Таможенный орган должен регулярно пересматривать размер минимальной стоимости или минимальный размер таможенных пошлин/налогов, ниже которого пошлины и налоги не взимаются, с учетом инфляции и необходимости упростить обработку грузов с низкой стоимостью.

**Ключевые слова:** пересмотренная Киотская Конвенция, режим “de minimus”, грузовые декларации, упрошенные декларации

## “DE MINIMUS” REGIME AS AN INDICATOR OF SIMPLIFICATION OF INTERNATIONAL TRADE PROCEDURES

**M.Y.YADULLA**

## SUMMARY

Recommendation ICC Customs # 11 determines the regime of «de minimus» as the marginal cost of the goods, as well as documents and trade samples below which customs duties and taxes are not collected, and the purification procedure of such goods, including data requirements are minimized. This article provides practical advice on key aspects of the introduction of the regime «de minimus», and studies the economic and financial impacts of such a regime.

The article also considers that, according to the Guidelines for the immediate release, the Customs shall make the information available to the public with minimal cost. Practicable minimum cost should be enshrined in national legislation. The customs authority shall regularly review the minimum value or the minimum amount of customs duties / taxes below which no duties and taxes are levied, taking into account inflation and the need to simplify the handling of goods at low cost.

**Key words**: Revised Kyoto Convention, the regime of "de minimus", cargo declarations, simplified declarations

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2016*

**UOT 338.242.4**
**JEL:E 420; E 520; E620**

# MONETAR SİYASƏT, İQTİSADİ ARTIM VƏ MAKROİQTİSADİ STABİLLƏŞMƏNİN PROBLEMLƏRİ

**A.H.HACIYEV**
***AMEA İqtisadiyyat institutu***
***a.h.haciyev@gmail.com***

*Ölkədə reallaşdırılan monetar siyasətin fərqli strategiyaları - strateji hədəf, onun təminolunma mexanizmi və mərkəzi banklar tərəfindən bu məqsədlə istifadə olunan alətlər makroiqtisadi şəraitə və iqtisadi artımın davamlığına fərqli təsirlər müəyyənləşdirir. Məqalədə bu baxımdan Azərbaycanda reallaşdırılan monetar siyasətin fərqli aspektlərinin nəzəri yanaşmalar baxımından təhlili və qiymətləndirilməsi aparılır.*

**Açar sözlər:** monetar siyasət, iqtisadi artım, makroiqtisadi sabitlik, mərkəzi bank, bynəlxalq maliyyə qurumları

***Giriş*.** Məlumdur ki, ölkədə reallaşdırılan monetar siyasətin fərqli strategiyaları - strateji hədəf, onun təmin olunma mexanizmi və mərkəzi banklar tərəfindən bu məqsədlə istifadə olunan alətlər makroiqtisadi şərait və iqtisadi artımın davamlığına fərqli təsirlər müəyyənləşdirir. Problemin mahiyyəti onunla əlaqədardır ki, nəzəri olaraq, bütün mərkəzi bankların fəaliyyətinin strateji hədəfini milli valyutanın stabilliyinin təmin olunması baxımından çıxış edir. Lakin milli valyutanın stabilliyinin mövcud olan iki fərqli aspekti: (1) milli valyutanın xarici stabilliyi – başqa sözlə, onun digər valyutalara nisbətdə mübadilə məzənnəsinin sabitliy; (2) milli valyutanın daxili stabilliyi – başqa sözlə, milli valyutanın daxili bazarda alıcılıq qabiliyyətinin qorunub saxlanması; və nəhayət, milli valyutanın kapital olaraq təmin etdiyi gəlirlik səviyyəsi (faiz dərəcəsi) üzrə dəyişikliklər – monetar tənzimləmədə fərqli strategiya və yanaşmaların formalaşmasını mümkünləşdirir. Bu səbəbdən istər inkişaf etmiş ölkələr, istərsə də sürətlə inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatları şəraitində monetar siyasət dövlətin mühüm əhəmiyyətə malik institusional sferalarındandır.

Məqalədə bu baxımdan Azərbaycanda reallaşdırılan monetar siyasətin fərqli aspektlərinin nəzəri yanaşmalar baxımından təhlili və qiymətləndirilməsi aparılır.

***Monetar siyasətdə adekvatlıq problemi.*** Monetar siyasətdə mümkün olan prioritet hədəf (iqtisadiyyatda inflyasiyanın minimum səviyyəsinin təmin olunması, işsizlik səviyyəsinin azaldılması, iqtisadi artımın sürətlənməsi və s.), bu hədəfin təmin olunması üzrə istifadə olunan rejimdən - pul-kredit və valyuta siyasətləri üzrə istifadə olunan mexanizmlər, alətlər və onların uzlaşma sxemlərindən, asılı olaraq ölkədə fərqli makroiqtisadi şərait və iqtisadi artımın davamlığına fərqli (müsbət və ya neqativ) təsirlər müəyyənləşir. Bu səbəbdən monetar siyasətdə müəyyənləşən prioritet hədəf və bu hədəfin təmin olunması üzrə istifadə olunan mexanizmlərin davamlı iqtisadi artımın təmin etməsi (monetar siyasətin davamlı iqtisadi artımın təmin olunmasına adekvatlığı) - elmi ədəbiyyatda geniş müzakirə olunan problemlərdəndir (**1-3**).

Monetar siyasətdə *"mümkün olmayan üçlük"* (*"impossible trinity"*) kimi tanınan prinsip, yəni üç hədəfin - maliyyə bazarlarının açıqlığı və dönərli valyutalar şəraitində mərkəzi bankın müstəqil pul-kredit və mübadilə məzənnəsi siyasətlərinin aparmasının, mübadilə məzənnəsi və faiz dərəcəsinin arzu olunan səviyyələrinin - eyni zamanda təmin olunmasının mümkünsüzlüyü prinsipi ilə əlaqədar monetar tənzimləmədə fərqli strategiyalar spektri müəyyənləşir. Nobel mükafatı laureatları *Robert Mandel* və *Pol Kruqman* (**4**) tərəfindən irəli sürülən bu prinsip göstərir ki, heç bir ölkədə kapitalın hərəkətinin sərbəstləşdirilməsi şəraitində məzənnənin sabitliyi və müstəqil pul siyasətinin həyata keçirilməsi mümkün deyil. Mümkün olan üç variantdan eyni zamanda yalnız ikisi reallaşdırıla bilər (məsələn, Çin Xalq Respublikasında zəruri olan pul siyasətinin reallaşdırılması və məzənnənin sabitliyinin qorunması kapitalın hərəkətinə əhəmiyyətli məhdudiyyətlər şəraitində reallaşdırılır; eyni ilə, inkişaf etmiş ölkələrin əksəriyyətində kapitalın həkətinin sərbəstləşdirilməsi və müstəqil pul siyasətinin reallaşdırılması məzənnənin sərbəstləşdirilməsi şəraitində reallaşdırılır; nəhayət, bir sıra ölkələrdə mübadilə məzənnəsinin qeyd olunması və kapitalın hərəkətinin sərbəstləşdirilməsi strategiyasının reallaşdırılması göstərir ki, bu ölkələrdə pul siyasəti iqtisadi tənzimləmə inflyasiyanın zəiflədilməsi və ya iqtisadi artımın sürətlənməsi aləti kimi istifadə edilmir və s.).

Bu səbəbdən də monetar siyasətdə istifadə olunan alət və mexanizmlərin makroiqtisadi stabilləşmənin hədəfləri və iqtisadi artımın davamlığının təmin olunması baxımından təhlili, qiymətləndirilməsi və adekvat pul-kredit siyasətinin müəyyənləşməsi makroiqtisadi tənzimləmənin əsas problemlərindəndir.

***Monetar siyasətin hədəfi***. Dünya təcrübəsində mərkəzi banklar makroiqtisadi tənzimləmənin prioritetlərindən asılı olaraq fərqli strategiyalar formalaşdırır. Belə ki, əksər mərkəzi banklar iqtisadiyyatda ya qiymətlərin sabitliyi, yaxud da milli valyutanın stabilliyi strategiyasını; ABŞ-da Federal Ehtiyat Sitemi - uzunmüddətli dayanıqlı iqtisadi artım və qiymətlərin stabilliyi; Çin Xalq Bankı – iqtisadi artım və mübadilə məzənnəsinin stabilliyi; Polşa Milli bankı – qiymətlərin sabitliyi və bu hədəfin təmin olunması çərçivəsində ölkə hökumətinin iqtisadi siyasətinin tam dəstəklənməsi strategiyaları və s. (**5**). Dünyanın əksər mərkəzi bankları tərəfindən reallaşdırılan monetar siyasətdə

son hədəf qismində baza inflyasiyanın müəyyənləşdirilməsi bu hədəfin təmin olunmasının digər makroiqtisadi göstəricilər və əhalinin həyat səviyyəsi üzrə dəyişikliklərə müsbət təsir müəyyənləşdirməsidir. Bu yanaşmanın əsas səbəbləri kimi isə aşağıdakılar çıxış edir: (1) qiymətlərin sabitliyinin müxtəlif mal və xidmətlər üzrə nisbi qiymətlər səviyyəsində dəyişikliklərin izlənməsinə, əhalinin istehlak və müəssisələrin investisiya maraqlarında dəyişikliklər barədə dəqiq məlumatların alınmasına, bütün bunların isə iqtisadiyyatda sərbəst maliyyə vəsaitlərinin daha səmərəli yerəşdirilməsinə, iqtisadiyyatın sahələri və sektorları arası onların səmərəli axını ilə əlaqədar ölkədə iqtisadi potensialın yüksəldilməsinə xidmət etməsi; (2) inflyasiyanın kiçik səviyyəsi və inflyasiya gözləntilərinin zəifliyinin, inflyasiyanın sürətlnməsi riskləri ilə bağlı faiz dərəcəsi artımının qarşısını alması səbəbindən investisiyaların və iqtisadi artımın sürətlənməsinə xidmət etməsi; (3) inflyasiyanın kiçik səviyyəsi şəraitində, bir qayda olaraq istər əhali tərəfindən maliyyə sektoruna, istərsə də müəssisələr tərəfində real sektora yatırılmış vəsaitlərin, aktivlərin dəyərdən düşməsi ehtimalının olmaması ilə bağlı, geri götürülməsi istəyinin olmaması; (4) inflyasiyanın kiçik səviyyəsinin əhalinin və müəssisələrin gəlirlərinin yenidən bölgüsünün qarşısını alması və s.

Lakin istər elmi ədəbiyyat, istərsədə konkret praktiki təcrübənin nəticələri üzrə anti-inflyasiya tədbirlərinin ölkədə makroiqtisadi tarazlığın təmin olunmasında yeri və əhəmiyyəti hələdə geniş müzakirə mövzusudur. Belə ki, Dj.Stiqlisin fikirlərinə əsasən, mərkəzi banklar tərəfindən inflyasiya səviyyəsinə nəzarət yeganə və əsas hədəf qismində çıxış edə bilməz, inflyasiya, yalnız iqtisadi artımın sürətlənməsi və işsizliyin azaldılması vasitəsi kimi baxılmalıdır. "İstənilən vasitələrlə inflyasiya səviyyəsinin azaldılması inflyasiya və işsizlik arasında balansın müəyyənləşdirilməsinə xidmət etmir. Makroiqtisadi stabilləşmədə pul-kredit siyasətinin qiymətlərin sabitliyinin təmin olunmasına istiqamətlənməsi obyektiv səbəblərdən daha çox subyektiv səbəblərə malikdir" (**1**). Başqa sözlə, mərkəzi banklar öz fəaliyyətində inflyasiya ilə yanaşı iqtisadi artımın stimullaşdırılması və işsizliyin azaldılması istiqamətini də nəzərə almalıdırlar. Çünki heç bir ölkədə yalnız inflyasiyanın uzunmüddətli dövrə kiçik səviyyəsi təmin olunması dayanıqlı iqtisadi artım və əsaslı bank-maliyyə böhranlaından qorunma imkanı yaratmır.

***Monetar siyasətin alətləri.*** Şərti olaraq mərkəzi banklar tərəfindən monetar sferanın tənzimlənməsi iki istiqamət üzrə qruplaşmış alətlər vasitəsi ilə həyata keçirilir: *birinci qrup alətlər,* dövriyyədə olan pul kütləsi, pul təklifi səviyyəsinin birbaşa olaraq genişlənib/sıxılması; *ikinci qrup alətlər,* bank sektorunun fəaliyyətinin genişlənib/sıxılması və risklərin tənzimlənməsini əhatə edir (**şək.1**). Alətlərin bir qismi iqtisadiyyatda pula olan tələbin səviyyəsi, digər qismi isə pul təklifi səviyyəsinin tənzimlənməsinə istiqamətləndiyindən dövriyyədə olan pul kütləsinin genişlənib/sıxılması üzrə istifadə olunan konkret alətdən asılı olaraq inflyasiya, iqtisadi artım, məşğulluq və investisiya səviyyələrinə fərqli təsirlər müəyyənləşir (*mərkəzi bank tərəfindən istifadə olunan*

*əsas alətlər və onların təsir istiqamətləri əlavə 6-da göstərilir*). Başqa sözlə, alət və hədəflərin uzlaşma sxemi formalaşan makroiqtisadi şəraitə və iqtisadi artım templərinə fərqli təsirlər müəyyənləşdirir. Məsələn, aralıq hədəf qismində monetar baza və faiz dərəcəsi çıxış edə bilər və əgər, faiz dərəcəsi aralıq hədəf qismində çıxış edirsə, bu halda, monetar bazanın genişlənib/sıxılması əməliyyat hədəfi kimi müəyyənləşir. Bu halda müəyyənləşmiş uzlaşma sxemi, təbii ki, iqtisadi fəallığın artımına xidmət edir.




**Şək.1.** Monetar siyasətin alət və hədəfləri

***Transmissiya kanalları.*** Nəzəri olaraq problemin həllinə fərqli yanaşmalar mövcuddur /7/. Lakin istənilən halda bu və ya digər transmissiya kanalının (faiz dərəcəsi, mübadilə məzənnəsi, kredit kanalı və s.) prioritetliyi iqtisadiyyatın strukturu və konkret makro-iqtisadi şəraitdən asılı olaraq müəyyənləşir. Məsələn, əgər investisiyaların strukturunda mühüm pay çəkisinə bank kreditləri malikdirsə, bu halda, faiz dərəcəsi kanalının mühüm əhəmiyyətliyi göstərilir.

Bir sıra tədqiqatlarda adekvat pul-kredt siyasəti mexanizminin müəyyənləşdirilməsi Teylor qaydasına müvafiq olaraq reallaşdırılır. Praktiki təcrübədə bu yanaşma özünün müsbət nəticələrini versə də, məsələn, Azərbaycan iqtisadiyyatı şəraitində xarici "şok" təsirlər bankların faiz dərəcəsi üzrə kəskin meylliyi müəyyənləşdirə bilər.

***Pul-kredit siyasəti.*** Elmi ədəbiyyatda istər pul-kredit, istərsədə valyuta siyasəti rejimlərinin[1] mahiyyəti geniş öyrənilmiş məsələlərdəndir (**8-10**). Dünya ölkələri təcrübəsində tətbiq olunan pul-kredit siyasəti rejimlərinin ən geniş yayılanı: (1) pul təklifinin tənzimlənməsi; (2) nominal mübadilə məzənnəsinin tənzimlənməsi; (3) inflyasiyanın hədəflənməsidir. Birinci halda aralıq hədəf kimi mərkəzi banklar tərəfindən pul və ya kredit aqreqatları; ikinci halda – milli valyutanın nominal mübadilə məzənnəsi istifadə olunur; üçüncü halda isə inflyasiya səviyyəsinin məhdudlaşdırılması üzrə konkret tədbirlər reallaşdırılır (pul-kredit siyasətinin digər rejimləri – ÜDM-in müəyyən nominal səviyyəsi mübadilə məzənnəsinin müəyyən səviyyəsinin təmin olunması, təcrübədə geniş istifadə olunmur). Azərbaycanda son 20 il ərzində istifadədə iki rejimə üstünlük verilib – monetar hədəfləmə rejimi (M2 pul aqreqatının hədəflənməsi) və mübadilə məzənnəsinin hədəflənməsi.

***Monetar hədəfləmə rejimi***. Konseptual olaraq ötən əsrin 50-60-cı illərində formalaşan rejim (*M.Fridman, K.Brunner, A.Meltser*) mahiyyət etibarı ilə *İ.Fişerin* kəmiyyət tənliyinə - "dövriyyədə olan pul kütləsi və onun dövretmə sürəti əmsalı hasilinin iqtisadiyyatda nominal gəlirlər səviyyəsinə bərabər olması"-na əsaslanır. Yəni bu asılılıqdan çıxış olunaraq qəbul olunur ki, pul təklifinin dəyişmə səviyyəsi iqtisadiyyatda ümumi qiymət artımını müəyyənləşdirdiyindən real ÜDM-in artımının proqnozu və digər makroiqtisadi amillərin nəzərə alınması ilə pul təklifinin elə dəyişmə dəhlizi müəyyənləşdirilə bilər ki, proqnozlaşdırılan dövrə qiymətlərin sabitliyi təmin olunsun.

Rejimin reallaşdırılması mərkəzi bank tərəfindən, hər ilin əvvəli, hədəflənən monetar göstəricilər səviyyəsində dəyişikliklərin (hədəflənən konkret pul aqreqatının - M1, M2 və ya M3 üzrə, faizlə artımı; və ya ümumi likvidlik səviyyəsinin dəyişməsi, yaxud da pul təklifinin dəyişməsi dinamikasının yuxarı və aşağı hədləri şəklində) qiymətləndirilməsinə və iqtisadi subyektlərin bu barədə məlumatlandırılmasına əsaslanır. Başqa sözlə, pul kütləsinin artımı iqtisadi subyektlərdə inflyasiya gözləntilərini, sonuncu isə inflyasiyanı stimullaşdırır.

Təbii ki, rejiminin istifadə səmərəliliyi mərkəzi bank tərəfindən dövriyyədə olan pul kütləsini nəzarətdə saxlamaq imkanları, əməliyyat və aralıq parametrlərin iqtisadiyyatda qiymət dəyişikliyinə, iqtisadi tənzimləmənin digər parametrlərinə - məşğulluq, istehsalın səviyyəsi, faiz dərəcəsi və s. təsir im-

[1] Mərkəzi banklar pul-kredit siyasəti rejimi vasutəsi ilə müəyyənləşmiş əsas hədəf ilə, bu hədəfin əldə olunması üçün təmin edilən aralıq hədəf, tənzimlənən əməliyyat hədəfi və monetar alətlər arasında kəmiyyət və keyfiyyət əlaqələrini müəyyənləşdirir.

kanları ilə müəyyənləşir. Son dövrlər, 2000-ci illərin ortalarına kimi dünyanın bir sıra ölkələrində, o cümlədən bir sıra Avropa ölkələrində, iqtisadiyyatda qiymətlərin artımının pul təklifinin artımı ilə müəyyənləşməsi tənzimləmənin baza prinsipi kimi qəbul olunurdu. Başqa sözlə, bir sıra makroiqtisadi amillər nəzərə alınmaqla pul təklifinin artımı ilə qiymətlərin artımı arasında formal əlaqə müəyyənləşərək, ÜDM-in real artımının proqnozu əsasında qiymətlərin sabitliyini təmin edə biləcək pul kütləsinin dəyişmə dəhlizi müəyyənləşdirilib.

Ümumi halda bu asılılıq aşağıdakı kimi ifadə oluna bilir:

**M (hədəf) = P (gözlənilən) +Y(trend) – V(trend),** burada

**P(gözlənilən)** - gözlənilən inflyasiya tempi;

**Y(trend) -** ÜDM-in potensial arım tempi;

**V(trend) -**pul kütləsinin dövretmə sürətinin dəyişmə tempi.

Beləliklə, pul aqreqatlarının indikativ göstəricilər qismində istifadəsinin əsasında iki müddəa dayanır: (1) iqtisadiyyatda pula olan tələbin uzunmüddətli sabitliyi və bu səbəbdən inflyasiya ilə pul kütləsinin artımı arasında əlaqənin formalaşmasının mümkünlüyü; (2) pul təklifində dəyişikliklər əsasında inflyasiyanın orta müddətli perspektivə proqnozlaşdırılmasının mümkünlüyü.

Monetar hədəfləmə rejiminin nəzəri əsaslarının və praktiki istifadə təcrübəsinin nəticələrinin təhlili göstərir ki, rejimin, pul-kredit siyasətinin digər rejimləri ilə müqaisədə, istər üstün, istərsədə çatışmayan cəhətləri mövcuddur. Belə ki, üstün cəhətləri sırasına: (1) pul kütləsi səviyyəsində dəyişikliklər, makroiqtisadi tənzimləmənin digər göstəricilərinə nisbətən, daha tez məlum olduğundan qısamüddətli dövrə inflyasiyanın gözlənilən səviyyəsinin daha tez qiymətləndirilməsi mümkündür; (2) iqtisadiyyatda nominal pul kütləsi səviyyəsi inflyasiya nisbətən daha asan nəzarətdə saxlanılır; (3) pul təklifinin hədəflənməsi və sərt nəzarətdə saxlanılması büdcə kəsri səviyyəsinə sərt məhdudiyyətlər müəyyənləşdirdiyindən fiskal siyasətə nizamlayıcı təsirlər göstərir; (4) monetar hədəfin konkretləşdirilməsi üçün xüsusi mürəkkəb analitik təhlillərin aparılması tələb olunmur. Bu məqsədlə yalnız gözlənilən real iqtisadi artımın qiymətləndirilməsi, dövriyyədə olan pul kütlləsinin dövretmə sürəti üzrə dəyişikliyin trendi və pul bazası multiplikatorunun qiyməti yetərlidir; (5) nəhayət, monetar hədəfləmə rejiminin istifadəsi pul-kredit siyasətinin digər rejimləri ilə müqaisədə daha bir üstünlüyü ondan ibarətdir ki, pul kütləsinin artım tempi göstəricisi istehsal səviyyəsinin dəyişməsində müşahidə olunmayan hissə barədə də məlumatların toplanmasına imkan verməsi aiddir .

Yuxarıda göstərilən üstünlüklərlə yanaşı monetar hədəfləmə rejiminə həm konseptual baxımdan, həm də praktiki tətbiq baxımından bir sıra çatışmazlıqlar da xasdır. Belə ki: (1) monetar hədəfləmə rejimi mərkəzi bank tərəfindən nominal pul kütləsi üzrə dəyişikliklərə tam nəzarət imkanına malik olmasına və iqtisadiyyatda nominal gəlirlərlə pul kütləsi arasında uzunmüddətli stabil əlaqənin mövcudluğuna əsaslanır. Aydındır ki, bu müddəa monetar baza üzrə pul multiplikatoru və iqtisadiyyatda pul kütləsinin dövretmə sürətində sabitliyin mövcudluğu şəraitində doğrudur. Real təcrübədə isə bir sıra hallarda

bu tələblər ödənilmədiyindən monetar hədəfləmə rejiminin istifadəsi məqsədəuyğun sayılmır; (2) monetar hədəfləmə rejiminin istifadəsinin səmərəliliyi iqtisadiyyatda pula olan tələbin tsiklik dəyişiklikliyə məruz qaldığı, pula tələbin səviyyəsində kəskin dəyişiklikləri zamanı, pul kütləsinin dövretmə sürətində kəskin dəyişikliklərlə əlaqədar olaraq əhəmiyyətli dərəcədə azalır.

Bundan əlavə, bir sıra tədqiqatlarda göstərilir ki, monetar hədəfləmə rejiminin tətbiqi zamanı mərkəzi bank iqtisadiyyatda pul təklifi səviyyəsinə tam nəzarət imkanına malik olmalıdır. Lakin mərkəzi bank yalnız milli valyutada pul bazasına səmərəli nəzarət edə bilir. Geniş mənada pul göstəriciləri isə iqtisadiyyatda təsərrüfat subyektlərinin fəaliyyətinin xarakteri, iqtisdiyyata daxil olan xarici valyutanın və kapitalın həcmi ilə müəyyənləşdiyindən əsas makroiqtisadi göstəricilər geniş mənada pul kütləsi səviyyəsindəki dəyişikliklərdən asılıdır. Bundan əlavə, rejimin istifadə səmərəliliyi iqtisadiyyatda maliyyə bazarlarının genişlənməsi və inkişafı ilə inflyasiya və pul kütləsi arasında əlaqənin zəifləməsi səbəbindən azalır.

***Mübadilə məzənnəsinin hədəflənməsi rejimi***[2]. Bu rejimin istifadəsinin əsasını milli valyutanın məzənnəsinin bir və ya bir neçə xarici valyutanın məzənnəsinə bağlanması təşkil edir. Mübadilə məzənnəsinin hədəflənməsi rejimin üstünlükləri və çatışmazlıqlarının araşdırılması üzrə aparılmış nəzəri tədqiqat işləri və müxtəlif ölkələrdə onun istifadəsinin praktiki nəticələri göstərir ki, hazırda rejim 3 əsas variantda istifadə olunur: (1) *sərt qeyd olunmuş məzənnə rejimi* - bu zaman milli valyutanın məzənnəsi xarici valyuta (və ya valyutaların) məzənnəsinə sərt fiksə edilir; (2) *valyuta dəhlizi-* bu zaman milli valyutanın xarici valyuta (və ya valyutalara) məzənnəsinin dəyişmə diapozonu sərt fiksə olunur və məzənnə bu dəhlizdə, valyuta bazarında tələb və təklifə müvafiq olaraq, sərbəst dəyişə bilir. Rejimin əsas üstünlükləri ondan ibarətdir ki, o, bir tərəfdən məzənnənin dəyişikliyinin müəyyən çərçivədə sərbəstləşdirilməsi ilə əlaqədar olaraq qısamüddətli dövrə valyuta bazarında spekulyativ əməliyyatların qarşısının alınmasına, digər tərəfdən isə, sərt qeyd olunmuş məzənnə rejimindən fərqli olaraq, həm ümumi makroiqtisadi siyasətin, həm də monetar siyasətin yumşaldılmasına imkan verir. Bu səbəbdən, mərkəzi bank monetar alətlərin istifadəsi üzrə nisbi sərbəstlik, pul-kredit siyasətinin reallaşdırılması üzrə bir qədər çeviklik əldə edir; (3) *üzən tənzimlənən məzənnə rejimi-* praktiki təcrübədə ən geniş yayılmış tənzimləmə rejimi olmaqla məzənnənin sürüşən fiksasiyasına əsaslanır. Bu zaman məzənnə əsasən valyuta bazarında tələb və təklif əsasında müəyyənləşsə də, zəruri hallarda mərkəzi bank tərəfindən, alış və satış yönümlü müdaxilələr əsasında məzənnənin arzu olunmayan möhkəmlənməsi və ya ucuzlaşmasının qarşısı alınır. Rejimin istifadəsinin ən mühüm üstünlüyü monetar tənzimləmənin xarici şok təsirlərə reaksiya gücünü

[2] BVF-un təsnifləşdirməsinə müvafiq olaraq mübadilə məzənnəsi rejiminin aşağıdakı növləri fərqləndirilir: (1) sərbəst üzən mübadilə məzənnəsi rejimi; (2) sərt qeyd olunmuş mübadilə məzənnəsi rejimi; (3) mübadilə məzənnəsinin bu və ya digər sxem üzrə tənzimlənmə rejimləri.

artırmasıdır.

Rejimin istifadəsinin ən mühüm xüsusiyyətlərindən biri – onun iqtisadiyyata yönəltdiyi siqnal effektidir. Belə ki, əgər iqtisadiyyatda istər yerli, istərsə də idxal məhsulları üzrə qiymətlər fiksə olunubsa, bu halda, xarici valyutanın (bir qayda olaraq ABŞ dolları və ya avronun) məzənnəsi ölkədə qeyri-rəsmi olaraq qiymətlərin müəyyənləşdiricisi və tədavül vasitəsi kimi çıxış edir. Bu səbəbdən də mübadilə məzənnəsinin fiksə edilməsi - qiymətlərin sabitliyi; bahalaşıb/ucuzlaşması isə qiymətlərin dəyişəcəyi barədə siqnaldır.

Mübadilə məzənnəsinin hədəflənməsi rejimi monetar hədəfləmə rejimi ilə müqayisədə bir sıra üstünlüklərə malikdir: (1) rejimin şəffaflığı və əhali üçün daha aydın olması inflyasiya gözləntilərinə təsiri gücləndirir; (2) pul kütləsinin hədəflənməsi rejimindən fərqli olaraq mərkəzi bank üçün mübadilə məzənnəsinin tənzimlənməsi daha asandır; (3) mübadilə məzənnəsinin hədəflənməsi monetar hədəfləmə rejiminə nisbətən iqtisadiyyatda institusional və struktur dəyişikliklərə az həssasdır və eyni zamanda, xarici ticarət sektoruna (idxal-ixrac üzrə struktur dəyişikliklərinə) əhəmiyyətli təsirlər müəyyənləşdirir.

Eyni zamanda mübadilə məzənnəsinin hədəflənməsi rejiminin tətbiqinin mühüm çatışmazlıqlarıda mövcuddur və onlardan biri rejimin inflyasiyanın kiçik səviyyəsinin tez, lakin yalnız müvəqqəti təmin olunmasına imkan verməsidir. Rejimin tətbiqi şəraitidə iqtisadiyyatda kiçik inflyasiya formalaşsa da, inflyasiya prosesləri dayanmır və inflyasiya özünün gizli – inflyasiya potensialının toplanması formasına keçir. Təbii ki, toplanan inflyasiya potensialının reallaşması makroiqtisadi stabilləşmədə bir sıra neqativ dəyişikliklərə, rejimin istifadəsi isə iqtisadiyyatda valyuta böhranına səbəb ola bilər.

Mübadilə məzənnəsinin hədəflənməsi rejiminin istifadəsi təcrübəsi göstərir ki, rejimin istifadəsi yalnız o halllarda məqsədə uyğundur ki, makroiqtisadi tənzimləmədə əsas hədəf qismində yüksək inflyasiyanın məqbul səviyyəyə endirilməsi çıxış etsin. İnfyasiyanın məqbul səviyyəsi formalaşdıqdan sonra makroiqtisadi tənzimləmədə mübadilə məzənnəsinin hədəflənməsi öz səmərəliliyini itirir.

BVF tərəfindən aparılmış araşdırmalara əsasən tətbiq baxımından ən geniş istifadə olunan nominal mübadilə məzənnəsi, ən az istifadə olunan isə monetar (pul aqreqatlarının) hədəfləmə rejimləridir.

***Valyuta siyasəti.*** Makroiqtisadi sabitlik və iqtisadi artımın davamlığının təmin olunması baxımından valyuta siyasəti mexanizməri sırasında iki aspekt fərqləndirilir: (1) *mübadilə məzənnəsi rejimi*; (2) *valyuta rejimi* (milli valyutanın dönərlik səviyyəsi). Bu baxımdan, pul-kredit və valyuta siyasəti rejimlərinin uzlaşdırılması imkanları sərt məhduddur. Belə ki: - milli valyutanın sərbəst dönərliyi şəraitində mübadilə məzənnəsəinin sabitliyi yalnız sərt qeyd olunmuş mübadilə məzənnəsi rejiminin istifadəsi ilə əldə oluna bilər. Lakin belə tənzimlmə sxemində faiz dərəcəsi və kredit kanallarının sərbəst istifadəsi mümkünsüzləşir. Yəni mərkəzi bank artıq iqtisadiyyatda daxili tarazlığa yönəlmiş faiz dərəcəsi siyasətini reallaşdıra bilmir, yalnız mübadilə məzənnəsinin

